# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 210 (8526) ÇƏRŞƏNBƏ AXŞAMI, 13 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## *Prezident İlham ƏLİYEV:*
## "Ermənistanın bu alçaq əməlləri Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz"

Ermənistanın Gəncəyə raket hücumu Rusiyanın vasitəçiliyi ilə aparılmış danışıqlara hörmətsizlik və erməni faşizminin növbəti təzahürüdür.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "Twitter" hesabında yazıb.

Dövlət başçısı qeyd edib ki, bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!

## "Ermənistanın Gəncənin dinc sakinlərini raketlə atəşə tutması müharibə cinayətidir və Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır"

Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub, Gəncə şəhərinin dinc sakinlərini raketlə atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev özünün "Twitter" hesabındakı paylaşımında qeyd edib.

Dövlət başçısı bildirib ki, bu, müharibə cinayətidir və Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır.



## "Ermənistanın hərbi-siyasi rəhbərliyi törətdiyi cinayətlərə görə məsuliyyət daşıyır"

Ermənistanın hərbi-siyasi rəhbərliyi törətdiyi cinayətlərə görə məsuliyyət daşıyır.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında yazıb.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan tərəfi bütün bunlara layiqli cavab verəcək!




## Döyüş meydanında cəzalandırılan Ermənistan Azərbaycana qarşı iddialarından imtina etməyə məcbur oldu

Tarixi günlərini yaşayan Azərbaycanın sentyabrın sonundan başlayaraq cəbhə xəttində həyata keçirdiyi hərbi əməliyyatlar işğal olunmuş torpaqlarımzın bir qisminin azad edilməsi ilə nəticələndi. Bu gün Cəbrayıl rayonu, Hadrut qəsəbəsi, Murovdağ zirvəsi, Suqovuşan su anbarı, onlarca kənd, strateji yüksəkliklər azad edildi. İndi həmin ərazilərdə Azərbaycan bayrağı dalğalanır.

### Azərbaycan göstərdi ki, istənilən an status-kvonu dəyişmək iqtidarındadır

Bu əməliyyatlar, ilk növbədə, bəzi həqiqətlərə yeni işıq saldı. İlk növbədə, sübut olundu ki, Azərbaycan Ordusu Cənubi Qafqazın ən mükəmməl döyüş qabiliyyətinə malik olan hərbi gücüdür. Əks-hücum əməliyyatlarında düşmənə sarsıdıcı zərbələr endirməklə torpaqlarımızı işğaldan azad edən Ordumuz öz qüdrətini göstərdi, Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi modern ordu quruculuğunun uğurlu nəticələri praktik olaraq döyüş meydanında nümayiş olundu.

Digər tərəfdən, İlham Əliyev göstərdi ki, bu münaqişə dondurulmuş qala bilməz və Azərbaycan istənilən an status-kvonu dəyişmək iqtidarındadır. Münaqişənin həll olunmaması və işğala əsaslanan status-kvonu saxlamaq üçün Ermənistana dəstək göstərilir və danışıqlar prosesi imitasiya olunmuş əsasda aparılırdı. Məqsəd tədricən Azərbaycan torpaqlarının Ermənistan tərəfindən ilhaqına nail olmaq idi. Bunun nəticəsi idi ki, Ermənistan danışıqlar prosesində özünü üstün tərəf kimi aparmğa çalışır, şərtlər irəli sürür, beynəlxalq təşkilatların qərar və qətnamələrini, beynəlxalq ictimaiyyətin çağırışlarını qulaqardına vurur, öz iradəsini diktə etməyə çalışırdı.

Lakin Prezident İlham Əliyev illər ərzində qurulmuş və daim möhkəmləndirilən bu sistemi darmadağın etdi, Azərbaycanın işğalla heç zaman barışmayacağını göstərdi. Sentyabrın 27-dən başlanan müharibə Ermənistanın hərbi-siyasi müstəvidə mövqeyini və iradəsini sarsıtdı.

### İlham Əliyev milli maraqlarımızı qətiyyətlə müdafiə etdi

Onu da qeyd edək ki, Prezident İlham Əliyev həmişə olduğu kimi, Ermənistanın hərbi təxribatlarına qarşı başlanılan son əks-hücum əməliyyatlarının gedişində yenilməz siyasi iradə, əzm, sərkərdə qətiyyəti və prinsipiallıq nümayiş etdirdi. Ermənistanın havadarları olan dövlətlərin təzyiqlərinə baxmayaraq, Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə etdi. Bir daha sübut olundu ki, milli maraqlarımız Prezident İlham Əliyev üçün ən ali dəyərdir.

Sentyabrın 27-də başlamış hərbi əməliyyatlar Azərbaycan Ordusunun tam qələbəsi ilə nəticələndi. Bundan sonra başlanacaq danışıqlarda isə ölkəmiz diplomatik sferada diktə edən tərəf kimi çıxış edəcək.

*Ardı 4-cü səh.*

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA:
## "Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar oktyabrın 11-də rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edirlər. Bu, humanitar atəşkəs rejiminin, habelə 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulması deməkdir.

Bu gecə saat 2 radələrində Gəncə şəhərinə amansızlığına görə misli görünməmiş zərbə endirilib.

Əldə olan məlumata görə, raket atəşi nəticəsində 10 nəfər (o cümlədən 4 qadın) həlak olub, 34 nəfər yaralanıb, çoxsaylı mülki obyektlərə ciddi ziyan vurulub.

Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib. Humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb.

Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram.

Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər.

Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır.

Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Əziz həmvətənlər!

Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!"

## "Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirirəm"

### Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib

Xəbər verdiyimiz kimi, oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib. Oktyabrın 11-də həmin televiziya kanalında dövlətimizin başçısının müsahibəsi yayımlanıb.

AZƏRTAC müsahibəni təqdim edir.

*- Əvvələn, çox sağ olun ki, bizimlə müsahibəyə razılıq vermisiniz. Söhbətə başlamazdan əvvəl mən RBK-nın prinsipləri barədə danışmaq istərdim. Bir neçə gün bundan əvvəl Ermənistanın baş naziri ilə böyük müsahibə gedib, indi isə burada - Azərbaycanda, Bakıdayıq və Azərbaycan Prezidenti İlham Əliyev ilə söhbət edəcəyik. Daha bir remarka. Mən ilk sualı verməzdən əvvəl hər iki tərəfdən həlak olanların bütün doğmalarına başsağlığı vermək istəyirəm. Müharibənin heç kimə lazım olmaması və müharibəsiz də ötüşməyin mümkünlüyü barədə çox eşitmişəm. Lakin bundan sonra ən çətini və yəqin ki, ən maraqlısı başlanır. Danışıqlar başa çatıb. Siz Moskvada baş verənləri necə qiymətləndirirsiniz? Bütün bunların nə demək olduğunu anlamaq bizim üçün çox vacibdir.*

- Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirirəm. Ona görə ki, danışıqların yekunları ilə bağlı yayılmış bəyanatda humanitar mülahizələrə əsasən, atəşkəs rejiminin elan edilməsi bildirilir. Prinsipial əhəmiyyətli bir məqam da odur ki, bu, Azərbaycanın mövqeyi idi.

*Ardı 2-ci səh.*

## "Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır"

### Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

*- "Haber Global" yayımına xoş gəldiniz. Son dərəcə önəmli bir qonağımız var. Bildiyiniz kimi, Azərbaycan Vətən müharibəsi aparır. Beləliklə, döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin sürətli, amma təmkinli irəliləyişi var. Bir atəşkəs prosesi, atəşkəsdən dərhal sonra Ermənistanın xüsusilə dünən törətdiyi hücumlar nəticəsində gərgin diplomatik proseslər, əməliyyat meydanında və masada hərəkətlilik. Təbii ki, bunları ən yaxından izləyən şəxs hazırda bu gərginlik arasında bizə vaxt ayıran Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. Xoş gördük, cənab Prezident.*

- Sağ olun.

*- İlk olaraq, dünənki hücumla, əməliyyat meydanında və masadakı son vəziyyətdən başlamaq istərdim. Bir tərəfdən, gərgin diplomatik fəaliyyət həyata keçirdiyinizi bilirik. İşinizin çox olduğu bir vaxtda bizə vaxt ayırdığınız üçün Sizə bir daha təşəkkür edirəm.*

*Dünən bir çox yerdə bunun qarşılığını gördük, bir hücum, mülki əhaliyə qarşı bir hücum. Amma xüsusilə xarici mətbuatda tam əksinə bir yanaşma var, diasporun bir təbliğat müharibəsi var. Əvvəlcə, mövcud vəziyyətlə bağlı həqiqətlərdən danışa bilərsinizmi?*

*Ardı 3-cü səh.*

## "Müstəqillik dövründə Azərbaycan möhtəşəm inkişafa nail olub"

### Virtual 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində Prezident İlham Əliyevin videomüraciəti təqdim olunub

Oktyabrın 12-də "Kiber Kosmos buraxılışı" mövzusunda virtual 71-ci Beynəlxalq Astronavtika Konqresi keçirilib.

AZƏRTAC xəbər verir ki, konqresin açılış mərasimində Prezident İlham Əliyevin videomüraciəti təqdim olunub.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti xanım **Paskal Erenfroynd:**

- Gələcəyə baxaraq, gəlin 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edəcək Azərbaycana, Bakıya bağlanaq. Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə söz verməkdən şərəf hissi duyuram.

Azərbaycan **Prezidenti İlham Əliyev:**

- Hörmətli xanımlar və cənablar, mən sizi Azərbaycanın paytaxtı Bakıdan səmimi-qəlbdən salamlayıram. Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edəcək. İlk növbədə, mən bizim namizədliyimizi dəstəklədiyinə görə Beynəlxalq Astronavtika Federasiyasının üzvlərinə, bürosuna və komitələrinə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan bir dəfə - 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edib. Beləliklə, 50 ildən sonra - 2023-cü ildə paytaxtımızda ikinci konqresə evsahibliyi etməyimiz rəmzi məna kəsb edəcək. Lakin həmin vaxt Azərbaycan müstəqil deyildi. Azərbaycan Sovet İttifaqının tərkibində idi, Sovet İttifaqının 15 respublikasından biri idi. 1973-cü ildə Azərbaycanın konqresə ev sahibi seçilməsi xalqımızın və Azərbaycanın yüksək intellektual və texniki potensialını nümayiş etdirdi. Üç ildən sonra biz sizi Bakıda görəcəyik. Əlli ildən sonra Konqresin bizim şəhərimizə - lakin indi müstəqil Azərbaycanın paytaxtına qayıtması çox rəmzi məna kəsb edəcək.

*Ardı 4-cü səh.*

# Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi riayət edir

# "Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirirəm"

## Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib

*Əvvəli 1-ci səh.*

Mən şadam ki, həmin mövqe bu sənəddə öz əksini tapıb. Ermənistan ilə Azərbaycan arasında substantiv danışıqlar başlanır, həmçinin danışıqların formatının dəyişməz qalması təsdiqlənir. Ermənistanın yeni hakimiyyəti bu iki mövqeyi pozmağa çalışırdı. Ona görə ki, heç kəs üçün sirr deyil, İrəvandan səslənən bəyanatlar mahiyyət etibarilə uzun illər ərzində işlənib hazırlanmış danışıqlar prosesini, o cümlədən baza prinsiplərini, danışıqların formatını pozmağa yönəlmişdi. Buna görə prinsipial əhəmiyyətli məqam odur ki, Ermənistan tərəfi anlamağa məcbur oldu ki, baza prinsipləri nizamlama üçün əsasdır, həmin prinsiplərdə isə münaqişənin necə nizamlanmalı, Azərbaycanın işğal edilmiş ərazilərinin hansı ardıcıllıqla qaytarılmalı olduğu dəqiq göstərilib. İkincisi, danışıqların formatı dəyişməz qalır. Bu, o deməkdir ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılırdı, aparılır və aparılacaq. Ermənistan rəhbərliyinin bu məsuliyyəti Dağlıq Qarabağda mövcud olan oyuncaq rejimin üzərinə qoymaq üçün göstərdiyi bütün cəhdlər uğursuz oldu. Beləliklə, əminəm ki, bundan sonra Paşinyandan "Qarabağ Ermənistandır" sözlərini bir daha eşitməyəcəyik. Həmçinin onun belə bəyanatlarını eşitməyəcəyik ki, Azərbaycan danışıqları qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "rəhbərliyi" ilə aparmalıdır. Əgər o, belə bəyanatlar verərsə, bu, o demək olacaq ki, o, həm vasitəçilərə, həm də Moskvada bu mətni razılaşdırmış öz nümayəndə heyətinə hörmətsizlik edib və mahiyyət etibarilə, o, danışıqlar prosesini yenidən pozur. Bu dəfə həmin bəyanatlar nəyə gətirib çıxardı? Zənnimcə, bunu hamı aşkar görür, lakin düşünmürəm ki, o, ikinci dəfə həmin səhvi təkrarlayar.

*- Atəşkəs nə qədər davam edəcək? Bu atəşkəsin amanəbəndliyini Siz necə qiymətləndirirsiniz? O, nədən asılı olacaq?*

- İndiki eskalasiyaya qədər atəşkəs uzun müddət, onilliklər boyu davam etdi. Təmas xəttində müəyyən toqquşmalar olub, bu il iyul ayında dövlət sərhədində erməni tərəfinin təxribatları olub. Lakin son 30 ilə yaxın müddətdə bu qədər genişmiqyaslı əməliyyatlar olmayıb. Buna görə hər şey erməni tərəfindən asılı olacaq. Əvvələn, o, atəşkəsə riayət edəcəkmi? Ona görə ki, bu gün səhər və dünən, yəni, bu gecə və səhər mənim aldığım məlumata görə, erməni qüvvələri bir neçə istiqamətdə genişmiqyaslı əks-hücum cəhdləri göstərib, Hadrutu geri almağa, Cəbrayıl rayonunda, şimal istiqamətində bizim azad etdiyimiz əraziləri geri almağa cəhd göstərib. Yəni onlar Moskvada tərəflərin razılığa gələ biləcəyini başa düşdüklərindən itirdiklərini və onlara məxsus olmayanları maksimum həcmdə özlərinə qaytarmağa çalışıblar. Buna görə də atəşkəs rejiminin möhkəmliyinin əsas amili bu olacaq ki, Ermənistan bu ərazilərin bizdə olması ilə, onun həmin əraziləri bir daha heç vaxt görməyəcəyi ilə barışmalı və bunu hərbi yolla geri almağa heç bir cəhd göstərməməlidir.

Bundan heç də az əhəmiyyətli olmayan ikinci amil indicə haqqında danışdığım məsələdir. Biz danışıqlar masası arxasında Ermənistan tərəfindən konstruktiv yanaşma görməliyik, yəqin etməliyik ki, onlar danışıqlar prosesini imitasiya etmək cəhdlərindən əl çəkiblər, təhrikçi əməllərdən, bəyanatlardan çəkiniblər və nizamlama yolunun tapılması məqsədinə sadiqdirlər. Son bir il ərzində erməni tərəfindən gördüklərimiz məhz danışıqlar prosesini pozmağa və məsuliyyəti Azərbaycanın üzərinə qoymağa yönəlmişdi. Buna görə də baxarıq, biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Mən həmişə demişəm ki, bizim imzamız da sözümüz kimi əhəmiyyətlidir. Lakin atəşkəs birtərəfli proses deyil və biz baxarıq, görək erməni tərəfi özünü necə aparır.

*- Danışıqlara başlamaq üçün Azərbaycanın irəli sürdüyü şərtlərdən biri konkretlik idi. Deyilirdi ki, erməni tərəfi qoşunların çıxarılması üçün konkret plan təqdim etməlidir. Bu, Ermənistanın razılaşıb-razılaşmamasından asılı olmayaraq danışıqların indi başlanması deməkdirmi?*

- Bilirsinizmi, biz bunu əsas götürmüşük ki, əlbəttə, münaqişəni siyasi yolla həll etməyə üstünlük verilməlidir və uzun illər boyu bizim bütün fəaliyyətimiz buna yönəlmişdi. Bu səbəbdən, dünən və bu gecə Moskvada aparılmış məsləhətləşmələr çərçivəsində biz onlardan danışıqlar masası arxasında tam təslim olmalarını tələb etmədik. Başa düşürük ki, Paşinyan rejimi yetərincə zəifləyib. Bu rejim daxili siyasi səbəblərə görə eskalasiyadan əvvəl də zəifləmişdi. İndi daha çox zəifləyib. Mən hesab etmirəm ki, indi Ermənistanda bir inqilab baş verməsi və qatı millətçilərin, radikalların, azərbaycanofobların hakimiyyətə gəlməsi Azərbaycanın xeyrinə olar. Buna görə biz razılaşdırılmış bəyanat çərçivəsində konkret tarixlər göstərilməsini təkid etmədik. Lakin şübhəsiz ki, bu, erməni işğalçı qüvvələrinin bizim ərazilərdən razılaşdırılmış şəkildə çıxarılmasını nəzərdə tutur. Bəyanatda substantiv danışıqlara, yəni baza prinsiplərinə istinad edilir, orada isə hər şey konkret yazılıb: beş rayon nə vaxt azad ediləcək, daha iki rayon nə vaxt azad ediləcək.

*- Danışıqlar nə vaxt başlanacaq, bu barədə artıq anlaşma varmı?*

- Biz sabah başlamağa hazırıq. Buna görə hər şey ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır. Bizim tərəf dərhal başlamağa hazırdır. Yeri gəlmişkən, deməliyəm ki, bəyanatın mətni ilə əlaqədar Azərbaycan tərəfinin bütün istəkləri nəzərə alınıb. Bəyanatın ilkin variantı tamam fərqli idi. Dünən mən onu görəndə dedim ki, bu, bizim üçün münasib deyil. Sənədi həddən artıq qəlizləşdirmək, ağırlaşdırmaq, danışıqlar prosesinin son mərhələsində müəyyən edilməli olan elementləri oraya inkorporasiya etməyə çalışmaq lazım deyil. Onu maksimum sadələşdirmək lazımdır. Yadımdadır ki, orada olmayanları nəzərə aldıq, danışıqlara dərhal başlamaq bəndinin daxil olunmasını xahiş etdik. Yəni biz mümkün qədər tez nizamlamada maraqlıyıq. Ona görə ki, nizamlama bizim vətəndaşların, qaçqınların, daxili köçkünlərin öz evlərinə qayıtmalarına imkan verəcək.

*- Burada olduğum iki gün ərzində başa düşdüyümə görə Azərbaycanda bu əhvali-ruhiyyədədirlər ki, biz axıradək getməliyik. İndi azərbaycanlılara necə izah etməli ki, Bakı yenidən danışıqlara razılıq verib?*

- Biz axıra qədər gedəcəyik. Biz dayanmamışıq. Əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda, dünən dediyim kimi, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Buna görə biz istənilən halda axıra qədər gedəcəyik. Bizim məqsədimiz dəyişməz qalır. Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi, azərbaycanlıların əvvəlki, ənənəvi yaşadıqları yerlərə, o cümlədən Şuşaya, Dağlıq Qarabağdakı digər yaşayış məntəqələrinə və əlbəttə, keçmiş DQMV-nin inzibati hüdudlarından kənardakı bütün başqa ərazilərə qaytarılması. Buna görə bizim məqsədimiz dəyişməz qalır. Sadəcə, bu məqsədə doğru necə getməliyik? Biz həmişə siyasi yolla getməyə çalışmışıq, həmişə də eşitmişik ki, hərbi həll yoxdur. Biz sübut etdik ki, bu, belə deyil. Biz döyüş meydanında göstərdik ki, bu, belə deyil. Göstərdik ki, hərbi tərkib hissəsi olmasa, bu danışıqlar daha 30 il davam edərdi. O vaxta qədər nələr baş verərdi? Qanunsuz məskunlaşdırma. Bu, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarının pozulmasıdır. Təəssüf ki, buna heç kəs - nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT reaksiya vermədi. Azərbaycanın tarixi irsinin dağıdılması, bizim mədəni, tarixi, dini abidələrin məhv edilməsi, toponimlərin dəyişdirilməsi, rayonlarımızın inzibati sərhədlərinin dəyişdirilməsi, bizim dağların, çayların və şəhərlərin adlarının dəyişdirilməsi. Yəni biz daha 30 il gözləməli olardıq, sonra da bizə deyərdilər ki, bilirsiniz, iş belə gətirib, bununla barışın. Bizə belə də deyirdilər. Buna görə düşünürəm ki, hərbi yol və ya onun birinci mərhələsi sona çatıb, indi biz siyasi nizamlama mərhələsinə çatmışıq. Məhz bu mərhələ bizim axıra qədər getməyimizi və hüquqa görə bizə məxsus olanı almağımızı təmin edəcək. Ona görə düşünürəm ki, Azərbaycan cəmiyyəti dünən və bu gecə baş verənləri çox düzgün qəbul edəcək və bizim siyasətimizi bundan sonra da dəstəkləyəcək. Çünki biz həmişə xalqa həqiqəti demişik. Həmişə xalqın mənafelərini müdafiə etmişik. Döyüş meydanında baş verənlər bunu bir daha hamıya sübut etdi.



*- Siz bütün bu hadisələrə qədər Ermənistanın baş naziri Nikol Paşinyan ilə bir neçə dəfə görüşmüsünüz. Bu hadisələrdən sonra Siz onunla bir masa arxasına əyləşməyə və ya danışmağa hazırsınızmı?*

- Bilirsinizmi, böyük etimad bəsləmədiyin adamla danışmaq çətindir. Mən onun sələfləri, müharibə cinayətkarları hesab etdiyim adamlarla danışıqlar aparmağa məcbur idim. Çünki onlar Xocalıda qanlı soyqırımı törədiblər, onlar Azərbaycanın dinc əhalisini məhv etməkdə, bizim tarixi və mədəni irsimizin dağılmasında təqsirkardırlar. Lakin mən məcbur idim. Ona görə ki, biz bu münaqişənin nizamlanması yolunu tapmalı idik. Ermənistanda yeni iqtidar, yeni rəhbərlik hakimiyyətə gələndə əvvəlcə onlarla əlaqələrimiz çox ümidverici idi. Mən bir dəfə bu barədə danışmışam, təkrarlamaq istəmirəm. Lakin sonra tamam əks hadisələr baş verdi, yəni, biz özümüzü aldadılmış hiss etdik. Biz başa düşürük ki, rəqiblə danışıqlar aparırıq, lakin hətta rəqiblə, düşmənlə də münasibətdə vicdanlı qalmaq, heç olmasa öz qarşısında vicdanlı olmaq, öz sözünə hörmət etmək lazımdır. Bunlar baş verəndə təbii ki, bizim bu mənasız fəaliyyəti davam etdirmək istəyimiz aradan qalxdı. Opponentin hər kəlməsi yalandırsa, onun yalanları dünya KİV-lərində yayılırsa, bütün dünyaya translyasiya edilirsə, onunla nə barədə danışmaq olar? Yəqin onlar öz ölkələrində yalan danışmağa adət ediblər. Lakin internet dövründə tarix barədə, münaqişənin mahiyyəti barədə yalan danışanda bu yalan çox tezliklə ifşa olunur. Buna görə mən belə imkanı istisna etmirəm, lakin bunun üçün müəyyən şərait lazımdır. İndiki mərhələdə mən bunu səmərəli hesab etmirəm. Əksinə, Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Mən istər ölkə daxilində, istərsə də xüsusən xaricdə heç kəslə bu tonda ünsiyyəti özümə heç vaxt rəva görməmişəm. Lakin Paşinyan bizə 7 ultimatum təqdim edəndə, o, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və biz bunu etdik. Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi.

*- Siz indicə Rusiyanın rolu barədə danışdınız. Yəni bu danışıqlarda Rusiyanın rolu həqiqətən həlledici olub.*

- Əlbəttə, Minsk qrupunun həmsədri kimi Rusiya ATƏT tərəfindən üç ölkəyə verilmiş hüquq və səlahiyyətlərə malikdir. Lakin sözsüz ki, Rusiya bizim qonşumuz kimi, həm Azərbaycanla, həm də Ermənistanla ortaq tarixə malik olan bir ölkə kimi, əlbəttə, xüsusi rol oynayır. Şübhəsiz, bu rol xalqlarımızın tarixinə və qarşılıqlı əlaqələrinə, həmçinin Rusiyanın dünyada və əlbəttə, bizim regionda sanbalına və roluna əsaslanır. Buna görə, əlbəttə, münaqişənin nizamlanmasına təsir göstərmək üçün Rusiyanın imkanları bu obyektiv səbəblərə görə hər hansı başqa ölkənin imkanları ilə müqayisəyəgəlməz dərəcədə çoxdur. Buna görə biz dəfələrlə Rusiya rəhbərliyinə müraciət etmişik ki, Rusiya rəhbərliyi Ermənistana siyasi təsir göstərmək vasitələrindən istifadə etsin, erməni tərəfini inandırsın ki, işğala son qoyulmalıdır. Bu mövzu dəfələrlə müzakirə edilib və sizə deyə bilərəm ki, rusiyalı həmkarımla bütün çoxsaylı görüşlərimdə bu mövzu ya müfəssəl, ya o qədər də ətraflı olmayan formada müzakirə edilib, lakin belə olmadı. Axı, gizli deyil ki, bu gün Ermənistan Rusiyadan 100 faiz asılı vəziyyətdədir. Onun təhlükəsizliyi Rusiya tərəfindən təmin edilir, pulsuz silahlanması Rusiya tərəfindən təmin edilir. Biz Ermənistana məxsus, bəlkə də milyardlarla dollar dəyərində texnikanı iki həftə ərzində məhv etdik. Onlarda bu pullar haradandır? Onların pulu yoxdur. Bütün bunlar Rusiyadan pulsuz göndərilir. Qaz təchizatı Rusiyadan güzəştli qiymətlərlə təmin olunur, elektrik enerjisi də müəyyən dərəcədə güzəştlə verilir. Dəmir yolları, rabitə, hərbi baza. Hətta Ermənistanın Türkiyə və İranla sərhədini rusiyalı sərhədçilər qoruyur. Əgər belə olmasaydı, sərhəd boş qalardı. Ermənistana təsir göstərmək üçün daha hansı ölkənin bu qədər vasitələri var? Heç bir ölkənin. Bəlkə də dünyada başqa elə iki ölkə yoxdur ki, onlardan biri digərindən bu qədər tam asılı olsun. Buna görə əminəm ki, Rusiya tərəfindən təkid göstərilsə, bizim status-kvonu dəyişməyimiz, təmas xəttini yarıb keçməyimiz nəticəsində İrəvanın ayılması nəzərə alınmaqla Rusiya qısa müddətdə Ermənistanı inandıra bilər: təkcə hərbi qarşıdurma baxımından deyil, bütövlükdə Ermənistanın gələcəyi üçün indiki vəziyyətdən yeganə çıxış yolu Azərbaycanla münaqişənin həllini tapmaqdır. Bu həll isə çox sadədir - onlar bizim ərazidən getməli, öz qoşunlarını çıxarmalı, bizim insanlar oraya qayıtmalı və biz yenidən yanaşı yaşamağa çalışmalıyıq.

*- İndi başqa ölkə - Türkiyə haqqında soruşmaq istəyirəm. Bu günlər ərzində Azərbaycanı və şəxsən Sizi dəfələrlə bunda ittiham ediblər ki, əslində, bu münaqişə ilə bağlı bütün məsələləri Türkiyənin hakimiyyət orqanları idarə edirlər. Dünən, bu gecə biz Türkiyəni danışıqlar masası arxasında görmədik. Nə üçün?*

- Bu, onu göstərir ki, bütün bu fikirlər yalan idi, bu, qəsdən ortaya atılmış məsələ idi, burada bir neçə məqsəd vardı. Əvvələn, Türkiyəni daha da iblisləşdirmək. Təəssüf ki, Qərbdə bu məqsəd müasir siyasi modanın hansısa normasına çevrilir. Bu, tamamilə əsassızdır. Türkiyə öz maraqlarını güdür, öz həyatını yaşamaq hüququnu qoruyur. Prezident Ərdoğanın dövründə Türkiyə Qərbin itaətkar müttəfiqi olmağa son qoyub. O, həm öz regionunda, həm də dünyada öz şərtlərini diktə edir. Türkiyə ilə hesablaşırlar. Türkiyənin nüfuzu artıb. Türkiyə ordusu NATO-da ikinci yeri tutur. O, istənilən hərbi-siyasi problemi həll edə bilər. Buna görə əlbəttə, Qərb tərəfindən bu cür açıq təzyiq göstərilir. Bu təzyiq hətta Türkiyəyə münasibətdə hansısa çox qəribə və mənfi emosional fonla bağlıdır. Yəni birinci səbəb Türkiyəni iblisləşdirmək istəyidir. İkinci səbəb Azərbaycanın potensialını, o cümlədən hərbi-texniki potensialını azaltmaq və belə təsəvvür yaratmaq cəhdidir ki, hərbi məsələni Türkiyə və ya onun təsiri altında olan başqa birisi həll edib. Xeyr, biz öz torpaqlarımızı özümüz azad etmişik. Belə adlandırılan "müzəffər erməni ordusu" haqqında mif puç oldu, əslində, belə ordu yox idi. Münaqişənin tarixinə dərindən bələd olanlar çox gözəl bilirlər ki, bizim torpaqlarımız, o cümlədən sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən işğal edilib. Xankəndidə yerləşən bu alaydakı hərbi qulluqçuların məncə 70 faizi erməni mənşəli idi. Yəni bu, şəxsi heyəti ermənilərdən ibarət olan sovet silahları, sovet komandanlığı idi. Onlar həm etnik təmizləmələrdə, həm də soyqırımında fəal rol oynayırdılar.

*- Siz yəqin ki, 1990-cı illərin əvvəllərindəki hadisələri nəzərdə tutursunuz...*

- Şübhəsiz. 366-cı alayın dəstəyi və fəal iştirakı olmasaydı, Ermənistan bizim əraziləri tuta bilməzdi. Ona görə bundan sonra belə bir mif yarandı ki, erməni ordusu müzəffərdir, Azərbaycan Ordusu onun qarşısında dayana bilməz. Buna görə bu mifi saxlamaq lazım idi, amma Azərbaycan tərəfindən acı məğlubiyyətə uğradıldığını etiraf etmək görünür, Ermənistan cəmiyyəti və Ermənistan rəhbərliyi üçün çox ağır idi. Üçüncüsü, onlara dünya arenasında Azərbaycanın rolunu və əhəmiyyətini azaltmaq lazım idi. Bunu etmək isə çox çətindir. Ona görə ki, bu gün dünya ölkələri ilə Azərbaycanın çoxşaxəli iqtisadi və siyasi əlaqələri var. Bu gün biz 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına rəhbərlik edirik və yekdilliklə seçilmişik. Əgər bizim ölkəmiz müstəqil potensiala malik olmasaydı, bu cür hörmət qazana bilərdikmi? Buna görə Azərbaycanın Türkiyə tərəfindən idarə edilməsi və bizim onun iradəsini yerinə yetirməyimiz barədə bütün insunasiyalar tamamilə yalandır. Bu, həm də Türkiyə-Azərbaycan qardaşlığını pozmağa və ya müəyyən qədər zəiflətməyə yönəlib, lakin baş tutmayacaq. Yeri gəlmişkən, Azərbaycan və Türkiyə ətrafında bütün bu informasiya hay-küyü üçün əsas olsaydı, bugünkü bəyanat olmazdı. Bu bəyanat mənimlə razılaşdırılıb, başqa heç kimlə. Əgər bizi kimlərsə idarə etsəydi, onda yəqin ki, məsələ belə tezliklə həll edilməzdi. Hazırda Türkiyə dünyada və regionda sabitləşdirici rol oynayır. Türkiyə rəhbərliyinin, şəxsən Prezidentin və digər rəsmi şəxslərin eskalasiya dövründə fəal və çox dəqiq mövqeyi, əslində, üçüncü ölkələrin bu münaqişəyə müdaxiləsinin qarşısını aldı. Buna görə hesab edirəm ki, Türkiyənin rolu yalnız müsbətdir və o, bizim regionda, o cümlədən münaqişənin həllində daha böyük rol oynamalıdır.

*- İndi Rusiyada çoxları "Türkiyə daha böyük rol oynamalıdır" frazasını eşidəcəklər. Bu sözlərin arxasında hansı məna var? Siz nəyi nəzərdə tutursunuz?*

- Fikrimcə, bu barədə danışmaq hələ tezdir, çünki mən Azərbaycan tərəfin mövqeyini bildirirəm. Lakin yaxın vaxtlarda müsahibələrimin birində demişəm ki, Minsk qrupu neçə illər bundan əvvəl - 1992-ci ildə, tamamilə başqa geosiyasi reallıqlar şəraitində formalaşıb. Əgər biz vasitəçilərin təmas qrupunu bu gün formalaşdırsaydıq, onun tərkibi fərqli olardı. Bu qrupun tərkibi münaqişə tərəflərinin niyyətlərini və istəklərini əks etdirməlidir. Minsk qrupunun tərkibi isə praktiki olaraq bunları əks etdirmir. Yeni təmas qrupunun və ya hansısa işçi qrupun, - onu necə adlandırmaq vacib deyil, - tərkibi regionda mövcud qüvvələr tarazlığını, region ölkələrinin mövcud maraqlarını əks etdirməli və nəticəyə istiqamətlənməlidir. Əks halda, bunun nə mənası var? Bunun heç bir mənası yoxdur. Əgər biz münaqişəni həll etmək istəyiriksə, o, yeni format çərçivəsində həll olunmalıdır. Baxın, son vaxtlar bir sıra qaynar nöqtələr barəsində ölkələrin mövqelərini razılaşdırmaq üçün nə qədər yeni əməkdaşlıq formatı yaradılıb - üçtərəfli, dördtərəfli. Axı, onlar indi yaradılır, hansısa ehkamlar əsasında deyil, real qüvvələr nisbəti əsasında yaradılır. Buna görə burada əsla şübhə ola bilməz ki, Türkiyə münaqişənin nizamlanması işində mühüm rol oynamalıdır və oynayacaq. Bunun hansı formada - hüquqi, yoxsa de-fakto həyata keçirilməsi artıq texniki məsələdir.

*- Rusiyanın rolu barədə. Mən Bakıda gəzəndə çoxlu Azərbaycan bayrağı gördüm, bir qədər az, lakin yenə də çox sayda Türkiyə bayrağı gördüm və bircə dənə də Rusiya bayrağı görmədim. Bu, o deməkdirmi ki, Azərbaycanda Rusiyanın təsiri azalıb və ya Azərbaycanda insanların Rusiyaya münasibəti dəyişib?*

- Düşünmürəm ki, münasibət dəyişib. Türkiyə bayraqlarının çox olması təbiidir. Biz qardaş xalqlarıq. Bu gün Türkiyə ilə Azərbaycan arasında etimad, qarşılıqlı dəstək və münasibətlərin səviyyəsi elədir ki, mənim fikrimcə, dünyanın hər hansı başqa, hətta ən yaxın ölkələri arasında elə səviyyə yoxdur. Bu, reallıqdır və bu reallığı biz yaratmışıq - Türkiyənin və Azərbaycanın rəhbərliyi. Özü də məsələ bizim ortaq köklərimizlə və ortaq tariximizlə bağlı deyil. Dünyada Türkiyə və Azərbaycan kimi etnik kökləri yaxın olan, lakin öz aralarında döyüşən xalqlar var. Bu, sizə də çox yaxşı məlumdur. Yaxud bir-biri ilə intriqa aparırlar. Buna görə Azərbaycanda Türkiyə bayraqlarının olması reallıqdır və əgər siz Türkiyəyə getsəniz orada da çox yerlərdə Azərbaycan bayraqlarını görərsiniz.

Rusiyaya münasibət məsələsinə gəldikdə isə sizə bir fakt göstərə bilərəm. Pandemiyaya qədər bizdə Azərbaycana səfər edən Rusiya vətəndaşlarının sayı hər il təxminən 15-20 faiz artırdı. Keçən il bu göstərici bir milyona yaxın olub. Mən həmişə demişəm, rusiyalıları buraya cəlb edən təkcə bizim mətbəximiz, təkcə çimərliklər, təkcə tarix deyil, həm də odur ki, onlar burada özlərini rahat hiss edirlər. Öz mühitlərində olduğu kimi hiss edirlər, burada insanlarla rus dilində danışırlar. Yəqin bilirsiniz ki, bizdə, Azərbaycanda təhsilin rus dilində olduğu neçə məktəb var. Onların sayı 300-dən çoxdur. Heç yerdə belə deyil. Rusiya ali məktəbləri, onların filialları. Rusiyanın musiqi, teatr kollektivləri pandemiyaya qədər demək olar ki, hər həftə burada olurdu. Buna görə də Rusiyaya və Rusiya Federasiyasında yaşayan ruslara Azərbaycanda yalnız müsbət münasibət var. Siz artıq bir neçə gündür ki, buradasınız və erməni işğalı amilinin insanların ovqatına nə dərəcədə təsir göstərdiyini bilirsiniz. İnsanlar hər bir sözü, hər bir jesti, hər bir mimikanı duyurlar. Əlbəttə, açıq deməliyəm, bu müddətdə, bu günlər, bu həftələr ərzində bəzi Rusiya kanallarında qatı anti-Azərbaycan təbliğatını, tok-şouların iştirakçılarının saxtakarlığını, manipulyasiyasını, iştirakçılar heyətinin tarazlaşdırılmış olmamasını görəndə, Rusiyanın aparıcı telekanallarında Azərbaycan xalqı, Azərbaycan Prezidenti təhqir ediləndə, əlbəttə, bunlar Rusiyanın nüfuzunu artırmır. Mən bu məsələni Rusiya rəhbərliyinin diqqətinə çatdırmışam. O mənada yox ki, bunlar bizi narahat edir, Azərbaycan cəmiyyəti və ictimai fikri Azərbaycanın daxilində formalaşır. O mənada ki, belə münasibət haçansa bizim planlarımızda müəyyən çətinliklərə gətirib çıxara bilər. Rusiya ilə biz qarşılıqlı əlaqələri daha da inkişaf etdirməyi planlaşdırırıq. Hazırda biz iqtisadi və digər sahələrdə əməkdaşlıq üzrə beş yol xəritəsi üzərində fəal iş aparırıq. Siyasi baxımdan çox yaxşı məsələlər var. Lakin bu müddətdə Rusiya mediasında üzləşdiyimiz informasiya hücumu, əlbəttə, ictimai fikirdə Rusiyaya münasibətə böyük ziyan vurub. Düşünürəm ki, bu vəziyyəti qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazım gələcək.

*- Sizə daha iki sualım var. Yadınızdadırmı, sentyabrın 27-də gecə və ya səhər çağı cavab verməyə başlamaq lazım olması, bu müharibəyə başlamaq lazım olması barədə qərar necə qəbul edildi?*

- Qərarlar, praktiki olaraq, avtomatik rejimdə qəbul edilir. Azərbaycan Ordusunun hərbi qulluqçuları üçün müəyyən təlimatlar var. Düşünürəm ki, bunlar hər orduda var. Təhlükə halında, hücum halında sən necə hərəkət etməlisən. Yəni burada necə hərəkət etmək barədə tərəddüd etmirdik. Xüsusən ona görə ki, biz bu hücumu gözləyirdik. Eskalasiyadan bir neçə gün əvvəl mən bu barədə BMT-nin kürsüsündən danışmışdım. Mənim çıxışımın mətninə baxa bilərsiniz. O vaxt mən demişdim ki, Ermənistan müharibəyə hazırlaşır. Ermənistanı dayandırmaq lazımdır. Bunun üçün dəlillər çox idi. Əvvələn, Ermənistanın müdafiə nazirinin keçən il Amerikada verdiyi bəyanat. Özü də o, bəyan etmişdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Sonra Paşinyanın "Qarabağ Ermənistandır" məzmunlu bəyanatları və sair. Daha sonra Livandan olan ermənilərin nümayişkaranə şəkildə Şuşada məskunlaşdırılmasından ibarət təhrikçi hərəkətlər müharibə cinayətidir. Daha sonra Şuşada, yeri gəlmişkən, işğalçı rejimin orada mövcud olduğu müddətdə ilk dəfə qondarma "andiçmə" mərasimi keçirməklə Azərbaycan xalqının təhqir edilməsi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentini Xankəndidən Şuşaya köçürmək cəhdi və bir sıra başqa əməllər. Bütün bunlar bizə qarşı təxribat idi. Sonra iyul hadisələri. Bizim hərbi mövqelərimizə təxribatçı hücumlar. Elə ilk saatlarda biz dörd hərbi qulluqçumuzu, sonra bir mülki vətəndaşımızı itirdik. Sonra avqust hadisəsi. Goranboy rayonunda təmas xəttindən keçmiş təxribat qrupunun başçısı indi ifadə verir. Biz gözləyirdik, biz hazır idik. Təbii ki, qərar, o cümlədən mənim tərəfimdən avtomatik rejimdə, heç bir tərəddüdsüz qəbul edildi. Biz təcavüzkarı yerində oturtmalı idik. İyul ayında Azərbaycan cəmiyyəti bunun davam etdirilməsini tələb edirdi. Yəqin ki, siz bunu bilirsiniz.

*- Bəli, mitinq olmuşdu.*

- Bəli. İyul ayında mitinqdə səslənən əsas şüar belə idi: "Ali Baş Komandan, bizə silah ver!" İnsanlar belə deyirdilər. İyul ayında biz Ermənistanla dövlət sərhədini rahatca keçərək Ermənistan Respublikasının geniş ərazilərini tuta bilərdik, amma biz bunu etmədik.

*- Bu hadisələr Qarabağda olmamışdı.*

- Tamamilə doğrudur. Biz bunu etmədik. Orada heç bir çətinlik yox idi və biz bunu indi göstərdik, 30 il ərzində ciddi eşelonlaşdırılmış müdafiə xəttini qırdıq, orada relyef özü müdafiə üçün münasibdir. Biz aşağıdan yuxarıya getdik, beton plitələri sındırdıq, Azərbaycan Ordusunun qeyri-adi səyləri, əsgərlərimizin və zabitlərimizin qəhrəmanlığı lazım gəldi. Oradan Ermənistanın istənilən nöqtəsinə keçmək bizim üçün çox asan idi. Lakin mən bunu dayandırdım, dedim ki, yox, biz bunu etməyəcəyik, biz onlar deyilik. Biz Ermənistanın beynəlxalq aləmdə tanınmış ərazisinə keçməyəcəyik və biz sərhədə qədər getdik, oraya soxulmuş işğalçıları qovduq və dayandıq. Yəni bundan sonra biz təcavüzkarı cəzalandırmalı idik ki, o, bir də bizim tərəfə baxmağa belə cəsarət etməsin. Biz bunu etdik, baxın, görün indi Paşinyan necə rəzil vəziyyətdədir. Alçalır, zəng edir, yalvarır, daha kimlərə zəng etmir. Avropa İttifaqı hökumətlərinin başçılarına. Bəs, o, nə tələb edir? Onların "Dağlıq Qarabağ respublikası"nı tanımasını tələb edir. Yəni bu, Ermənistan rəhbərliyinin tamamilə qeyri-adekvat olmasına dəlalət edir. Azərbaycan ilə Avropa İttifaqı arasında sazişlər var, - onlardan biri 2 il bundan əvvəl paraflanıb, - orada deyilir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına hörmət edir. Avropa İttifaqının üzvü olan yeddi ölkə ilə bizim strateji tərəfdaşlığımız haqqında sənədlər var. Bu ölkələrin hamısı Azərbaycanın ərazi bütövlüyünü tanıyır. "Dağlıq Qarabağ respublikası"nın tanınmasını siyasətdən və beynəlxalq sahədə hər hansı biliklərdən tamamilə uzaq olan adam tələb edə bilər. Görün, onlar nə həddə çatıblar. Biz onları cəzalandırmalı idik. Biz onlara yerlərini göstərməli idik ki, bizimlə belə danışmaq olmaz, bu, onlara asan başa gəlməyəcək. Belə də oldu. O, anaların göz yaşlarına, cəbhəyə göndərdikləri Ermənistanın günahsız gənc vətəndaşlarının ölümünə görə cavab verəcək.

*- Azərbaycanın qaytardığı ərazilərlə bağlı vəziyyət necə olacaq, orada indi nə edəcəklər?*

- Biz köçkünlərimizi öz evlərinə qaytaracağıq. Bu insanların sevincini, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının, Hadrutun təqribən 30 ildən sonra öz torpaqlarına qayıdacaq sakinlərinin sevincini təsəvvür edə bilərsiniz. Budur, azad edilmiş ərazilərdən çəkilmiş videokadrları nümayiş etdiririk. Bu kadrlardan görünür ki, orada hər şey dağıdılıb. Biz bunu bilirdik. Bu, Stalinqraddan da betərdir. Dağıdılmayanların isə hamısı oğurlanıb, qarət edilib. Başa düşürsünüzmü, onlar hətta pəncərə çərçivələrini də, unitazları da oğurlayıblar. Bu, sadəcə, dövlət siyasəti dərəcəsinə çatdırılmış quldurluqdur. Ona görə də biz bu əraziləri bərpa edəcəyik.

*- Təzədən tikəcəksiniz?*

- Təzədən, əlbəttə. Biz kömək edəcəyik. Biz məcburi köçkünlər üçün tikinti proqramına əsasən təkcə bu il 7 min mənzil istifadəyə verəcəyik. Təsəvvür edirsinizmi? Orta hesabla hər mənzildə 5 nəfər nəzərdə tutulsa, biz bir ildə 35 min nəfəri yerləşdirəcəyik. Yəni bu, kiçik və ya hətta bizim şəraitdə orta ölçüdən böyük bir şəhər deməkdir. Zərər çəkmiş 300 mindən çox köçkünü artıq yerləşdirmişik. Köçkünlər üçün şərait yaratmaq məqsədilə biz hər il büdcədən külli məbləğdə vəsait ayırırıq. Hər bir köçkün hər ay dövlətdən müavinət alır. Demək istəyirəm ki, orada biz bu işləri görəcəyik. Biz Cəbrayılı təzədən tikəcəyik. Bütün kəndləri yenidən quracağıq. Orada yaşayacaq insanlar tikinti işlərinə cəlb ediləcəklər. Onlar öz evlərini bərpa etmək üçün məvacib alacaqlar. Oraya həyat qayıdacaq, oraya uşaqların gülüşü qayıdacaq. İnsanlar rahat nəfəs alacaq, hiss edəcəklər ki, ləyaqətlərini özlərinə qaytarıblar. İllər boyu azərbaycanlıların bu vəziyyətdə necə yaşamalarını təsəvvür edin. Təmas xəttində binoklla baxanda bizim dağıdılmış şəhərləri görərkən mənim keçirdiyim hissləri təsəvvür edin. Qoy, erməni tərəfi fikirləşsin. O, indi bunun nə demək olduğunu başa düşməyəcək. Lakin əvvəl düşünmək lazım idi, azərbaycanlıların hisslərini təhqir etmək lazım deyildi. Biz xeyirxah, sülhsevər xalqıq. Lakin biz öz ləyaqətimizi tapdalamağa, bizi təhqir etməyə imkan verməyəcəyik. Paşinyan Şuşada, Cıdır düzündə sərxoş halda rəqs edəndə özünə bu gün baş verənlər barəsində hökm imzalamışdı.

*- Siz özünüz həmin ərazilərə getməyə hazırlaşırsınızmı?*

- Əlbəttə. 2016-cı ildə biz Cocuq Mərcanlını işğaldan azad edəndə mən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət edib dedim ki, bu kəndin sakinlərindən öyrənin, onlar oraya qayıtmaq istəyirlərmi? Ona görə ki, çox illər keçib, onların çoxu Bakıdadır, çoxlarının işi, uşaqları, məktəbləri var, çoxları Azərbaycanın digər regionlarında yaşayır. İş yerini dəyişmək, xüsusən hər şeyin dağıdıldığı yerə dəyişmək o qədər də asan məsələ deyil. Bilirsinizmi, bir müddətdən sonra mənə bildirdilər ki, həmin adamlar növbəyə düzülüblər. Hətta heç vaxt orada olmamış, sonradan doğulmuş gənclər də. Hamısı xahiş edirdi ki, tezliklə oraya qaytarılsınlar və biz bir ildən az müddətdə 150 evdən ibarət qəsəbə saldıq, orada məktəb, tibb müəssisəsi, məscid və bütün infrastruktur obyektləri tikdik, qaz, yol çəkdik. Bu, bizim qayıtmağımızın rəmzi oldu. Mən oraya gedəndə və bu insanların üzündəki fərəhi, sevinc göz yaşlarını görəndə bir daha özümə dedim ki, biz hökmən öz evlərimizə qayıdacağıq və əlbəttə, oranı bərpa edəcəyik. Bu illər ərzində əziyyət çəkmiş, öz doğma yurdlarının həsrəti ilə dünyasını dəyişmiş insanların ruhu şad olsun, onların övladları isə həyatlarının qalan hissəsini xoşbəxt yaşasınlar.

*- Çox sağ olun.*

- Sağ olun.

# “Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır”

## Prezident İlham Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verib

*Əvvəli 1-ci səh.*

- Əlbəttə, biz qara təbliğatla uzun illərdir ki, üzləşirik. Bunun bir neçə səbəbi var, onlardan biri də bəzi ölkələrdə erməni diaspor təşkilatlarının fəaliyyətidir. Onların fəaliyyətinin hədəfində Azərbaycan dayanır. Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yalanlar yaymaq və beləliklə, ölkəmizin imicinə zərbə vurmaq məqsədləri daim onların gündəliyində olan məsələlərdir.

Son döyüşlərlə əlaqədar da erməni diaspor təşkilatları və onların havadarları, dünya erməniliyi Azərbaycana qarşı mətbuat savaşına başlamışdır. Bunun nəticəsidir ki, bu gün dünya mətbuatında bir çox hallarda təhrif edilmiş məlumatlar yer alır. Ona görə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bizim böyük səylər göstərməyimiz gərəkdir. Bu baxımdan Türkiyənin mətbuat nümayəndələrinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Çünki demək olar ki, hər gün gecə-gündüz Türkiyənin aparıcı televiziya kanalları, digər mətbu orqanları bu münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırır.

Atəşkəs rejimi tətbiq olunandan sonra Ermənistan demək olar ki, dərhal öz çirkin əməllərini davam etdirmişdir. Biz bir müddət ara vermişdik, çünki biz sözümüzə sadiqik. Bir halda ki, bu atəşkəs haqqında açıqlama verilmişdir, biz ümid edirdik ki, bundan sonra Dağlıq Qarabağ məsələsi siyasi yollarla həll ediləcək. Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlarla hesablaşıb, diplomatik müstəvidə müsbət yanaşma göstərəcək. Ancaq təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur.

Bildiyiniz kimi, ondan sonra gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədilmişdir. Gəncə şəhəri bombardman edilmişdir. Şəhər “Toçka-U” raketləri ilə atəşə məruz qalmışdır və bunun nəticəsində mülki vətəndaşlar həlak olmuş və yaralanmışlar.

Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. Artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi.

*- İndi diqqət yetirdiyiniz bu amil çox əhəmiyyətlidir. Biz Türkiyənin terrorla mübarizəsində də bir çox istiqamətdə əməliyyat zonasında fəaliyyət göstərdik. Misal üçün, bizim şəhərlərimizə də PKK-dan bəzi raket atışları, top atışları olurdu. Bilirdik ki, bunu terror təşkilatı törədir. Dünən yayımlarımızda da mən ifadə etdim, insanlığa, vicdana, məntiqə sığmayan bir cavab. Daha əvvəl Siz xalqa müraciətinizdə də ifadə etmişdiniz, xüsusilə Rusiyaya edilən telefon zəngləri var, atəşkəs edək deyə. Atəşkəs əldə olundu, hansı məntiqlə və nə üçün bu hücum törədilir? Bu sualı necə cavablandırarsınız?*

- Burada, ilk növbədə, Ermənistanın terror mahiyyətini nəzərə almaq lazımdır. Çünki onlar döyüş meydanında məğlub olurlar, uduzurlar. Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır. Hər gün, demək olar ki, ya hansısa bir şəhər, ya kənd işğaldan azad edilir, yaxud da bu kəndlərin ərazisi nəzarət altına alınır. Bu gün deyə bilərəm ki, bir neçə yaşayış məntəqəsi indi bizim tam nəzarətimiz altındadır. Sadəcə olaraq, o yaşayış məntəqələrinə biz hələ girməmişik, çünki hərbi nöqteyi-nəzərdən buna ehtiyac yoxdur. Ancaq müəyyən müddətdən sonra biz növbəti elanlar edəcəyik. Ona görə bütün cəbhəboyu istiqamətlərdə Ermənistan məğlubiyyətə uğrayır və belə olan halda öz heyfini, öz acısını, öz məğlubiyyətini mülki şəxslərdən çıxmaq istəyir. Bu, onların xislətidir. Çünki Xocalı soyqırımını törədənlər məhz Gəncəyə o hücumu da törətmişlər.

Gəncəyə bu hücumun səbəbkarı Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Bizdə olan məlumata görə, bu qərar şəxsən Paşinyan tərəfindən verilmişdir. Bizdə dəqiq məlumat var ki, Paşinyan hazırda çox ağır psixoloji sarsıntılar keçirir. Onun mənəvi-psixoloji durumu çox gərgindir və qeyri-adekvat qərarlar verir. Məsələn, Hadrutu yenə işğal altına salmaq üçün onlar bir neçə dəfə cəhdlər göstərdilər. Mənə bu səhər verilən məlumata görə, bu gecə Ermənistandan gəlmiş özəl komando qruplarından ibarət olan böyük bir qrup Hadrutu yenidən işğal etməyə çalışıb. Halbuki strateji nöqteyi-nəzərdən bunun Ermənistan üçün o qədər də böyük önəmi yoxdur. Sadəcə olaraq, gedib orada selfi çəkdirmək, yaxud da ki, öz əhalisinə bir hesabat vermək üçün. Azərbaycan Ordusu o qrupu zərərsizləşdirdi və orada bu gecə Ermənistanın verdiyi qurbanlar sırf Paşinyanın məsuliyyətsiz və yırtıcı siyasətinin qurbanlarıdır.

Bu, onların taktikasıdır. Çünki onlar öyrəşiblər ki, dünya meydanında onlara daim dəstək veriləcək. Dünya erməniliyi, onların havadarları, islamofob dairələr, təəssüf ki, dünyada kifayət qədər güclü mövqelərə malikdirlər. Onlar hər zaman Ermənistanı və onların bizə qarşı təcavüzkar siyasətini dəstəkləyirdilər, onları müdafiə edirdilər. Azərbaycan haqqında olmazın yalanlar yayırdılar, azərbaycanlıları təcavüzkar kimi göstərmək istəyirdilər. Ancaq bugünkü dünyada, internet dövründə bunu etmək onlar üçün artıq çox çətindir. Çünki artıq qeyri-ənənəvi mətbuat vasitələri var, internet var və məlumatın çatdırılması o qədər də çətin məsələ deyil. Ona görə bu gün onlar informasiya mübarizəsində də əvvəlki mövqelərə sahib deyillər. Biz isə haqq yolundayıq. Həm beynəlxalq hüquq baxımından, həm tarixi ədalət baxımından biz haqlıyıq. Biz öz torpağımızdayıq, öz torpağımızda vuruşuruq. Erməni əsgəri bizim torpaqlarımızdan çıxarsa, bu münaqişəyə də son qoyulacaq.

*- Beynəlxalq ictimaiyyət dediniz, gözlədiyiniz, xüsusilə bu hücumdan sonra Qərbdə elə də çox səs eşidilmədi. Gözlədiyiniz etirazı aldınızmı? Dünən cənab Hacıyevin attaşelərlə keçirdiyi toplantıda da şahid olduğumuz bir məqam var. Üç dəfə dedi ki, bir sual verin, açıqlayaq, həqiqətləri sizə izah edim. Cavab gəlmədi.*

- Biz çox da gözləmirdik, buna heç ehtiyac da yoxdur. Çünki bu uzun illər ərzində biz gördük ki, həqiqəti eşitmək istəmirlər, yaxud da ki, həqiqəti pərdələmək istəyirlər, məlumatları, gerçək faktları təhrif edirlər. Bunun da səbəbləri kifayət qədər çoxşaxəlidir. Ona görə bizim əsas işimiz ondan ibarət idi ki, bu məsələni həll edək, tarixi ədaləti, öz ərazi bütövlüyümüzü bərpa edək. Bunu etmək üçün bizdə kifayət qədər güc var.

Əlbəttə ki, ilk günlərdən, ilk saatlardan qardaş Türkiyədən göstərilən dəstək, mənim qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğandan səslənən dəqiq açıqlamalar, eyni zamanda digər yüksəksəviyyəli şəxslərin açıqlamaları həm Azərbaycana mənəvi dəstək verdi, eyni zamanda bütün dünyaya göstərdi ki, Türkiyə Azərbaycanın yanındadır. Əgər belə olmasaydı, ola bilərdi ki, artıq Ermənistan-Azərbaycan arasında olan bu münaqişə daha da geniş coğrafiyaya sıza bilərdi.



*- Dayanıqlı bir atəşkəs gözləyirsinizmi? Daim pozulur, Moskvadakı 11 saat yarımlıq toplantıdan sonra buna nail olundu. Dünən biz jurnalistlər burada şahid olduq ki, Bakı böyük səbir göstərir.*

- Bəli, biz səbir göstəririk. Əlbəttə ki, Gəncə belə vəhşi atəşə məruz qaldıqda bu, hər bir azərbaycanlını hiddətləndirir və adekvat cavab tələb olunur. Amma biz cavabı döyüş meydanında veririk. Dünən itirilmiş qurbanlarımızın qisasını biz döyüş meydanında aldıq. Bizim münasibətimiz belədir: biz heç vaxt mülki şəxslərlə müharibə aparmamışıq, bu gün də aparmırıq. Bu, Azərbaycanı Ermənistandan fərqləndirən cəhətlərdən biridir. Ona görə dayanıqlı atəşkəsin təmin edilməsi üçün, ilk növbədə, Ermənistan anlamalıdır ki, artıq işğaldan azad edilmiş torpaqları onlar görməyəcəklər, onlar oraya qayıtmayacaqlar. Bu, onlar üçün tamamilə qeyri-mümkündür. Kim nə deyirsə-desin, kim onları necə dəstəkləyirsə dəstəkləsin, bu, olmayacaq. Biz bu torpaqlara gəldik, bu, bizim dədə-baba torpaqlarımızdır. Bizi oradan heç bir qüvvə çıxara bilməz. Bunu nə qədər tez anlasalar, onlar üçün o qədər də yaxşı olacaq. Çünki dayanıqlı atəşkəs üçün hər iki tərəfin buna sadiq olması lazımdır. Biz buna sadiqik. Biz günorta saat 12-dən qüvvəyə minmiş atəşkəsə riayət etmişdik, amma görəndə ki, Ermənistan bunu pozur, təbii ki, biz buna səssiz qala bilməzdik. Biz də özümüzü müdafiə etməliyik və beləliklə, demək olar ki, atəşkəs qüvvəyə mindi, amma real həyatda baş vermədi.

*- Çəkilməklə bağlı siqnal alırsınızmı, ən azından həmin nöqtədə? Torpaqlarımızdan çəkilməklə bağlı.*

- Yox, biz belə bir siqnal almırıq və heç kim də bizə belə bir siqnal verə bilməz. Bu, beynəlxalq hüquqa və tarixi ədalətə ziddir. Belə bir siqnal olmamışdır. Siqnallar var ki, dayandırın. Siqnallar var ki, daha irəli getməyin. Siqnallar var ki, atəşkəs təmin edilsin. Biz də deyirik ki, yaxşı, atəşkəs təmin edilsin, ancaq bununla bərabər gərək məsələ sülh yolu ilə həll edilsin.

Moskvada əldə edilmiş razılaşma hesab edirəm ki, bizim maraqlarımıza tam cavab verir. Çünki, ilk növbədə, orada göstərilir ki, həlak olanların cəsədlərinin, əsirlərin humanitar əsaslarla dəyişdirilməsi nəzərdə tutulur. Biz bunu ilk gündən istəyirdik. Ancaq Ermənistan buna getmirdi. Bundan başqa çox önəmli siyasi məqamlar var. Onlardan biri danışıqların, müzakirələrin bərpa edilməsi, baza prinsipləri əsasında substantiv danışıqların davam etdirilməsidir. Baza prinsipləri isə bizim maraqlarımıza cavab verir. Çünki orada işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması nəzərdə tutulur. Orada göstərilir ki, birinci mərhələdə beş rayondan, ikinci mərhələdə daha iki rayondan erməni silahlı qüvvələri çıxarılır. Ondan sonra təbii ki, bütün məcburi köçkünlər əvvəlki dövrdə yaşadıqları bölgələrə qayıdırlar. Bu da o deməkdir ki, bizim məcburi köçkünlərimiz Şuşaya da, Xankəndiyə də qayıdacaqlar və ondan sonra, yəni bu məsələnin siyasi həlli təmin edilə bilər.

Digər məsələ, - Ermənistan buna hər zaman o qədər yaxşı baxmırdı, - odur ki, müzakirələrin formatı dəyişməz olaraq qalır. Ermənistan rəhbərliyi və baş nazir Paşinyan hər zaman deyirdi ki, Azərbaycan qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalıdır. Biz isə buna etiraz edirdik. Oraya belə bir bəndin salınması yenə də bizim maraqlarımıza cavab verir.

Ona görə artıq hərbi mərhələdən diplomatik siyasi mərhələyə keçid üçün bütün imkanlar, bütün zəmin var. Qaldı ki, Ermənistan bu atəşkəsə əməl etsin. Ümid edirəm ki, Azərbaycanın müzəffər Ordusunun dünən və bu gecə yeni uğurlu əməliyyatları onları buna məcbur edəcək.

*- Siz sentyabrın 27-dən bəri, bu Vətən müharibəsi başladığı andan etibarən yeni bir formatdan, Türkiyənin öz mövqeyini daha fəal qoymasından, bu məsələnin Rusiya və Türkiyə ilə birlikdə həll oluna biləcəyindən bəhs edirsiniz. Amma Türkiyə Lavrovun açıqlamasında yox idi. Sanki bundan sonra ATƏT-in Minsk qrupunda müzakirələrin yenə davam edəcəyinə yönəlik bir açıqlama etdi. Türkiyə necə, nə şəkildə, nə vaxt masada olacaq? Ya da bu barədə danışıldımı?*

- Əlbəttə ki, bu, bizim mövqeyimizdir. Mən bunu bir neçə dəfə açıqlamışam. Bir daha demək istəyirəm ki, mütləq Türkiyə bu məsələnin siyasi yollarla həll olunmasında fəal rol oynamalıdır. Mən onu da bilirəm, Türkiyənin bəzi mətbuat orqanlarında yazılır ki, nə üçün Türkiyə Moskvada olmamışdı. Təbii ki, bu, indiki mərhələdə nəzərdə tutulmurdu. Heç Türkiyə qarşısında da belə bir vəzifə durmurdu. Bu, danışıqlar prosesi deyil. Bu, sadəcə olaraq, humanitar əsaslarla tətbiq olunan atəşkəsdir. Yəni bu, danışıqların keçirilməsi üçün təşkil edilmiş tədbir deyildi. Danışıqlar bu günə qədər Minsk qrupu çərçivəsində aparılır. Ancaq bu danışıqların səmərəsi və heç bir nəticəsi yoxdur. Otuz ilə yaxındır ki, bir santimetr torpaq bizə müzakirə yolu ilə qaytarılmadı. Ona görə mən də tam haqlı olaraq dedim, bir halda ki, Minsk qrupu 1992-ci ildə formalaşdı və o zaman hansı əsaslarla formalaşdı, bu haqda bizdə heç bir məlumat yoxdur. Əgər Minsk qrupunun tərkibinə baxsanız görərsiniz ki, orada bu bölgədən uzaqlarda yerləşən ölkələr, bu bölgə ilə heç bir əlaqəsi olmayan ölkələr, münaqişə ilə heç vaxt maraqlanmayan ölkələr də var. Onların orada mövcudluğu formal xarakter daşıyır. Yaxşı, biz əgər bu münaqişənin həll olunmasını istəyiriksə, - amma biz istəyirik, - elə ölkələr olmalıdır ki, onların gücü də olsun, təsiri də olsun və bu tərkib birtərəfli olmasın. İndi Minsk qrupunun həmsədrlərinin ölkələrində erməni diasporlarının fəaliyyətinə diqqət yetirin. Hər üç ölkədə erməni diaspor təşkilatları böyük siyasi imkanlara malikdir. O siyasi imkanlar nəticəsində onlar o ölkələrin vəzifəli şəxslərinə təsir edirlər. Yəni bu, nə qədər ədalətlidir? Nə üçün Türkiyə də həmsədr olmasın, onsuz da Minsk qrupunun üzvüdür. Ona görə bizim siyasətimizdə tam məntiq və nəticəyə hesablanmış yanaşma var.

Geosiyasi reallıqlar dəyişib. 1992-ci illə bugünkü vəziyyəti müqayisə etmək olmaz. Bu gün Türkiyə nəinki bölgədə, dünya miqyasında güc mərkəzidir. Bunu Qərbdə bir çoxları qəbul etmək istəmirlər, bu, onları qıcıqlandırır. Onlar öyrəşiblər, təəssüf ki, keçən əsrdə bəzi hallarda onların sözü Türkiyə siyasətində çox böyük dəyər təşkil edirdi. Ancaq bu gün Türkiyə tam müstəqil siyasət aparır və dünya miqyasında gücə çevrilibdir. Hansı məsələ bizim bölgəmizdə Türkiyəsiz həll olundu? Baxın, Suriyada, Liviyada, Orta Şərqdə, bizim bölgədə Türkiyə söz sahibidir və bu, reallıqdır. Onunla hesablaşmaq lazımdır.

İndi müzakirələr nə zaman başlayacaq, mən bunu deyə bilmərəm. Çünki Ermənistan bir halda ki, bu atəşkəsi pozur, inanmıram danışıqlarda da səmimi olsun. Ancaq istənilən halda de-yure, ya da de-fakto Türkiyə mütləq bu problemin həllində olmalıdır və onsuz da var. Çünki bu gün sirr deyil ki, biz Türkiyə ilə müntəzəm olaraq məsləhətləşmələr aparırıq. Bu proseslər başlayandan - 27 sentyabrdan bu günə qədər biz daim əlaqədəyik. Türkiyənin yüksək səviyyəli vəzifəliləri bir çox ölkələrin dövlət və hökumət başçıları ilə sıx təmasdadırlar. Ona görə bu, artıq reallıqdır. Sadəcə olaraq, biz de-fakto reallığı de-yure reallığa çevirməliyik.

*- İndi “Nə üçün o həmsədrlik sistemində Türkiyə olmasın, olmalıdır” ifadəsini işlətdiniz. Bunu bir qədər də aydınlaşdırmaq üçün soruşacağam, amma Sizə istinad edərək. Ötən gün xalqa müraciətinizdə eynilə bu ifadələri işlətdiniz - biz artıq status-kvonu dəyişdirdik, təmas xətti deyə bir şey yoxdur, təmas xəttini yardıq. Yeni müzakirədə həm Türkiyənin iştirakı, həm də bu dediyiniz sözlər barədə bir qədər ətraflı bəhs etsək, tam olaraq nəyi nəzərdə tutursunuz? Bundan sonra Bakı tərəfindən necə bir status-kvo qurulacaq?*

- Bilirsiniz, biz status-kvo ilə əlaqədar uzun illər çox böyük səy göstərdik ki, həmsədrlərdən bununla bağlı bir açıqlama gəlsin. Nəhayət, təqribən 7-8 il bundan əvvəl Amerika, Rusiya və Fransa prezidentləri səviyyəsində bir neçə dəfə belə bir açıqlama verildi - status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Biz də bunu alqışladıq. Mən də bir neçə dəfə bununla bağlı açıqlama verdim ki, bu, çox müsbət bir yanaşmadır. Yəni bu, nə deməkdir, o deməkdir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan çıxmalıdır. Status-kvonun dəyişdirilməsini Ermənistan etməlidir. Çünki biz Ermənistan torpaqlarını işğal etməmişik. Biz status-kvonu necə dəyişdirə bilərik? Bu Ermənistan tərəfinə, bir mesaj, bir siqnal idi. Ancaq təəssüf ki, bu açıqlama və açıqlamalar, - bir neçə dəfə belə açıqlamalar verildi, - havada qaldı. Ondan sonra biz nə eşitməyə başladıq? Son dönəmdə artıq həmin həmsədrlər bu ifadədən geriyə addım atdılar. İndi nə deyirlər? İndi deyirlər ki, status-kvo dayanıqlı deyil. Amma bu, böyük bir fərqdir. Status-kvo dəyişməlidir, yəni ki, Ermənistan, sən torpaqlardan çıxmalısan. Status-kvo dayanıqlı deyil, yəni sabit deyil o deməkdir ki, sadəcə olaraq, onlar bunu fakt kimi göstərirlər. Ona görə belə olan halda status-kvonu Azərbaycan özü dəyişdirdi, döyüş meydanında dəyişdirdi. Artıq status-kvo yoxdur. Artıq Ağdərə, Füzuli, Cəbrayıl, Hadrut rayonlarının yaşayış məntəqələri və kəndlər azad edildi. Hansı status-kvodan söhbət gedə bilər? Söhbət gedə bilməz. Təmas xətti? Təmas xətti yoxdur. Aydın məsələdir ki, mövcud olan təmas xətti çox böyük hərbi biliklər əsasında yaradılmışdır. Ermənistanın o zaman heç bir hərbi bilikləri yox idi. Bunu biz açıq etiraf etməliyik. Yəni Ermənistanın nüfuzunun az olması onlar üçün çox ciddi bir problem yaradır. Onlar üçün təmas xətti çox qısa olmalı idi, düz olmalı idi. Onu da etdilər. Onların buna ağlı çatmazdı. Onlara məsləhət verənlər bunu etdilər. Əgər o əvvəlki təmas xəttinə baxsanız, bu üfüqi-şaquli formadadır. Belə, düz. Yəni onu müdafiə etmək çox asandır. Onların mövqeləri əsasən təpələrdə idi. Onlara müdaxilə etmək, yəni istehkamları yarmaq çox çətin bir iş idi. İndi bu təmas xətti yoxdur. Biz onu bir neçə yerdən - şimaldan, cənubdan, ondan sonra şərqdən yardıq. Artıq hansı təmas xəttindən söhbət gedə bilər? Yoxdur! Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir. Hər gün biz yeni mövqeləri azad edirik. O mövqelər şərt deyil ki, kənd olsun, yaxud da ki, şəhər olsun. Təpə olsun, dağ olsun - o, kənddən, şəhərdən daha önəmlidir. Şəhərlərə biz onsuz da qayıdacağıq. Bizim üçün əsas məsələ strateji yüksəklikləri almaqdır. İndi Hadrutun bütün ətrafı bizim nəzarətimizdədir. Şəhərdə də biz varıq. Amma şəhərə girək-girməyək o başqa məsələdir. Bizim qarşımızda indi belə bir siyasi vəzifə yoxdur ki, mütləq bu gün oranı elan edək, sabah oranı elan edək. Yoxdur. Bəzi hallarda biz kəndləri, şəhərləri azad edirik, bir gün, iki son sonra açıqlama veririk. Bunun da taktikası var.

Bir daha deyirəm, status-kvo yoxdur, təmas xətti yoxdur. Ermənilərin öz orduları haqqında uzun illər uydurduğu yenilməz ordu əfsanəsi yoxdur. Biz göstərdik kim kimdir. Ona görə bu reallıqlarla gərək həm Ermənistan hesablaşsın, onların havadarları hesablaşsın, bütün dünya hesablaşsın. Bizə dur deyənlər bilməlidirlər ki, yaxşı, biz dura bilərik, biz də istəmirik ki, qan tökülsün. Amma ondan sonra gərək siyasi proses başlasın. Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər. Amma necə? Hərbi yolla, yaxud da ki, siyasi yolla, o, başqa məsələdir. Biz istəyirik ki, hərbi mərhələ dursun, qan tökülməsin, şəhidlər olmasın və sülh yolu ilə öz torpaqlarımızı azad edək.

*- İşin siyasi və hərbi tərəfi bir tərəfə. Bu gün biz, daha doğrusu, Bakıya gəldiyimiz andan etibarən oranı tərk etmək məcburiyyətində qalmış insanlarla görüşdük, aralarında xocalılılar, cəbrayıllılar var idi. Azərbaycan dövlətinin, Sizin köməyinizlə tikilən qəsəbələrə getdik. Hər kəsin üzündə bu ifadə var idi: Sizə, dövlətə böyük minnətdarlıq hissi duyurlar. “Biz burada heç bir şeyə ehtiyacımız olmadan yaşayırıq, lakin biz öz torpaqlarımıza dönmək istəyirik” deyirlər. Xüsusilə cəbrayıllılar, “İşğaldan azad edilən torpaqlarda nə edəcəksiniz?” sualına, “Təki bir damımız olsun, kifayətdir” deyirlər. Bəs, Siz nə edəcəksiniz o insanlar üçün? O torpaqlarda yeni inşaat işləri aparılacaq?*

- Biz orada nəinki damlar, biz orada şəhərlər quracağıq, biz oraya həyatı qaytaracağıq. Biz bütün dağılmış yerləri bərpa edəcəyik. Ora indi bizim ordumuzun nəzarətindədir. Artıq işğaldan azad edilmiş torpaqların bəzilərinə bizim mətbuat nümayəndələri də gedirlər. Bəzilərində isə hərbçilər özləri videoya çəkirlər, görürlər ki, orada bir dənə də salamat bina yoxdur. Yəni bu, faşistlərin əməlləridir. Dünya bunu görməlidir və görəcək. Görün, indi Ağdam, Füzuli nə gündədir?! Bizim bütün kəndləri dağıdıblar. Elə ediblər ki, azərbaycanlılar daha heç zaman oraya qayıtmasınlar, qayıda bilməsinlər. Amma Azərbaycan xalqının iradəsini bilmirlər. Biz Cocuq Mərcanlını təqribən 8 aya qurduq. O kənd ki, biz 2016-cı ildə işğaldan azad etdik, 6-7-8 aya artıq oranı biz inşa etdik və indi orada insanlar yaşayırlar, qazı da, suyu da, elektriki də, məscidi də, xəstəxanası da, məktəbi də, evlər də var, hər şey var. Bir də ki, kənd təsərrüfatı üçün onlara avadanlıq vermişik və indi o kənd dirçəlib. Bütün o torpaqları biz cənnətə çevirməliyik. Onsuz da oranın mənzərəsi cənnətdir və uzun illər erməni tapdağının altında olmasına baxmayaraq, o torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq. Azərbaycan vətəndaşları o torpaqlarda ləyaqətlə yaşayacaqlar.

Bizim məcburi köçkünlərimiz bilirlər ki, mənim üçün, Prezident üçün onların problemi birnömrəli problemdir. Siz də bilirsiniz ki, biz onlar üçün nə qədər böyük yardımlar edirik. Bu il biz 7 min ailəyə yeni mənzillər veririk. Təqribən 35 min insan bir il ərzində dövlət tərəfindən pulsuz mənzil alır. Hər ay dövlət onların hər birinə müavinət verir. Ona görə təbii ki, onlar dövlətin qayğısından razıdırlar. Mənim onlarla keçirdiyim görüşlərdə onlar hər zaman təşəkkürlərini bildirirlər və deyirlər ki, burada hər şey yaxşıdır, biz bu yeni evlərdə yaşayırıq, belə şəraiti görməmişik, amma bizi ora qaytarın, biz oraya getmək istəyirik və gedəcəklər.

Ona görə biz indi artıq o bölgələrin inkişaf planları üzərində işləməliyik, müvafiq göstərişlər artıq verilibdir. Planlama hazırlanacaq ki, o bölgələrə Azərbaycan əhalisi qayıtsın və maksimum qısa müddət ərzində artıq onlar oraya yerləşsinlər.

*- Cənab Prezident, bu qədər sıx qrafikinizin, diplomatik gərginliyin arasında bizə vaxt ayırdığınız üçün Sizə çox təşəkkür edirik.*



# “Müstəqillik dövründə Azərbaycan möhtəşəm inkişafa nail olub”

*Əvvəli 1-ci səh.*

Müstəqillik dövründə Azərbaycan möhtəşəm inkişafa nail olub. Azərbaycan beynəlxalq arenada fəal ölkələrdən biridir. Bu gün Azərbaycan Birləşmiş Millətlər Təşkilatından sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına sədrlik edir. Bizim iqtisadi göstəricilərimiz statistikada öz əksini tapıb. Son 17 ildə ümumi daxili məhsulumuz üç dəfə artıb, yoxsulluq səviyyəsi demək olar ki, 50 faizdən 5 faizə düşüb, xarici borcumuz ümumi daxili məhsulumuzun təxminən 20 faizi həcmindədir və ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur.

Hazırda təbii ehtiyatlarımız inkişafımıza xidmət edir və təbii ehtiyatlarımızın insan kapitalına çevrilməsi bizim əsas prioritetlərimizdən biridir.

Bu gün Azərbaycan kosmik klubun üzvüdür və Azərbaycan 3 peyki ilə bu istiqamətdə öz fəaliyyətini davam etdirməyi planlaşdırır. Mən əminəm ki, 2023-cü ildə paytaxtımızda keçiriləcək konqres ölkəmizdə kosmik sənayenin inkişafına əlavə stimul verəcək.

Sizə uğurlar arzu edirəm və 2023-cü ildə Bakıda görüşərik. Təşəkkür edirəm.

Xanım **Paskal Erenfroynd:**

“Cənab Prezident, bu ilhamlandırıcı çıxışınız üçün çox sağ olun. 2023-cü ildə Bakıya gəlməyi səbirsizliklə gözləyirik”.

Qeyd edək ki, Azərbaycanda kosmik sənayenin inkişafının təməlini Ulu Öndər Heydər Əliyev qoyub. 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsi bunun bariz nümunəsidir. Bu tədbir xalqımızın yüksək intellektual potensialı ilə yanaşı, texniki potensialını da bütün dünyaya nümayiş etdirib. Ulu Öndərin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə elm, texnologiya, İKT, o cümlədən kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində son illərdə çox mühüm işlər görülüb. Kosmik proqramların hazırlanması və reallaşdırılması müstəqillik tariximizin ən böyük uğurlarından biri kimi tarixə düşüb. Son 5 ildə ölkəmizin orbitdə 3 peykə sahib olması Azərbaycanı dünya kosmik klubunun fəal üzvünə çevirib. Bununla da Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı ölkələrdən biri olduğunu təsdiqləyib. 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, həm də ölkəmizin İKT sahəsində son illərdə əldə etdiyi böyük uğurlarla bağlıdır.

Beynəlxalq Astronavtika Konqresi 1950-ci ildən hər il fasiləsiz təşkil edilir. Bu il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunması planlaşdırılan 71-ci Beynəlxalq Astronavtika Konqresi COVID-19 pandemiyası səbəbindən Beynəlxalq Astronavtika Federasiyası tərəfindən növbəti ilə keçirilib. Lakin tədbirin davamlılığının təmin edilməsi məqsədilə 71 ölkəni təmsil edən 407 təşkilatın üzv olduğu Federasiya builki konqresi oktyabrın 12-14-də virtual formatda keçirir. Bu konqres kosmik sahədə aparıcı agentliklərin, elm mərkəzlərinin və beynəlxalq təşkilatların rəhbərləri, məşhur alimlər, özəl sektordan olan yüksək səviyyəli peşəkarlar, gənc tədqiqatçılar və tələbələr də daxil olmaqla, dünyanın 70-ə yaxın ölkəsindən, ümumilikdə, 6 mindən çox mütəxəssisi bir araya toplayan qlobal platformadır.

# Milli Məclisin kollektivi Silahlı Qüvvələrə Yardım Fonduna 360 min manat ianə edib

Milli Məclisin kollektivi Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fonduna 360 min manat pul vəsaiti köçürüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsünə qoşularaq bu günlərdə Milli Məclisin Sədri, Sədr müavinləri, deputatlar, parlament Aparatının və İşlər idarəsinin kollektivləri Silahlı Qüvvələrə Yardım Fonduna 360 min manat ianə ediblər.

Şanlı Ordumuza onun qarşısında duran vəzifələrin yerinə yetirilməsində uğurlar diləyirik. Yeni-yeni zəfərlər müjdəsi ilə!

Biz birlikdə güclüyük!

Qarabağ Azərbaycandır!

# İlham Əliyevin diktəsi və şərtləri danışıqlar prosesində əsasdır

## Döyüş meydanında cəzalandırılan Ermənistan Azərbaycana qarşı iddialarından imtina etməyə məcbur oldu

*Əvvəli 1-ci səh.*

Bunun nəticəsi olaraq Ermənistanın danışıqların formatını dəyişdirmək və Dağlıq Qarabağdakı qondarma rejiminin danışıqlar prosesində tərəf kimi çıxış etməsinə nail olmaq kimi iddialarının üzərindən birdəfəlik xətt çəkildi. Ermənistan etiraf etdi ki, münaqişədə tərəf olan Dağlıq Qarabağdakı qondarma rejim deyil, məhz Ermənistan dövlətidir. Ermənistanın baş naziri artıq 7 şərt irəli sürmür, ona diktə edilən şərtləri qəbul etmək zorundadır. Bu mənada danışıqlar prosesində məhz İlham Əliyev öz iradəsini diktə edəcək, öz şərtlərini irəli sürəcək.

Moskvada əldə olunmuş razılaşmaya əsasən, danışıqlar baza prinsiplərinə əsaslanacaq. Bu zaman BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki yekun aktının tələbləri əsas götürüləcək. Azərbaycanın tələblərindən biri də Ermənistanın irəli sürülmüş şərtləri yerinə yetirməsi, qoşunların işğal olunmuş ərazilərdən çıxarılması qrafikini təqdim etməsidir. Görünən odur ki, Azərbaycanın hərbi sferadakı üstünlükləri düşməni buna vadar edəcək.

### Ermənistanın planları alt-üst oldu

Azərbaycanın bu qələbəsinin başqa mühüm tərəfləri də var. Bunlardan biri odur ki, ermənilərin işğal olunmuş ərazilərimizi qanunsuz məskunlaşdırmaq planlarının alt-üst edilməsidir. Artıq bundan sonra heç kəs, o cümlədən Livanda partlayışdan evləri dağılmış ermənilər də Azərbaycan Ordusunun hədəfində və atəş zonasında yerləşən ərazilərə daimi köçmək haqda düşünməyəcək. O cümlədən bu günlərdə Dağlıq Qarabağda yaşayan ermənilərin böyük qismi baş götürərək Ermənistana qaçdı. Onların da böyük qisminin Qarabağa geri dönəcəyi real görünmür. Hər an hərbi əməliyyatların bərpa olun biləcəyini anlayan erməni əhalisi Qarabağı tərk etməkdə davam edəcək. Həmçinin onlar bir daha anladılar ki, Qarabağ azərbaycanlılarındır.

Ölkəmizin qələbəsinin başqa bir mühüm tərəfi isə Ermənistanın Qarabağ iqtisadiyyatının inkişafı ilə bağlı illərdir həyata keçirdiyi bütün planların iflasa uğramasıdı. Bu döyüşlərdə erməni diasporunun, o cümlədən onların cəlb etdikləri digər xarici şirkətlərin Qarabağa yatırdıqları sərmayələr havaya sovruldu. Bundan sonra heç bir şirkət və iş adamı bu ərazilərdə biznes qurmaq barədə düşünməyəcək.

### Hər bir addım bizi hədəfə yaxınlaşdırır

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 15 iyul 2020-ci il tarixli iclası zamanı bildirib: “Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik”.

Bu günədək aparılan siyasət, atılan addımlar, o cümlədən sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatları dövlət başçısının bu fikirlərinin tam əsaslı olduğunu təsdiq etdi. İstər danışıqlar masasında, istərsə də hərb meydanında atılan hər bir düşünülmüş və dəqiq addım bizi əsas hədəfə daha da yaxınlaşdırır.

Artıq münaqişənin “hərbi yolla həlli yoxdur” fikri alt-üst olub. Status-kvo dəyişdi, İlham Əliyev qəti və məntiqli diplomatik gedişlərlə regionun geosiyasi mənzərəsini yenidən formalaşdırdı, Azərbaycan Ermənistanı cəzalandırmaqla danışıqlar prosesinə zidd şərtlərindən imtinaya vadar etdi. Bundan sonrakı danışıqlar prosesi problemin ədalətli həllinə yol açmalı, Azərbaycanın maraqları təmin olunmalıdır. Əks təqdirdə Ermənistanın hərbi yolla cəzalandırılması davam edəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# “Xalqımızın öz Ali Baş Komandanı ətrafında yumruq kimi birləşdiyini görmək qürurvericidir”

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də digər ölkələrin vətəndaşları Prezident İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərindən **Ələsgər Ağayev** yazır: “Hörmətli cənab Prezidentimiz, mən sadə cümlələrlə, ürək sözlərimlə Sizə təşəkkür etmək istəyirəm. Harada yaşamağımızdan asılı olmayaraq hamımız Sizin arxanızda dağ kimi dayanmışıq. Sizin dediyiniz hər bir sözün, hər bir bəyanatınızın arxasında xalq dayanıb. Sizin hər çıxışınız dünyaya səs salır, düşmənlərə, hətta güclü dövlətlərdən olan havadarlara meydan oxuyur, Azərbaycanın qəti mövqeyini ortaya qoyur. Var olun, yüz yaşayın. Azərbaycan var olduqca, Siz də yaşayacaqsınız. Azərbaycan isə hər zaman var olacaq, deməli, Siz də yaşayacaqsınız”.



Türkiyənin Kayseri şəhərindən **Cem Küçüktürk:** “Hörmətli cənab Prezident, Sizə böyük hörmətlərimi çatdıraraq Türkiyədə hər bir kəsin ürəyinin, canının bir hissəsinin Azərbaycandakı qardaşlarımızın yanında olduğunu bildirirəm. Şəhidlərinizə görə başda Siz olmaqla Azərbaycan xalqına başsağlığı verir, yaralılara şəfa diləyirəm. Allahım hamınızın yar və yardımçısı olsun. Yaşamış olduğunuz xain hücum haqqında eşidəndə mütəəssir oldum. Amma əmin idim ki, Azərbaycan xalqın köməyi ilə bu təcavüzün də öhdəsindən gələcək. Düşməniniz düşmənimizdir, Sizə xainlik edən bizə xainlik etmişdir. Qələbənizə mübarək olsun deyir, bütün türk milləti adından yanınızda olduğumuzu bildirirəm”.

Ukraynanın paytaxtı Kiyevdən **Əbülfəz Qasımov, Ağasəlim Bağırov, Fərhad Turanlı, İlham Ələsgərov, Nicat Mirzəyev, Rövşən Tağıyev** və **İlqar Abbasov** yazırlar: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Ukraynada yaşayan çoxsaylı həmvətənlərimizin adından Sizə və Sizin şəxsinizdə rəşadətli Azərbaycan Ordusuna səmimi minnətdarlığımızı bildirmək istəyirik. 30 ildir ki, erməni işğalçıları tərəfindən zəbt edilmiş Azərbaycan ərazilərini - Dağlıq Qarabağ və 7 ətraf rayonunu işğaldan azad etmək və 1 milyon qaçqını öz yurd-yuvalarına qaytarmaq üçün çıxdığınız bu müqəddəs yolda Sizi dəstəkləyirik. Son günlər cəbhə bölgəsindən gələn şad xəbərlər bizi - Ukraynada yaşayan bütün azərbaycanlıları sevindirir və qürurlandırır. Qüdrətli Ordumuz Sizin əmrinizlə gücünü düşmən üzərində göstərir, onlara layiq olduqları cavabı verir. Cənab Prezident, bu gün Sizin rəhbərliyiniz altında Milli Ordumuzun əsgərləri düşməni işğal olunmuş Azərbaycan torpaqlarından qovur. Dövlətimizin erməni təcavüzkarlarına qarşı informasiya müharibəsinin uğurla aparılmasında, erməni saxtakarlığını ifşa edən, təkzibedilməz dəlillərə əsaslanan publisistik və elmi əsərlərdən ibarət materialların Ukraynada davamlı şəkildə yayılmasında rol oynayan Ukraynadakı Azərbaycan ziyalıları müqəddəs Vətənimizin ərazi bütövlüyü uğrunda gedən haqq savaşında Azərbaycan dövlətinin və Milli Ordumuzun daim yanında olduğunu bəyan edir. Siz və Sizin əmrinizdə olan qəhrəman Azərbaycan Ordusu düşmənlərimizə və bütün dünyaya göstərdi ki, biz əzəli-əbədi torpağımız olan Qarabağ uğrunda sona qədər döyüşməyə hazırıq. Tarixi ədalət bizim tərəfimizdədir. Sizə dərin hörmətimizi və dəstəyimizi bildiririk. Hər an əmrinizdə olduğumuzu ifadə etmək istəyirik. Biz həmişə Vətənimiz Azərbaycanın yanındayıq və Sizin yürütdüyünüz siyasəti dəstəkləyirik. Sizin rəhbərliyiniz altında torpaqlarımızın son qarışına qədər geri alınacağına inanırıq. Hər birimizin ürəyinə sevinc gətirən fərəhli Qələbə gününü səbirsizliklə gözləyirik. Yolumuz haqq yoludur! Qarabağ Azərbaycandır!”

Bakı şəhərinin sakini **İltifat Muradov:** “Hörmətli cənab Prezident, əziz Ali Baş Komandan, Sizə Ulu Öndərin layiqli davamçısı kimi müraciət edərək Sizinlə qürur duyduğumu deyirəm. Mən Qarabağ qazisiyəm. Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimovla çiyin-çiyinə döyüşmüşəm. 57 yaşım olsa da bir çağırışınız yetər ki, Azərbaycan dövlətinin bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edim. Canımı Vətən yolunda fəda etməyə hazıram. Siz xalqımızın, bütün Azərbaycanlıların Qəhrəmanısınız. Allah Sizi qorusun. Qürurla deyirik: Qarabağ Azərbaycandır!”

Cəbrayıl sakini **Vəli Şahverdiyev:** “Hörmətli cənab Prezident, torpaq bizim əbədi Vətənimizdir. Mən Cəbrayılda doğulmuşam, orda yaşa dolmuşam, orda ulularımız dəfn olunub. Bir də onu deyim ki, ata yurdumda 30-a qədər döyüş qabiliyyətli övladlarımız var. Onlar və mən özüm döyüşə hazırıq. Mənim ailəm qadir dövlətimin verdiyi mənzildə yaşayır. İnanaraq deyirdim ki, yaxın illərdə doğma torpaqlara qayıdacağıq. Bu gün Siz xəyalları gerçəyə çevirdiniz. Bunun üçün Sizə uzun ömür, xoş günlər arzulayıram. Deyirəm, eşq olsun Sizi dünyaya gətirən Anaya! Eşq olsun Sizə! Siz xalqın qəlbində heykəlinizi qoydunuz. Qarabağ Azərbaycandır!”

Saatlı rayonundan **Əjdər Əliyev** yazır: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizə bu məktubu çox sevinə-sevinə yazıram. Ona görə ki, Siz bizim Prezidentimiz olmaqla yanaşı, həm bizim, həm də dünya azərbaycanlılarının ağsaqqalısınız. Erməni dığalarının torpaqlarımızdan qovulması üçün cəsarətlə addım atdınız. Mən Sizin bu addımınızı alqışlayıram. Sizin zəfər bayrağınız mübarək olsun. Siz bizim müdrik Prezidentimizsiniz. Sizin fəaliyyətiniz dünya tarixinə qızıl hərflərlə yazılır. Çünki Siz Ulu Öndər Heydər Əliyevin oğlu olaraq onun siyasətini uğurla aparırsınız. Sizə uğurlar arzulayırıq”.

Salyan rayonunun sakini **Məhəmməd Ağayev:** “Cənab İlham Əliyev, çox hörmətli Ali Baş Komandan, dövlətimiz üçün ağır, lakin gələcəyə böyük ümid yaradan bu günlərdə xalqımızın yumruq tək öz Ali Baş Komandanı ətrafında birliyini görmək qürurvericidir. Bu, bizdə ölkəmizin gələcəyinə böyük ümidlər yaradır. Hamı kimi mənim də sevincimin həddi-hüdudu yoxdur. Yaşımdan asılı olmayaraq, ehtiyatda olan bir zabit kimi mən də ordu sıralarında olmağı çox arzulayıram. Gənclərimizin səfərbər olaraq ordu sıralarında torpaqlarımızın azadlığı uğrunda vuruşmaları məni hədsiz qürurlandırır və fərəhləndirir. Sizin komandanlığınız altında mübariz əsgər və zabitlərimizin düşmənə sarsıdıcı zərbələr vurması bizi hər gün zəfərə bir addım daha yaxınlaşdırır. Yaşasın müstəqil Azərbaycan! Yaşasın Ali Baş Komandanımız və müzəffər Ordumuz!”

Masallıdan **Rəcəb Ağayev:** “Çox hörmətli cənab Prezident, mən Masallı rayonunun Qızılavar kəndində yaşayıram. Kənd təsərrüfatı sahəsində xırda sahibkarlıq fəaliyyəti ilə məşğul oluram. Hazırda erməni faşistlərinə qarşı xalqımızın haqq savaşı gedir. Mən də döyüşə getmək üçün könüllü müraciət edənlər sırasındayam. Rayonumuzda olan bu qədər ruh yüksəkliyini heç vaxt görməmişik. Hər gün hərbi komissarlığın qarşısında döyüşə könüllü gedənlərin növbəsidir. İnsanlarımız şəhidlərimizin qisasını almaq üçün növbəyə durmuşdur. Hamı Mübariz İbrahimov və Polad Həşimov olmaq istəyir. Ordumuzun qələbələri sanki insanlara qol-qanad verib. Hər yerdə qələbə sevinci yaşanır. Belə bir Qəhrəman xalqı olan dövlətdə yaşadığımıza görə fəxr edirik. Sağ olun, var olun. Yaşasın Azərbaycan Ordusu! Eşq olsun, Ali Baş Komandanıma!”

Bakı şəhərinin sakini **İbrahim Abbaszadə:** “Əziz Prezidentim, mənim adım Abbaszadə İbrahimdir. Mən Bakıda 240 saylı məktəbdə təhsil alıram. Mənim yaxınlarda 10 yaşım olacaq. Mən Azərbaycan Ordusunu dəstəkləyirəm. Azərbaycan Ordusu çox güclüdür. Mən inanıram ki, Qarabağ erməni faşistlərindən azad olunacaq. “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!”, - bu kəlməni Ümummilli Liderimiz Heydər Əliyev söyləmişdir. Allah Ulu Öndərimizə və şəhidlərimizə rəhmət eləsin. Bu məktubumla mən Türkiyəyə də ürəkdən təşəkkürümü bildirirəm. Ona görə ki, onlar hər zaman bizim yanımızdadırlar. Qarabağ bizimdir, bizim olacaq!”

Beyləqan rayonunun sakini **Mirmehdi Məmmədov:** “Hörmətli cənab Prezident, otuz ilə yaxın vaxtdır ki, torpaqlarımız faşist erməni işğalçılarının tapdağı altındadır. Sizin uzaqgörən siyasətiniz nəticəsində torpaqlarımız işğaldan azad olunmaqdadır. Qüdrətli ordumuzun apardığı uğurlu hərbi əməliyyatlar hamımızda böyük ruh yüksəkliyi yaratmışdır. Qətiyyətlə inanırıq ki, Sizin rəhbərliyinizlə torpaqlarımız qısa müddətdə işğaldan tam azad ediləcəkdir. Qələbə bizimlədir. Allah Sizi qorusun”.

Biləsuvardan **Babək Hətəmov:** “Hörmətli cənab Prezidentimiz, mən Biləsuvar şəhər Mübariz İbrahimov adına liseyin 7-ci sinif şagirdiyəm. Mənim ən böyük arzum Milli Qəhrəmanımızın qisasının alınmasını görmək idi. Bu sevinci bizə yaşatdığınız və Mübarizin, eləcə də minlərlə şəhidimizin qanını yerdə qoymadığınız üçün təşəkkür edirəm. Mən və mənim yaşıdlarım inanırıq ki, Sizin rəhbərliyiniz və əzmkarlığınızla Azərbaycan bayrağı əbədi olaraq Qarabağda dalğalanacaq”.

Mingəçevir şəhərindən **Elşad Qaziyev:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Mən ailəm adından Sizə dərin minnətdarlığımı bildirirəm ki, Siz hər zaman olduğu kimi öz uzaqgörən və qətiyyətli addımlarınızla Azərbaycan dövlətinin inkişafına böyük töhfələr verirsiniz. Ulu Öndərimiz hər zaman deyərdi: “Mən fəxr edirəm ki, azərbaycanlıyam”. Mən də fəxr edirəm ki, Sizin kimi Prezidentim var”.

Füzuli sakini **Alagöz Səfərova:** “Hörmətli cənab Prezident, Füzuli şəhərindən olan bir məcburi köçkün kimi 30 ilə yaxın müddətdir ki, düşmənlə üz-üzə cəbhə bölgəsində qorxmadan, şərəflə yaşayıram. Dərs dediyim məktəbdə şagirdlərimə Sizin apardığınız siyasətin ölkəmiz üçün nə dərəcədə vacib olduğunu həmişə bildirmişəm. Mən və şagirdlərim buna bir daha əmin olduq. Uzun müddətdən sonra Sizin rəhbərliyinizlə qüdrətli ordumuz bizi sevinc göz yaşlarına boğdu. Cənab Prezident, mənim həyat yoldaşım hərbçi kimi Vətənə borcunu şərəflə yerinə yetirməkdədir. Bu, bir həyat yoldaşı kimi, bir ana kimi məni çox qürurlandırır. İnanıram ki, Sizin rəhbərliyinizlə, Ordumuzun gücü ilə, qeyrətli əsgərlərimizlə çox yaxında üç rəngli bayrağımızı Qarabağda dalğalandıracağıq. Bu Vətən qeyrətli insanların Vətənidir. Bu Vətən bizimdir, Qarabağ bizimdir. Qarabağ Azərbaycandır! Allah Sizi və qüdrətli ordumuzu qorusun”.

Qubadan **Sahib Kərimov:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Şanlı Ordumuz erməni cəlladlarının Azərbaycan torpaqlarının işğalı ilə barışmayaraq Azərbaycan xalqının tələbi ilə torpaqlarımızı düşmənlərdən təmizləyir. Bunlara görə Sizə və Şanlı Ordumuza “çox sağ olun” deyirik. Cəbhədə şəhid olan qəhrəmanlara görə, onların ailələrinə və bütün Azərbaycan xalqına başsağlığı verirəm. Cəbhə xəttində, Ağdamın Çəmənli kəndində hərbi xidmət keçmiş böyük oğlum Kərimov Osman və kiçik oğlum Kərimov Həmidulla çavuşdurlar. Onlar könüllü olaraq müharibəyə getmək üçün aidiyyəti orqanlara müraciət etmişlər. Mən bununla fəxr edirəm. Vətən bizim hamımızındır. Allah Ali Baş Komandana və qəhrəman Ordumuza kömək olsun. Yaşasın müstəqil Azərbaycan Respublikası!”

Biləsuvardan **Bəhmən Bayramov** yazır: “Möhtərəm cənab Prezident, mən yaşıma görə Sizi özümə qardaşoğlu hesab edirəm. Sizin apardığınız siyasət nəticəsində mən və xalqımız sanki dirilmişik. Nəvələrim hamısı ordudadır. Onlar mənə şad xəbər verdilər ki, torpaqlarımızı yağı düşməndən azad edirik. Mən sevincimdən ağladım. Mənim 90 yaşım oktyabrın 15-də tamam olacaq. Bu günü ki gördüm, bundan sonra mənə daha ölüm yoxdur. Sizi Allaha tapşırıram. O, özü Sizə yar olsun! Allah Xalqımızı və Ordumuzu qorusun!”

Cəbrayıl rayon sakini **Rövşən Məmmədov:** “Möhtərəm cənab Prezident, başda Siz olmaqla çox hörmətli Mehriban xanımı və Azərbaycan xalqını bizlərə bəxş etdiyiniz bu qələbə sevinci münasibətilə öz adımdan, ailəmiz adından və Cəbrayıl rayonu sakinləri adından təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzu edirəm. Mən bir azərbaycanlı və Cəbrayılın Böyük Mərcanlı kənd sakini olaraq Sizinlə fəxr edirəm. Cəbrayılımızı və bir neçə kəndlərimizi 30 ilə yaxın həsrətdən sonra qaytarmaqla bu sevinci bizlərə bəxş etdiniz. Allah Sizi, Mehriban xanımı və Azərbaycan əsgərlərini qorusun. Qələbə bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Qobustan sakini **Elçin Əmiraslanov:** “Hörmətli cənab Ali Baş Komandan, bu tarixi gün münasibətilə Sizi, xalqımızı ürəkdən təbrik edirəm. İnanıram ki, Sizin rəhbərliyiniz altında yaxın vaxtlarda Şuşada, Ağdamda, Xankəndidə, bütün işğal olunmuş ərazilərimizdə üçrəngli Azərbaycan bayrağı dalğalanacaq. Biz keçmiş döyüşçülər günü bu gün də Vətən yolunda Sizin rəhbərliyiniz altında, qanımızdan, canımızdan keçməyə hazırıq. Sizin siyasi kursunuzu, hərbi siyasətinizi dəstəkləyir və alqışlayırıq. Cənab Ali Baş Komandan, elə başa düşülməsin ki, mən özümü kənarda qoymaqla azadlığa nail olmağımızı istəyirəm. Sizə çox məsuliyyətlə bildirirəm ki, Vətən uğrunda canımı, qanımı belə verməyə hazıram. Bu çətin, lakin şərəfli işinizdə Tanrı Sizə və millətimizə yar olsun!”

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının ərazisi olan Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələri tərəfindən başlanılan və gərginliyin artmasına, eləcə də insanların həlak olmasına səbəb olan bu son qarşıdurmanı kədər hissi ilə izləyirik.

BMT-nin Baş katibi bir çox dünya liderləri tərəfindən də dəstəklənən və beynəlxalq hüququn prinsiplərindən irəli gələn çoxtərəfli dünya düzəninə bir daha çağırış edib. Biz Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində, bütün cəbhəboyu artilleriya hücumlarını qətiyyətlə pisləyirik. 1994-cü ildə qəbul olunmuş atəşkəs rejiminin Ermənistan tərəfindən pozulması və bunun dinc əhalinin həlak olması ilə nəticələnməsi ilk dəfə deyil ki, baş verir.

Dünya bir daha agah olsun ki, Ermənistan bu vaxta qədər işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrini yerinə yetirməyib. Azərbaycanın dinc əhalisinə və mülki obyektlərinə edilən hücumlar beynəlxalq humanitar hüququn və insan hüquqlarının ciddi pozulmasıdır.

Cənab Prezident!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarıq, Qəyyumlar Şurasına verdiyiniz status sayəsində 8 il ərzində mərkəz dünyada tanınmış bir instituta çevrilib. Bu gün mərkəzin həmsədrləri xanım Vayra Vike-Freyberqa, doktor İsmayıl Serageldin və Baş katibin fədakar əməyi sayəsində öz üzvlərimizi səfərbər edərək Dağlıq Qarabağ münaqişəsini müttəfiqlərimizin, tərəfdaşlarımızın və xalqlarımızın diqqətinə çatdırırıq.

Xahiş edirik kədər və anlayış hisslərimizlə bərabər, cənab Prezident, ən yüksək hörmət və ehtiramlarımızı qəbul edəsiniz.

*Səmimiyyətlə,*

***Rosen PLEVNELİEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***Recep MEYDANİ,***
***1997-2002-ci illərdə Albaniyanın Prezidenti***

***Hikmet ÇETİN,***
***1991-1994-cü illərdə Türkiyənin Xarici İşlər naziri,***
***1997-1999-cu illərdə Türkiyə Böyük Millət Məclisinin sədri***

Zati-aliləri!

Biz, ölkənizin dostları olaraq Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində baş verən ən son münaqişədən narahatıq. Günahsız insanların, xüsusilə də uşaqların ölümü qəbul edilməzdir. Beynəlxalq ictimaiyyət BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dərhal yerinə yetirilməsinin vacibliyini xatırlatmaqla Ermənistana daha fəal surətdə təsir etməlidir.

Biz, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi adından BMT-nin Baş katibinə bəyanat göndərərək erməni təcavüzkarların Azərbaycan ərazilərindən dərhal çıxarılmasına və təcili atəşkəsə çağırış edirik. Biz, həmçinin həmsədrimiz Vayra Vike-Freyberqanın BMT-nin xüsusi nümayəndə təyin edərək Təhlükəsizlik Şurasına hesabat verməsi təklifini dəstəkləyirik.

Cənab Prezident, biz Sizin və Azərbaycan xalqının yanındayıq.

*Səmimiyyətlə,*

***Şövkət ƏZİZ,***
***2004-2007-ci illərdə Pakistanın Baş Naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Hörmətli cənab Prezident!

Qardaş Azərbaycan xalqına qarşı təcavüzkarlıq aktlarından dərin kədər hissi duyur, münaqişənin tezliklə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll olunmasını, haqq-ədalətin öz yerini taparaq Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsini arzulayıram.

Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin ölkənin bu çətin günlərində öz dövlətlərinin yanında olaraq xalqınıza dəstək vermələrini, Vətənə sonsuz sevgisini, ölkənin gələcək nəsilləri üçün necə narahatlıq keçirdiklərini diqqətlə izləyirəm. Bir çoxu ilə uzun illərdir birlikdə işlədiyim və dostluq etdiyim bu ziyalıların məsələyə göstərdikləri həssaslığa və söylədikləri fikirlərə mən də səmimi qəlbdən qoşuluram. Mədəniyyət xadimi olaraq Azərbaycan xalqının ağrı-acısını dərindən hiss edir, əzəli Azərbaycan torpaqlarının tezliklə sülhə, əmin-amanlığa və rifaha yenidən qovuşmasını diləyirəm.

Tarixi ədalət və hüquq Azərbaycanın tərəfindədir. Əminəm ki, Zati-alinizin liderliyi ilə Azərbaycan xalqı bu çətinliklərin də öhdəsindən layiqincə gələcək, hər bir azərbaycanlı üçün müqəddəs olan bu tarixi torpaqlarda incəsənətin, mədəniyyətin və həyatın yenidən canlanmasını bütün türk dünyası ilə birlikdə müşahidə edəcəyik.

Bu xoş fürsətdən istifadə edərək, döyüşlərdə həlak olanlara Allahdan rəhmət, yaralılara tezliklə şəfa tapmalarını diləyirəm.

*Dərin hörmətlə,*

***Düsen KASEİNOV,***
***TÜRKSOY-un Baş katibi***

Hörmətli cənab Prezident!

Artıq bir həftədir ki, biz çox sayda insanın həlak olması və yaralanmasına səbəb olan silahlı münaqişəni izləyirik. Bu münaqişənin əsas səbəbi Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə bağlıdır. Beynəlxalq hüquqa əsasən, Ermənistan tərəfindən illərdir işğal altında saxlanılan ərazilər də daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır.

Azərbaycanın otuz ildir Ermənistan tərəfindən işğal olunan əraziləri üzərində tam suverenliyini bərpa etmək hüququnu qətiyyətlə dəstəkləyərək, dünya birliyini bu münaqişənin beynəlxalq norma və prinsiplərə uyğun olaraq tam şəkildə həllində, Azərbaycan ərazilərinin işğalına son qoyulmasında fəal iştirak etməyə çağırıram.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri kimi, hamımızın dəstəyinə arxalana bilərsiniz. Ürəkdən arzu edirəm ki, Azərbaycan bu haqq mübarizəsində qalib gəlsin.

*Hörmətlə,*

***Sali BERİŞA,***
***1992-1997-ci illərdə Albaniyanın Prezidenti,***
***2005-2013-cü illərdə Albaniyanın Baş Naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Hörmətli Prezident Əliyev!

Ölkənizin dostu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəal üzvü kimi hazırkı vəziyyətdən çox narahatam.

Mən qətiyyətlə inanıram ki, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələrinə məhəl qoymamağa heç kimin haqqı yoxdur.

Dünya birliyi 30 ildir ki, Azərbaycan ərazisinin işğalı problemini həll edə bilmir.

BMT öz nüfuzunu qorumaq üçün məsələyə müdaxilə etməli və Azərbaycan xalqı ilə həmrəyliyini nümayiş etdirməlidir.

Bizim həmsədrlər və üzvlər Sizin yanınızdadırlar.

*Hörmətlə,*

***Comart OTORBAYEV,***
***2014-2015-ci illərdə Qırğızıstanın Baş Naziri***

Zati-aliləri!

Biz hazırkı vəziyyəti böyük narahatlıqla izləyirik. Bütün dünyanın ölümcül COVID-19-a qarşı mübarizə apardığı bir vaxtda uşaqların qətlə yetirilməsi və şəhərlərin dağıdılmasına heç nə ilə haqq qazandırmaq olmaz. Bu, bəşəriyyətə qarşı törədilmiş cinayətdir.

Biz BMT və digər beynəlxalq təşkilatları daha fəal olmağa, həmçinin öz üzərilərinə götürdükləri öhdəlikləri, xüsusilə də BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələrini dərhal yerinə yetirməyə çağırırıq.

Cənab Prezident, həmsədrlərimizin rəhbərliyi ilə beynəlxalq hüquq normalarının təşviqi istiqamətində çalışdığımız Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə və onun beynəlxalq statusuna göstərdiyiniz bütün dəstəyə görə Sizə minnətdarlığımızı bildiririk. Məhz bu dəstək sayəsində mərkəzimiz etibarlı və nüfuzlu beynəlxalq təşkilata çevrilib.

*Hörmətlə,*

***Yadranka KOSOR,***
***2009-2011-ci illərdə Xorvatiyanın Baş Naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının inkişafının təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu gün Siz bu inkişafı uğurla davam etdirirsiniz. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələr, infrastrukturun yenidən qurulması, xüsusilə yolların, körpülərin inşası vətəndaşların rifahına xidmət edir.

Biz - Quba rayonunun Birinci Nügədi kəndinin və Almaz Qazmalar yaşayış massivinin sakinləri də bu abadlıq-quruculuq işlərinin canlı şahidləriyik. Kəndimizi rayon mərkəzi ilə birləşdirən yeganə körpünün əsaslı təmir olunması ilə bağlı 2020-ci ilin iyul ayında Sizə kollektiv müraciət göndərmişdik. Müraciətimizdən sonra körpü tez bir zamanda və yüksək keyfiyyətlə yenidən inşa olundu.

Hörmətli cənab Prezident, XXI əsrin bəlası olan koronavirus pandemiyası dünya üçün ciddi sosial-iqtisadi problemlər yaradıb. Sizin rəhbərliyinizlə dərhal həyata keçirilən qabaqlayıcı tədbirlər və vətəndaşların sağlamlığının qorunması ilə bağlı verilən qərarlar xalqa olan sevginizdən irəli gəlir. Məhz bu səbəbdən pandemiyanın ölkəmizdə törədə biləcəyi kütləvi fəsadların qarşısı alınır. Kütləvi informasiya vasitələrinin verdiyi məlumatlarda göstərilir ki, bir çox ölkələr pandemiya ilə mübarizə çərçivəsində əksər sosial layihələrin icrasını dayandırıb. Lakin müdrik siyasətiniz nəticəsində ölkəmizdə nəinki sosial layihələrin icrası dayandırılıb, infrastrukturun qurulması davam etdirilir və hətta kiçik bir kəndin sakinlərinin müraciəti nəzərə alınaraq möhkəm körpü tikilib. Körpünün inşası düşmənlərimizə və qəlbiqara, sapı özümüzdən olan baltalara gözdağıdır. Bununla bir daha sübut etdiniz ki, dövlətimiz qüdrətlidir, sabitdir və gələcəyə doğru inamla addımlayır.

Cənab Prezident, valideynlərimiz işə getmək, qardaşlarımız Vətəni qorumaq, qızlarımız və oğlanlarımız təhsil almaq, cəmiyyətə, xalqa yararlı olmaq üçün bu körpüdən keçəcəklər. İllər ötəcək, övladlarımıza və nəvələrimizə, onlar da öz xələflərinə dünyada pandemiyanın at oynatdığı bir dövrdə onlar üçün yeni körpünün tikilməsini həyata keçirən rəhbərin İlham Əliyev olduğunu sevə-sevə söyləyəcəklər.

*Hörmətlə,*

***Allahverdiyeva Hülya, Məlikov Aydın, Əbdülrəhmanova Aygün, Quliyev Ramazan, Zeynalov Namik və başqaları (cəmi 31 nəfər).***
***Azərbaycan Respublikası, Quba rayonu, Birinci Nügədi kəndi***

Hörmətli cənab Prezident!

Biz Balkan yarımadasında, xüsusilə də Bosniya və Herseqovinada müharibənin nə olduğunu, ölkənizin bu gün yaşadıqlarını yaxşı anlayırıq. Bu ağrı-acının keçməsi bir müddət vaxt aparacaq.

Siz ölkənizi uğurla müdafiə edən Lidersiniz. Təəssüflər olsun ki, 30 il bundan əvvəl ölkəmizdə olduğu kimi, biz yenə də beynəlxalq hüququn prinsiplərinə göz yumulduğunun və səssiz qalmanın şahidi oluruq. Biz dünya birliyini Azərbaycan Respublikasının ərazi bütövlüyünə tam hörmət edərək, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həll edilməsi istiqamətində səylərini artırmağa çağırırıq.

Biz beynəlxalq səviyyədə bununla bağlı təbliğat aparılması üçün Nizami Gəncəvi Beynəlxalq Mərkəzində öz resurslarımızı səfərbər etmişik.

Sizin hərtərəfli dəstəyiniz sayəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Balkan yarımadasındakı fəaliyyətini yüksək qiymətləndirirəm. Köməyə ehtiyac olarsa, biz öz gücümüz daxilində və "Ortaq dəyərlər və cəmiyyət" adlı fondumu, eləcə də regiondan olan dostlarımı səfərbər etmək üçün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi ilə əlaqə saxlamışam.

İnanıram ki, Azərbaycan üçün çox çətin olan bu dövrdə haqq-ədalət tezliklə zəfər çalacaq. Biz birlikdəyik!

Əminəm ki, Bosniya və Herseqovina xalqının mütləq əksəriyyəti ölkənizin hansı çətinliklərdən keçdiyini çox gözəl anlayır və buna görə də biz Azərbaycan xalqını qətiyyətlə dəstəkləyirik.

*Hörmətlə,*

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş Naziri, 2012-2015-ci illərdə Baş Nazirin müavini və Xarici İşlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

# Azərbaycan ziyalıları və vətəndaş cəmiyyətinin üzvləri beynəlxalq və regional təşkilatlara müraciət ünvanlayıblar

Azərbaycan ziyalıları və vətəndaş cəmiyyətinin üzvləri Birləşmiş Millətlər Təşkilatına, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvlərinə, Qoşulmama Hərəkatına, Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO), NATO Parlament Assambleyasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa İttifaqına, Avropa Şurasına, Avropa Şurasının Parlament Assambleyasına, ATƏT Parlament Assambleyasına, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə, Müstəqil Dövlətlər Birliyinə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığına, Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumuna (UNESKO) və Uşaq Fonduna (UNICEF) müraciət ünvanlayıblar. AZƏRTAC müraciəti təqdim edir.

XXI əsrin başlanğıcında yüksək sürətlə inkişaf edən mədəniyyət, elm, texnologiyanın son nailiyyətlərinin bəşəriyyətin sülh və əmin-amanlığına xidmət etməsi fonunda, Ermənistan hələ də orta əsrlər zehniyyətində hakim olan torpaq işğalı və ərazi iddialarını gündəmə gətirərək günümüzün reallıqlarını dərk etmir.

Bonn Beynəlxalq Konversiya Mərkəzinin (Bonn International Center for Conversion) 2020-ci il fevral ayında açıqladığı dünya dövlətlərinin silahlanma indeksinə görə, Ermənistan əhalisinin hər min nəfərinə düşən hərbçi sayı, ümumi daxili məhsulda (ÜDM) silahlanmaya ayrılan xərclər, hərbi xərclər, səhiyyə xərcləri, ordunun say tərkibi və ağır silahların sayı baxımından dünyada üçüncü, Avropada isə birinci yerdədir. Hesabatda Ermənistanın silahlanma yarışında ilk yerlərdə olması səbəbinin Dağlıq Qarabağ münaqişəsi və son 30 ildə militarist siyasət həyata keçirməsi olduğu qeyd edilir.

Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı olan BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasının vacibliyi açıq şəkildə tələb edilir. Bu qətnamələrdə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar addımlar qınanır, münaqişə tərəfi olmayan mülki şəxslər qorunur və ərazi əldə etmək üçün güc tətbiqinin yolverilməz olduğu vurğulanır. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı qeyd olunur.

2020-ci il sentyabrın 27-də səhər saat 06-dan etibarən Ermənistanın hərbi qüvvələri 1994-cü ildən qüvvədə olan atəşkəs razılaşmasını kobud şəkildə pozaraq genişmiqyaslı hərbi əməliyyatlara başlamış, bütün təmas xətti boyunca Azərbaycanın mülki obyektlərini böyük çaplı silahlardan, minomyotlardan, artilleriya qurğularından və ballistik raketlərdən atəşə tutmuşdur.

27 sentyabr - 11 oktyabr arasında Ermənistanın silahlı qüvvələri döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Zərdab, Goranboy, Göygöl, Tərtər, Yevlax yaşayış məntəqələrini atəşə tutaraq 13-ü qadın, 3-ü uşaq olmaqla, 41 mülki şəxsi qətlə yetirmiş, 206 mülki şəxsi yaralamışlar. Yaralananlar içərisində 44 qadın və 22 uşağın (onlardan 6 körpə) olması diqqət çəkir.

Bu hücumlar nəticəsində 1185 şəxsi evə, 148 sosial infrastruktur obyektinə və 57 yaşayış binasına əsaslı zərər dəymişdir. Bundan əlavə, işğalçı Ermənistanın hərbi qüvvələri bölgə üçün böyük irriqasiya əhəmiyyəti daşıyan Mingəçevir Su Elektrik Stansiyasını, Avropanın enerji təhlükəsizliyinin əsasını təşkil edən və regionun iri strateji obyektləri sayılan Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Ceyhan neft boru xətlərini hədəf kimi seçərək bombalamışlar.

Eyni zamanda Ermənistanın hərbi-siyasi hakimiyyəti tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə digər ölkələrdən muzdlu terrorçular gətirilərək, "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunu pozulmuş və Ermənistan hərbi qüvvələri tərəfindən azərbaycanlı əhaliyə qarşı istifadə olunmuşdur.

Ermənistan 2020-ci il sentyabrın 27-də atəşkəs rejimini pozaraq hərbi əməliyyatlara başladıqdan sonra şəhərlərə və digər yaşayış məntəqələrinə qarşı qadağan olunmuş "9N235", həmçinin "M85" bombacıqlarından istifadə etmişdir.

Qeyd olunan bombacıqlar "Kaset Sursatlar haqqında" Konvensiyaya (CCM) uyğun olaraq 2008-ci ildə qadağan olunmuş sursatlar sinfinə daxil edilib.

Humanitar məqsədlərlə Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da atəşkəs razılığı əldə edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri 11 oktyabr gecə saat 2-də öz ölkəsinin ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni "Elbrus" ballistik raketlərlə (SCUD) bombalamışdır. Nəticədə 5-i qadın olmaqla 10 nəfər həlak olmuş, 17-si qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanmış, həmçinin 3 bina tamamilə məhv edilərək, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəymişdir.

BMT üzvü olan və 1944-cü ildə "Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyası"nı imzalamış bir sıra Avropa ölkələri konvensiyanın şərtlərini kobudcasına pozaraq, Ermənistana mülki təyyarələrlə silah daşımağa başlamışlar.

Ermənistanın atəşkəs rejiminə əməl etməməsi bölgə və beynəlxalq aləmdə sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid edir. Ermənistan əsgərlərinin cəsədlərini yığan, üzərində ağ bayraq qaldırıldığı bariz şəkildə görünən Azərbaycanın tibbi maşınlarını atəşə tutur.

1949-cu ildə qəbul edilən Cenevrə Konvensiyasının müharibə zamanı mülki şəxslərin müdafiəsi ilə bağlı 18-ci maddəsində qeyd olunur ki, heç bir halda münaqişə tərəfləri mülki insanların toplandığı yerə mərmi atmamalı, artilleriya atəşinə tutmamalıdır. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi heç bir beynəlxalq norma və prinsipə əməl etməyərək, Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq, dinc əhalini, çoxsaylı evləri, mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə almaqda davam edir və mülki vətəndaşlara qarşı cinayətlər törədir. Əhalinin kompakt olduğu məntəqələr, rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektləri, xəstəxanaları, tibb məntəqələri, məktəb binaları və uşaq bağçaları hədəf kimi seçilir.

Yuxarıda qeyd edilənləri diqqətə alaraq, 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin icra olunmasını, Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz olaraq Azərbaycanın ərazisini tərk etməsini, 1 milyon məcburi köçkünün yaşayış yerlərinə qayıtması üçün şərait yaradılmasını tələb edirik.

Ermənistanın bölgə və beynəlxalq təhlükəsizlik mühitini təhdid edən təcavüzkar siyasəti dərhal dayandırılmalı, Azərbaycanın işğal olunmuş ərazilərindən ən qısa zamanda çıxması üçün Ermənistana təzyiq edilməli, hərbi cinayətlərinin qarşısı alınmalıdır.

1. Əli Əhmədov Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi
2. Fəzail Ağamalı "Ana Vətən" Partiyasının sədri, Milli Məclisin deputatı
3. Sabir Rüstəmxanlı Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Milli Məclisin deputatı
4. Elşən Musayev Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin deputatı
5. Tahir Kərimli Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı
6. Fazil Mustafa Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı
7. Asim Mollazadə Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı
8. Qüdrət Həsənquliyev Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin deputatı
9. Sabir Hacıyev Vətəndaş Birliyi Partiyasının sədri, Milli Məclisin deputatı
10. Razi Nurullayev Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı
11. İlqar Məmmədov Real Partiyasının sədri
12. Arzuxan Əlizadə Azərbaycan Milli İstiqlal Partiyasının sədri
13. Rafiq Turabxan Azərbaycan Xalq Demokratik Partiyasının sədri
14. Osman Əfəndiyev Milli Demokrat İdrak Partiyasının sədri
15. Xudadat Xudiyev "Birlik" Partiyasının sədri
16. Hacıbaba Əzimov Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri
17. Əlisahib Hüseynov Milli Həmrəylik Partiyasının sədri
18. Mais Səfərli Azərbaycan Yurddaş Partiyasının sədri
19. İqbal Ağa-zadə Azərbaycan Ümid Partiyasının sədri
20. Firudin Kərimov "Qorqud" Partiyasının sədri
21. Samir Cəfərov Azərbaycan Milli Hərəkat Partiyasının sədri
22. Hacı Hacıyev/Rauf Qurbanov Azərbaycan Kommunist Partiyası
23. Abutalıb Səmədov Azərbaycan Naminə Alyans Partiyasının sədri
24. Əsli Kazımova Azərbaycan Sosial Rifah Partiyasının sədri
25. Əvəz Temirxan Azərbaycan Liberal Partiyasının sədri
26. Araz Əlizadə Azərbaycan Sosial Demokrat Partiyasının sədri
27. İxtiyar Şirinov Milli Konqres Partiyasının sədri
28. Sübut Əsədov Azərbaycan Respublikaçılar Partiyasının sədri
29. Pənah Hüseyn Azərbaycan Xalq Partiyasının sədri
30. Fuad Əliyev Azərbaycan Liberal Demokrat Partiyasının sədri
31. Sərdar Cəlaloğlu Azərbaycan Demokrat Partiyasının sədri
32. Ağadur Müslümov "Azərbaycan Mübarizləri" Partiyasının sədri
33. İlyas İsmayılov "Ədalət" Partiyasının sədri
34. Yunus Oğuz "Milli Vəhdət" Partiyasının sədri
35. Hafiz Hacıyev Müasir Müsavat Partiyasının sədri
36. Kamil Seyidov Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri
37. Əhməd Oruc Azadlıq Partiyasının sədri
38. Elşad Musayev Böyük Azərbaycan Partiyasının sədri
39. Teyyub Qəniboğlu Azərbaycan Təkamül Partiyasının sədri
40. Mirmahmud Fəttayev Klassik Xalq Cəbhəsi Partiyasının sədri
41. Əli Əliyev Vətəndaş və İnkişaf Partiyasının sədri
42. Tufan Kərimov Azərbaycan Milli Demokrat Partiyasının sədri
43. Qulamhüseyn Əlibəyli Aydınlar Partiyasının sədri
44. Fərəc Quliyev Milli Dirçəliş Hərəkatı Partiyasının sədri
45. Tural Abbaslı Ağ Partiyasının sədri
46. Musa Ağayev Yeni Zaman Partiyasının sədri
47. Sülhəddin Əkbər Azad Demokratlar Partiyasının sədri
48. Bədrəddin Quliyev Cümhuriyyət Xalq Partiyasının sədri
49. Əflan İbrahimov Müstəqil Xalq Partiyasının sədri
50. Ağasif Şakiroğlu Gələcək Azərbaycan Partiyasının sədri
51. Səbinə Əliyeva Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)
52. Eldar Quliyev Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı
53. Səttar Möhbalıyev Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri, Milli Məclisin deputatı
54. Məmməd Musayev Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti
55. Anar Rzayev Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı
56. Şəfiqə Məmmədova Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti
57. Firəngiz Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti
58. Fərhad Xəlilov Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı
59. Azərpaşa Nemətov Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, Xalq artisti
60. Elbay Qasımzadə Azərbaycan Memarlar İttifaqının sədri, Əməkdar memar
61. Elçin Şıxlı Azərbaycan Jurnalistlər Birliyinin sədri
62. Ömər Eldarov Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, Azərbaycan Respublikasının Xalq rəssamı
63. Fərhad Bədəlbəyli Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti
64. Siyavuş Kərimi Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti
65. Rauf Zeyni Milli QHT Forumunun prezidenti
66. Rufiz Qonaqov "Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi" İctimai Birliyinin sədri
67. Əhmədov Elman Abbas oğlu "Azəri-tat Mədəniyyət Mərkəzi" İctimai Birliyinin sədri
68. Rzayev İmran Sədulla oğlu "Samur Ləzgi Milli Mədəni Mərkəzi" İctimai Birliyinin sədri
69. Şaulov İqor Aleksandroviç "Dağ Yəhudilərinin İrsi Mərkəzi" İctimai Birliyinin sədri
70. Məlikova İradə Şirzad qızı (təsisçi və baş redaktor) "Dodo" qəzetinin baş redaktoru
71. Qorxmaz İbrahimli "Demokratik Seçki Mərkəzi" İctimai Birliyinin sədri
72. Novella Cəfəroğlu "D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti" İctimai Birliyinin sədri
73. Səltənət Qocamanlı "İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin sədri
74. Səadət Bənənyarlı "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri
75. Mustafa Babanlı "Azərbaycanın Əcnəbi Məzunlarının Beynəlxalq Assosiasiyası" İctimai Birliyinin sədri
76. Umud Mirzəyev Beynəlxalq Avrasiya Mətbuat Fondu
77. Nüşabə Məmmədova "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İctimai Birliyinin sədri
78. Cəsarət Hüseynzadə "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri
79. Şəmistan Əlizamanlı "Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyinin sədri
80. Sevda Tahirli "Mirzə Ələkbər Sabir" Fondunun prezidenti
81. Tənzilə Rüstəmxanlı Azəri-türk Qadınları Birliyinin sədri
82. Şamil Ələkbərli "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri
83. Şəlalə Həsənova "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyinin sədri
84. Yadigar Məmmədli "Azərbaycan Demokratik Jurnalistlər Liqası" İctimai Birliyinin sədri
85. Tahir Xudiyev "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin sədri
86. Zaur Qəriboğlu "Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyinin sədri
87. Hüseynov Etibar Şakir oğlu "Azərbaycan-Britaniya Məzunları" İctimai Birliyinin sədri
88. Fikrət Yusifov "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri
89. Rəfail Becanov İnsan Hüquqları və Maarifçilik İctimai Birliyinin sədri
90. Mehriban Abdullayeva Demokratik Cəmiyyət və Qadın hüquqlarının müdafiəsi İctimai Birliyinin sədri
91. Mehriban Zeynalova "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri
92. Sahib Məmmədov Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası
93. Mais Əliyev "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri
94. Əliməmməd Nuriyev "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti
95. Vüsal Quliyev "Gənclər üçün Təhsil Mərkəzi" İctimai Birliyinin sədri
96. Gündüz Osman "Multimedia" informasiya sistemləri və texnologiyaları mərkəzi İctimai Birliyinin sədri
97. Mirəli Hüseynov "Demokratiyanı öyrənmə" İctimai Birliyinin sədri
98. Sabit Bağırov Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti
99. İradə Rizazadə "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri
100. Həsənli Emin Əliyar oğlu Tərxis Olunmuş Hərbçilərin "Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri
101. Ziba Nəbiyeva "İnkişafa Doğru Qadın Təşəbbüsü" İctimai Birliyinin sədri
102. Tünzalə Cavadova "Qadın və Gənc Ailələrin Sosial İnkişafı" İctimai Birliyinin sədri
103. Füzuli Rzaquliyev "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin sədri
104. Samirə Mustafayeva "Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri
105. Mehdi Mehdiyev Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri
106. Rövşən Quliyev "Qarabağ-Əlil Döyüşçülər" Futbol Federasiyası İctimai Birliyinin sədri
107. Akif Nağı "Qarabağ Azadlıq Təşkilatı" İctimai Birliyinin sədri
108. Əliyev Asəf Kərim oğlu "Qarabağ Qaziləri" İctimai Birliyinin sədri
109. Hacibala Əzimov "Veteran tankçılar" İctimai Birliyinin sədri
110. Elmira Məhəddinli "Beynəlxalq Humanistika İnstitutu" İctimai Birliyinin sədri
111. Fuad Rzayev "Bakı Müharibə Əlil və Veteranları" İctimai Birliyinin sədri
112. Kənan Yusifzadə "Hərbi Cərrahlar" İctimai Birliyinin sədri
113. Tamxil Hacıyev "Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər" İctimai Birliyinin sədri
114. İmamverdi Həmidov Talış icmasının ağsaqqalı
115. Əhməd Həpiyev Kürd icmasının ağsaqqalı
116. Mixail Zabelin Azərbaycanda Rus İcmasının rəhbəri, Milli Məclisin deputatı
117. Aleksandr Zareçnı T.Şevçenko adına Azərbaycanda Ukrayna İcmasının rəhbəri
118. Aleksandr Şarovski Avropa Yəhudilərinin Bakı Dini İcmasının rəhbəri
119. Milix Yevdayev Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri
120. Robert Mobili Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasının rəhbəri
121. Oleq Danakari Udi Mədəniyyət Mərkəzinin rəhbəri
122. İsmayıl Rəhimov Azərbaycanda Yaşayan Axısqa Türkləri "Vətən" İctimai Birliyinin rəhbəri
123. Rafiq Abdullayev "Buduq" Xeyriyyə Cəmiyyətinin rəhbəri
124. Gülcan Miəsautova "Tuqan tel" Tatar Mədəniyyəti Cəmiyyətinin rəhbəri
125. Səidə Mehdiyeva Azərbaycanda yaşayan yunanların "Arqo" Cəmiyyətinin rəhbəri
126. Rafael Qvaladze Azərbaycanda yaşayan Gürcü İcmasının rəhbəri
127. Mariya Hüseynova-Atanasova Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım İctimai Birliyinin rəhbəri, "Akkord" jurnalının baş redaktoru
128. Sevinc Bulacova İngiloy İcmasının rəhbəri
129. Sədaqət Kərimova şair, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (ləzgi)
130. Maqsud Hacıyev professor, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Beynəlxalq Şərqşünaslar Assosiasiyasının həqiqi üzvü (tat)
131. Şair Ramaldanov Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan polkovniki (ləzgi)
132. Ramazan Xutrayev şair (avar)
133. Fərrux Poladov fərdi təqaüdçü (avar)
134. Şahuddin Malaxov Azərbaycan Silahlı Qüvvələrinin istefada olan polkovniki (avar)
135. Pyotr Qurtovenko istefada olan birinci dərəcəli kapitan (ukraynalı)
136. Lesya Kərimova Bakı Slavyan Universitetinin Ukrayna mədəni-maarif mərkəzinin rəhbəri (ukraynalı)
137. Eldar Abdullayev Qarabağ müharibəsi veteranı, istefada olan polis mayoru (buduq)
138. Rais Şabakayev Qarabağ müharibəsi veteranı, istefada olan polkovnik-leytenant (tatar)
139. Moisey Bekker AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun elmi işçisi (yəhudi)
140. Anastasiya Lavrina politoloq, CBC telekanalının aparıcısı (rus)

# Humanitar atəşkəsin antihumanist qatilləri

## Azərbaycanın Xarici İşlər naziri ölkəmizdəki diplomatik korpusun rəhbərləri üçün brifinq keçirib

Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ölkəmizdəki diplomatik korpusun rəhbərləri üçün brifinq keçirib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, brifinqdə nazir Ceyhun Bayramov Ermənistanın oktyabrın 10-dan etibarən humanitar atəşkəslə bağlı Moskva razılaşmasını kobud şəkildə pozaraq Azərbaycanın yaşayış məntəqələrini və mülki şəxslərini məqsədli şəkildə atəşə tutması barədə məlumat verib. Humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan sonra təmas xəttindən xeyli uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qaldığı və bu hücum nəticəsində 9 mülki şəxsin həlak olduğu, o cümlədən aralarında azyaşlı uşaqlar olmaqla, 35 nəfərin yaralandığı diqqətə çatdırılıb.

Nazir Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli atəşə tutmasının işğalçı ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymamasının bariz nümunəsi olduğunu vurğulayıb.

Dünya ictimaiyyətini və dövlətlərini beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqe sərgiləməyə çağıran Xarici İşlər naziri Ceyhun Bayramov onları işğalçı Ermənistanı beynəlxalq öhdəliklərinə riayət etməyə məcbur etmək üçün qətiyyətli addımlar atmağa çağırıb.

## Azərbaycanın Xarici İşlər naziri ilə Minsk qrupunun həmsədrləri arasında telefon danışığı olub

Oktyabrın 11-də Azərbaycan tərəfinin təşəbbüsü ilə Xarici İşlər naziri Ceyhun Bayramovla ATƏT-in Minsk qrupunun Rusiyadan olan həmsədri İqor Popov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan sonra belə Ermənistanın azərbaycanlı mülki şəxsləri və obyektləri qəsdən atəşə tutmaqda davam etdiyi barədə qarşı tərəfə məlumat verib. Nazir humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan bir neçə saat sonra Ermənistan silahlı qüvvələrinin cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində etdiyi hücum cəhdi, erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması və təmas xəttindən uzaq yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalmasını diqqətə çatdırıb. Nazir Gəncəyə edilən hücum nəticəsində 9 mülki şəxsin həlak olduğunu, həmçinin aralarında azyaşlı uşaqlar olmaqla, 35 nəfərin yaralandığını diqqətə çatdırıb.

Nazir bölgədə yaranmış vəziyyətə görə tam məsuliyyətin Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərində olduğunu bildirib.

ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri İqor Popov yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib və əldə olunmuş Moskva razılaşmasının şərtlərinə riayət edilməsinin vacibliyini vurğulayıb.

* * *

Oktyabrın 11-də Azərbaycan tərəfinin təşəbbüsü ilə Xarici İşlər naziri Ceyhun Bayramov ilə ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Endryu Şofer arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov azərbaycanlı mülki şəxslərin və obyektlərin humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan sonra da Ermənistan tərəfindən qəsdən atəşə tutulması barədə qarşı tərəfi məlumatlandırıb. Nazir humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan bir neçə saat sonra Ermənistan silahlı qüvvələrinin cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində etdiyi hücum cəhdi, erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması və təmas xəttindən uzaq yerləşən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalmasını diqqətə çatdırıb. Mülki əhali arasında həyatını itirən və yaralanan şəxslər barədə qarşı tərəfə məlumat verilib.

Nazir bölgədə yaranmış vəziyyətə görə tam məsuliyyətin Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərində olduğunu bildirib.

ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Endryu Şofer bölgədəki gərginliyin humanitar atəşkəsin əldə olunmasından sonra da davam etməsinin ciddi narahatlıq doğurduğunu bildirib və məsələnin həlli üzrə siyasi dialoqun zəruriliyini vurğulayıb.

* * *

Oktyabrın 11-də Azərbaycan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə ATƏT-in Minsk qrupunun fransalı həmsədri Stefan Viskonti arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov azərbaycanlı mülki şəxslərin və obyektlərin humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan sonra da Ermənistan tərəfindən qəsdən atəşə tutulduğu barədə qarşı tərəfi məlumatlandırıb. Nazir humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan bir neçə saat sonra Ermənistan silahlı qüvvələrinin cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində etdiyi hücum cəhdi, erməni əsgərlərinin cəsədlərini yığan və üzərinə aydın şəkildə ağ bayraq sancılan sanitar maşının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması və təmas xəttindən uzaq yerləşən, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalmasını, nəticədə mülki insanların həlak olduğu və yaralandığını qarşı tərəfin diqqətinə çatdırıb.

Nazir bölgədə yaranmış vəziyyətə görə tam məsuliyyətin Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərində olduğunu vurğulayıb.

ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskonti yaranmış vəziyyətdən təəssüf hissi keçirdiyini bildirib, atəşkəsin təmin edilməsinin vacibliyini vurğulayıb. Tərəfləri əldə olunmuş Moskva razılaşmasının şərtlərinə riayət etməyə çağıran fransalı həmsədr ən qısa zamanda tərəflərin siyasi dialoqa qayıtması üçün təkliflərlə çıxış edəcəklərini bildirib.

## Səudiyyə Ərəbistanı Krallığı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

Oktyabrın 11-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər naziri Faysal bin Ferhan Al Saud arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Faysal bin Ferhan Al Saud bölgədə mövcud olan gərgin vəziyyətlə bağlı narahatlığını ifadə edib.

Nazir Ceyhun Bayramov həmkarına bölgədəki son gərginliklə bağlı, xüsusilə Ermənistan tərəfindən Azərbaycanın mülki şəxslərinin və infrastrukturunun məqsədli şəkildə hədəfə alınması barədə məlumat verib. Humanitar atəşkəsin müəyyən olunduğu vaxtdan sonra Ermənistan silahlı qüvvələri tərəfindən təmas xəttindən uzaq yerləşən, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qaldığı və bu hücum nəticəsində 9 mülki şəxsin həlak olduğu, o cümlədən aralarında azyaşlı uşaqlar olmaqla, 34 nəfərin yaralandığı diqqətə çatdırılıb.

Nazir Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli şəkildə atəşə tutmasının ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymamasının bariz nümunəsi olduğunu bildirib.

Səudiyyə Ərəbistanının Xarici İşlər naziri ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha ifadə edib. O, münaqişənin siyasi yolla həll edilməsinin vacibliyini bildirib.

Nazir Ceyhun Bayramov, öz növbəsində regionda sülh və təhlükəsizliyin təmin edilməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin zəruri olduğunu vurğulayıb.

## *Hikmət HACIYEV:* “Gəncənin raket atəşinə tutulması Ermənistanın dünya ictimaiyyətinə qarşı hörmətsizliyi kimi qiymətləndirilməlidir”



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov oktyabrın 11-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində çoxmənzilli yaşayış binasının dağıldığı ərazidə olublar.

AZƏRTAC-ın hadisə yerində olan müxbiri xəbər verir ki, Prezidentin köməkçisi Hikmət Hacıyev yerli və xarici KİV-in nümayəndələrinin suallarını cavablandırarkən düşmənin humanitar atəşkəs rejiminin tələblərini kobudcasına pozaraq təkcə Gəncəni deyil, Mingəçevir və digər yaşayış məntəqələrimizi də ağır artilleriya və raket atəşinə tutduğunu bildirərək deyib: “Bu, Ermənistanın dünya ictimaiyyətinə, o cümlədən Rusiya Federasiyasına qarşı hörmətsizliyi kimi qiymətləndirilməlidir. Rusiya Federasiyasının bilavasitə vasitəçiliyi ilə humanitar əsaslarla atəşkəsə dair fikirlər ortaya qoyulduğu halda Azərbaycan xalqına qarşı Ermənistan tərəfindən bu vandallıq və soyqırımı aktı həyata keçirildi. Beynəlxalq ictimaiyyət bu hadisələrə lazımi qiymət verməlidir”.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 11-də gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16 qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

## “Azərbaycan humanitar atəşkəs rejiminə əməl etdi, Ermənistan isə mülki əhaliyə qarşı vandalizm aktı törətdi”

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 11-də Azərbaycanda akkreditə olunan xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün təşkil edilən brifinqdə onlara Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərini raket atəşinə tutması ilə bağlı ətraflı məlumat verib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi əhalinin sıx yaşadığı bir əraziyə raket hücumunun həyata keçirilməsinin çoxlu sayda insanın qətlə yetirilməsi məqsədini daşıdığını bildirib. Ermənistanın Gəncəni Vardenis rayonundan atəşə tutduğunu bildirən Hikmət Hacıyev qeyd edib ki, Gəncə təmas xəttindən uzaqda yerləşir. O əlavə edib ki, “Ermənistan “Smerç”, “Skad” raketlərindən də Azərbaycan şəhərlərini atəşə tutur. Eyni zamanda, Azərbaycanın sənaye şəhəri olan Mingəçevir şəhəri də Ermənistan tərəfindən raket atəşinə məruz qalır.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistanın bu əməlləri Moskvada əldə olunmuş humanitar atəşkəs razılaşmasına ziddir. Azərbaycan humanitar atəşkəs rejiminə əməl etdi, Ermənistan isə mülki əhaliyə qarşı vandalizm aktı törətdi. Beynəlxalq təşkilatlar Ermənistana siyasi təzyiq göstərməlidir. Ermənistan həm qara bazardan, həm də mülki təyyarələrdən istifadə etməklə yeni silahlar gətirir. Bu, beynəlxalq mülki aviasiya qaydalarına da tamamilə ziddir.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan danışıqların ATƏT-in Minsk qrupu çərçivəsində həllinə sadiqlik nümayiş etdirdi. Amma əfsuslar olsun ki, Ermənistan bu razılaşmanı pozaraq Azərbaycanın mülki əhalisini atəşə tutdu. Ermənistan özü də etiraf edir ki, mülki əhaliyə hücum etməklə hansısa məqsədə nail olmaq istəyir. Ermənistan həm təmas xətti boyunca yerləşən yaşayış məntəqələrini, həm də təmas xəttindən 100 kilometr uzaqlıqda yerləşən yaşayış məntəqələrini atəşə tutur. Əgər Ermənistan bu əməllərini davam etdirəcəksə, Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq cavab tədbirləri görəcək. Biz Ermənistanın silahlı qüvvələri ilə mübarizə aparırıq, mülki əhali bizim hədəfimiz deyil. Hərbçilər döyüş meydanında döyüşməli, mülki əhaliyə qarşı müharibə aparmamalıdır.

## “Ermənistanın bu əməlləri regional sülhə böyük təhdid yaradır”

“Azərbaycan özünün suveren əraziləri çərçivəsində müharibə aparır, Ermənistan isə öz ərazisindən istifadə etməklə Azərbaycanın şəhərlərini atəşə tutur. Ermənistanın bu əməlləri regional sülhə böyük təhdid yaradır”.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 11-də Azərbaycanda akkreditə olunan xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün təşkil edilən brifinqdə deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan enerji infrastrukturlarını da hədəfə alır və bu da təkcə Azərbaycan üçün deyil, digər ölkələr üçün də təhlükə yaradır.

## “Beynəlxalq ictimaiyyəti bu vəhşiliyi, vandalizm aktını qəti şəkildə pisləməyə çağırırıq”

“Toplanmış materiallar həm prokurorluq, həm də Xarici İşlər Nazirliyinin xətti ilə müvafiq beynəlxalq təşkilatların da diqqətinə çatdırılacaq”.

Biz beynəlxalq ictimaiyyəti bu vəhşiliyi, bu vandalizm aktını qəti şəkildə pisləməyə çağırırıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Gəncədə keçirilən brifinqdə deyib.

Prezidentin köməkçisi deyib: “Beynəlxalq ictimaiyyəti baş vermiş bu hadisələrə adekvat cavab verməyə çağırırıq”.

## “Ermənistan bir tərəfdən sülh yalvarışları edir, digər tərəfdən alçaqcasına mülki şəxslərə qarşı terror aktı törədir”

“Ermənistan bir tərəfdən sülh yalvarışları edir, digər tərəfdən alçaqcasına mülki şəxslərə qarşı terror aktı törədir”.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Gəncədə keçirilən brifinqdə söyləyib.

Prezidentin köməkçisi bildirib ki, biz ermənilərin bu addımını terror aktı kimi qiymətləndiririk. Onlar döyüş meydanındakı uğursuzluqlarını kompensasiya etmək üçün bu kimi şərəfsiz əməllərə əl atırlar.

## *Elçin ƏMİRBƏYOV:* “Ermənistan humanitar atəşkəslə bağlı Moskvada əldə olunmuş razılaşmaya hörmət etmir”

“Ermənistan humanitar atəşkəslə bağlı Moskvada əldə olunmuş razılaşmaya hörmət etmir”. AZƏRTAC xəbər verir ki, bunu Fransanın “L'Opinion” qəzetinə müsahibəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi səfir Elçin Əmirbəyov bildirib.

Elçin Əmirbəyov qeyd edib ki, cümə günü Moskvada imzalanan humanitar atəşkəs razılaşmasından sonra da vəziyyət dəyişməz olaraq qalır: “Moskva görüşündən əvvəl vəziyyət necə idisə, elə də davam edir. Üstəlik, bazar gününə keçən gecə daha intensiv hal alıb. Ermənistandan atılan ballistik raketlər Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə düşüb, nəticədə 10 nəfər həyatını itirib və 34 nəfər yaralanıb. Mingəçevirdəki “Azərbaycan” İstilik Elektrik Stansiyası da hədəfə alınıb”, - deyə E.Əmirbəyov qeyd edib.

Birinci vitse-prezidentin köməkçisi bildirib ki, Azərbaycan ərazisi separatçıların qruplaşdığı Dağlıq Qarabağ bölgəsindən deyil, Ermənistandan - Vardenis bölgəsi və Sevan gölünün cənub-şərqindən raket atəşinə tutulur: “Bu, bir tələdir. Çünki Ermənistanın Rusiya ilə müdafiə sazişi Dağlıq Qarabağ üçün keçərli deyil. Azərbaycanın Ermənistan ərazisinə cavab zərbələri isə hadisələrin gedişatını dəyişə bilər”.

## “Beynəlxalq təşkilatlar Ermənistanın bu hücumlarını qınamalı, ona sanksiyalar tətbiq etməlidirlər”

“Azərbaycan beynəlxalq hüquq çərçivəsində bütün hüquqları özündə qoruyur”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov Gəncədə keçirilən brifinqdə bildirib.

Elçin Əmirbəyov deyib: “Əgər beynəlxalq ictimaiyyət bizdən xahiş edirsə ki, ermənilərə şans verək, biz bu şansı verdik. Lakin Ermənistanın bu təxribatları onu sübut edir ki, onlar bu şansdan istifadə etmək istəmirlər. İlk növbədə beynəlxalq təşkilatlar bu hücumları qınamalı, Ermənistana sanksiyalar tətbiq etməlidirlər.

## “Ermənistanın Gəncəni raket atəşinə tutması onun münaqişənin sülh yolu ilə həllini istəmədiyini göstərdi”

“Azərbaycan Moskvada əldə edilmiş razılaşmaya əsasən münaqişənin sülh yolu ilə həllinə sadiqliyini nümayiş etdirdi. Amma Ermənistan hətta mülki əhaliyə qarşı hücumlarını davam etdirir”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov Azərbaycanda akkreditə olunan xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün təşkil edilən brifinqdə söyləyib.

Elçin Əmirbəyov qeyd edib ki, Ermənistanın ötən gecə Gəncəni raket atəşinə məruz qoyması onun münaqişənin sülh yolu ilə həllini istəmədiyini göstərdi. Beynəlxalq təşkilatlar bu məsələdə Ermənistan hökumətinə təzyiq göstərməli və Ermənistanın hücumlarının qarşısı alınmalıdır.

## “Euronews” saytında “Dağlıq Qarabağ: gərginliyin yeni mərhələsi” sərlövhəli məqalə dərc edilib

“Euronews” saytında “Dağlıq Qarabağ: gərginliyin yeni mərhələsi” sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Aİ üzvü olan ölkələrin xarici siyasət idarələrinin rəhbərlərinin oktyabrın 12-də keçirilməsi nəzərdə tutulan görüşündən bəhs edilir. Həmin görüşdə Dağlıq Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycan XİN başçılarının Moskvada keçirilmiş söhbətlərinin yekunlarına əsasən, humanitar atəşkəs haqqında bağlanmış saziş nəzərə alınmaqla müzakirə edilməsi nəzərdə tutulur.

Məqalədə vurğulanır ki, qarşıdurma vəziyyətində olan tərəflər həmin razılaşmanın pozulmasına görə bir-birini ittiham edir. Materialda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bəyanatına xüsusi yer ayrılıb. Həmin bəyanatda deyilir: “Bu, ermənilərin siyasi liderləri tərəfindən azərbaycanlılara qarşı soyqırımı aktıdır. Humanitar atəşkəs haqqında sənəd var. Lakin erməni silahlı qüvvələri elə ertəsi gün Gəncə şəhərinin əhalisi sıx olan rayonuna raket hücumu ediblər. Bu, müharibə cinayətidir. Bu, erməni tərəfin riyakarlığını bir daha nümayiş etdirir”.

## BBC Ermənistanın Gəncəni raket atəşinə tutması ilə bağlı reportaj yayımlayıb

BBC telekanalı Ermənistanın Gəncə şəhərini raket atəşinə tutması ilə bağlı reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin dağıntılar içində olduğu bildirilir. Bu görüntülərin Ermənistan tərəfindən atılan ballistik raketin qalıqları olduğu qeyd edilir. Vurğulanır ki, Azərbaycan Ermənistanı müharibə cinayəti törətməkdə ittiham edir.

Reportajda deyilir: “Aydın görünür ki, insanların məskunlaşdığı binaların, mənzillərin yerləşdiyi bu ərazi mülki hədəf olub. Dağıntılar arasında ətrafa səpələnmiş yataq dəstləri, döşəklər, örtüklər var. Hücum gecə saat 2 radələrində baş verib. Atəşkəs rejimi tətbiq olunmalı idi. Ancaq bu, daha çox total müharibəyə oxşayır”.

Bəs sonra nə olacaq? Müxbir bu sualla Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə müraciət edib. Hikmət Hacıyev bildirib ki, indiki mərhələdə biz atəşkəs mərhələsinə əməl etməyə çalışırıq. Ancaq əlbəttə ki, ermənilər bizim mülki vətəndaşlarımıza qarşı hücumları davam etdirsələr, hər bir ölkənin olduğu kimi, bizim də özümüzü müdafiə hüququmuz var. Əgər Ermənistan Azərbaycanın mülki obyektlərinə hücumu davam etdirsə, o zaman Azərbaycan legitim hərbi hədəflərə qarşı lazımi tədbirləri görmək məcburiyyətində qalacaq.

# Humanitar atəşkəsin antihumanist qatilləri

## Xarici diplomatlar Gəncədə erməni vəhşiliyini öz gözləri ilə görüblər

Oktyabrın 12-də Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Gəncəyə səfər ediblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, diplomatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və başqaları müşayiət ediblər.

Səfərin məqsədi diplomatları erməni vəhşiliyi - Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış etmək idi.

Ermənistanın hərbi cinayətləri ilə tanış olan diplomatlara məlumat verilib ki, işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir. Belə müharibə cinayətlərindən biri oktyabrın 11-də gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncədə yaşanıb. Düşmənin məqsədli şəkildə şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını ağır artilleriyadan atəşə tutması nəticəsində 5-i qadın olmaqla, 10 nəfər həlak olub. Həmçinin 16-sı qadın, 6-sı azyaşlı olmaqla, 34 nəfər yaralanıb. Ondan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.



Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə “Toçka-U”, “Smerç”, “Skad” və digər raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda insanın qətlə yetirilməsi məqsədi daşıyır. Təmas xəttindən uzaqda yerləşən Gəncə Ermənistanın Vardenis rayonundan atəşə tutulub. Eyni zamanda Azərbaycanın sənaye şəhəri olan Mingəçevir şəhəri, o cümlədən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan “Azərbaycan” İstilik Elektrik Stansiyası, həmçinin “Mingəçevir” Su Elektrik Stansiyası Ermənistan tərəfindən raket atəşinə məruz qalır.

Oktyabrın 12-nə olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində, ümumilikdə, 41 mülki şəxs qətlə yetirilib, 207 nəfər isə yaralanıb. Yararsız vəziyyətə düşmüş mülki obyektlərin sayı 148, çoxmənzilli yaşayış binalarının sayı 57, yaşayış evlərinin sayı isə 1185-dir.

Diqqətə çatdırılıb ki, Ermənistanın bu əməlləri Moskvada əldə olunmuş humanitar atəşkəs razılaşmasına ziddir. Azərbaycan humanitar atəşkəs rejiminə əməl etsə də, Ermənistan mülki əhaliyə qarşı vandalizm aktı törətdi. Beynəlxalq təşkilatlar hərbi cinayətlər törədən, dinc əhalini hədəfə alan Ermənistana siyasi təzyiq göstərməlidir. Əgər Ermənistan bu əməllərini davam etdirəcəksə, Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq cavab tədbirləri görəcək.

Xarici diplomatlar erməni faşizminin izləri ilə tanış olub, həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, tamamilə dağılmış yaşayış binasının ətrafına gül düzüblər.

---

## *Hikmət HACIYEV:* “Ermənistanın Gəncəni ağır artilleriyadan atəşə tutmasını vandallıq və barbarlıq kimi qiymətləndiririk”



“Skad” raketi ortamənzilli ballistik raketdir və nüvə başlıqlarını da daşıya bilmək iqtidarındadır. Ümumiyyətlə, son dövrlərdə dünyadakı hərbi əməliyyatlara baxsaq görərik ki, 500 mindən artıq sakini olan şəhərə qarşı ballistik və böyük dağıdıcı gücə malik raketin atılması çox nadir hallardan biridir.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Gəncədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

“Belə böyük dağıdıcı gücə malik raketi atan Ermənistanın siyasi-hərbi rəhbərliyi bunun necə təsir doğuracağını çox gözəl bilir. Bunu niyyətli şəkildə etmək onların əsl mahiyyətini göstərir. Gördüyünüz kimi, bu ərazidə hər hansı bir hərbi obyekt, hər hansı bir hərbi zərurət də yoxdur. Bu, onu göstərir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi üçün hər hansı mənəvi, etik qaydalar, dünya sivilizasiyasına xas olan baryerlər yoxdur. Biz bunu vandallıq və barbarlıq kimi qiymətləndiririk”, - deyə Azərbaycan Prezidentinin köməkçisi əlavə edib.

---

## *Braziliya səfiri:* “Təəssüf ki, atəşkəsə riayət olunmadı”



Həlak olanların ailələrinə başsağlığımızı çatdırırıq. Biz bu yaxınlarda da bildirdiyimiz kimi, müharibə ən tez zamanda sülh və danışıqlar prosesi ilə əvəz edilməlidir.

Təəssüflə bildirmək istəyirik ki, bu, getdikcə daha da çətinləşir.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu oktyabrın 12-də Gəncədə jurnalistlərə açıqlamasında Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz bildirib.

“Braziliya hökuməti olaraq biz sülh danışıqlarını yeganə çıxış yolu kimi görürük. Təəssüf ki, atəşkəsə riayət olunmadı. Lakin biz nikbinik və düşünürük ki, atəşkəs razılaşması qüvvədə qalacaq. Biz Moskva danışıqlarını sülhə doğru atılan ilk addım kimi müsbət qiymətləndiririk”, - deyə səfir vurğulayıb.

Qeyd edək ki, Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri oktyabrın 12-də Gəncə və Mingəçevir şəhərlərinə səfər ediblər. Səfərin məqsədi onları Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

---

## *İsveçrə səfiri:* “Gəncədə nələrin baş verdiyini görmək mənim üçün çox önəmli idi”



Bütün zərərçəkənlərin ailələrinə səmimi başsağlığımı çatdırıram. Mənim üçün Gəncəyə gəlmək və burada nələrin baş verdiyini görmək çox önəmli idi.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu oktyabrın 12-də Gəncədə jurnalistlərə açıqlamasında İsveçrə Konfederasiyasının ölkəmizdəki səfiri xanım Muriel Peneveyre bildirib.

O, qeyd edib ki, münaqişə ilə bağlı İsveçrə artıq sentyabrın 28-də öz mövqeyini ifadə edib: “İsveçrə bütün tərəfləri dərhal güc tətbiq etməkdən yayınmağa və beynəlxalq hüquq, xüsusilə də beynəlxalq humanitar hüquq qarşısındakı öhdəliklərini yerinə yetirməyə çağırır. Bu, o deməkdir ki, mülki əhalini qorumalıyıq”.

Qeyd edək ki, Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri oktyabrın 12-də Gəncə və Mingəçevir şəhərlərinə səfər ediblər. Səfərin məqsədi onları Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

---

## *Azərbaycanın Baş prokuroru:* “Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə Gəncənin raket atəşinə tutulması ilə əlaqədar cinayət işi başlanıb”



Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə oktyabrın 11-də gecə saat 2 radələrində xalqımıza qarşı növbəti qanlı terror aktı törədilib, Azərbaycanın cəbhə zonasından xeyli məsafədə yerləşən ikinci böyük şəhəri, 500 mindən çox əhalisi olan qədim Gəncə şəhəri düşmən tərəfindən raket atəşinə məruz qalıb. Nəticədə ilkin məlumata görə, 5-i qadın olmaqla 10 mülki şəxs həlak olub, 30-dan çox şəxs yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib. Hazırda mütəxəssislər tərəfindən dəqiqləşdirmələr aparılır.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev oktyabrın 11-də Gəncə Şəhər Prokurorluğunun inzibati binasında yerli və xarici media nümayəndələri üçün təşkil olunan mətbuat konfransında deyib.

“Bununla əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Hazırda hadisə yerində fəal istintaq-əməliyyat tədbirləri həyata keçirilir. Ermənistanın hərbi-siyasi rəhbərliyinin insanlıq və bəşəriyyət əleyhinə törətdiyi bu dəhşətli cinayət tədbirinə görə onların məsuliyyətə cəlb olunmaları üçün tərəfimizdən bütün zəruri beynəlxalq və daxili hüquqi vasitələrdən istifadə ediləcək”, - deyə Baş prokuror Kamran Əliyev bildirib.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 11-də gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16 qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

---

## Ermənistanın Gəncədə çoxmənzilli binanı raket atəşinə tutması işğalçı ölkənin dövlət səviyyəsində terror siyasəti yürütməsinin əyani təsdiqidir

İşğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binasını gecə saatlarında raket atəşinə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16 qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Hazırda dağıntılar altında qalan mülki şəxslərin xilas edilməsi işləri davam etdirilir.

Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılığından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarlığın və Ermənistanın hərbi-siyasi rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının növbəti bariz göstəricisidir. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli atəşə tutması işğalçı ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquqa və Cenevrə konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir. Ermənistanın dinc əhalini, çoxmənzilli yaşayış binalarını və mülki obyektləri ağır artilleriya və raket atəşinə tutması işğalçı ölkənin dövlət səviyyəsində terror siyasəti yürütməsinin əyani təsdiqidir.

Bununla belə, düşmən törətdiyi cinayətləri həyasızcasına xarici kütləvi informasiya vasitələrində, o cümlədən sosial şəbəkələrdə pərdələməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərləri tirajlamaqla qanunsuz əməllərini təkzib etməyə cəhdlər göstərir.

Ancaq düşmənin həmişəki kimi, öz çirkin əməllərini, terror cinayətlərini pərdələməyə çalışması cəhdləri bir fayda verməyəcək. Hadisə yerindən yerli və xarici media nümayəndələrinin yaydığı foto və video görüntülər ermənilərin növbəti yalanlarını ifşa etməkdədir.

---

## Ermənistan enerji infrastrukturunu hədəf alır - diplomatik korpusun rəhbərləri Mingəçevirdə

Oktyabrın 12-də Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Gəncəyə səfərdən sonra Mingəçevir şəhərinə gəliblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, diplomatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və başqaları müşayiət ediblər.

Səfərin məqsədi xarici diplomatları erməni vəhşiliyi - Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etmək olub.



Ermənistanın hərbi cinayətləri ilə tanış olan diplomatlara məlumat verilib ki, işğalçı ölkənin silahlı qüvvələri oktyabrın 10-u saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini və strateji obyektləri ağır artilleriyadan atəşə tutub. Belə ki, düşmən oktyabrın 11-də Gəncə ilə yanaşı, gecə saat 4 radələrində cəbhə zonasından 100 kilometrdən çox uzaqda yerləşən və 100 mindən artıq əhalisi olan Mingəçevir şəhərini də hədəf alıb, mülki əhalinin sıx yaşadığı məntəqələr raket zərbələri ilə atəşə tutulub. Ermənistanın siyasi-hərbi rəhbərliyinin əsl məqsədi dinc sakinlərlə yanaşı, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan “Azərbaycan” İstilik Elektrik Stansiyasını, həmçinin “Mingəçevir” Su Elektrik Stansiyasını atəşə tutmaq olub. Raketlərin ordumuzun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilməsi nəticəsində baş verə biləcək regional fəlakətin qarşısı alınıb. Ümumiyyətlə, sentyabrın 27-dən bəri düşmən tərəfindən Mingəçevir şəhərinə atılan raketlərin bir neçəsi yaşayış yerlərinə düşüb. Nəticədə dinc sakinlər yaralanıb, eyni zamanda evlərə külli miqdarda ziyan dəyib.

Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılaşmasına məhəl qoymayaraq Mingəçevirdə elektrik stansiyalarını hədəfə alan hücumları regionda enerji və ekoloji təhlükəsizliyinə qarşı yönəlmiş növbəti cinayət hadisədir.

Qeyd edək ki, oktyabrın 12-nə olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində, ümumilikdə, 41 mülki şəxs qətlə yetirilib, 207 nəfər isə yaralanıb. Yararsız vəziyyətə düşmüş mülki obyektlərin sayı 148, çoxmənzilli yaşayış binalarının sayı 57, yaşayış evlərinin sayı isə 1185-dir.

---

## Gəncənin raket atəşinə tutulması nəticəsində xəsarət alan şəxslərdən biri xəstəxanada vəfat edib

Xəbər verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin oktyabrın 11-də gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 34 nəfər yaralanıb. Bundan başqa, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yaralı şəxslərdən biri - 1992-ci il təvəllüdlü Əliyeva Günay Zahid qızı oktyabrın 12-də müalicə olunduğu xəstəxanada vəfat edib.

Hazırda digər yaralı şəxslərin stasionar şəkildə müalicələri davam etdirilir.

# Müdafiə Nazirliyi xəbər verir

## Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi riayət edir

Ermənistan tərəfinin, guya, Azərbaycan Ordusunun Hadruta daxil olmaq məqsədilə bu istiqamətdə xeyli sayda qüvvə cəmləşdirməsi və gərgin döyüşlərin getməsi barədə yaydığı məlumat açıq-aydın dezinformasiyadır. Xatırladırıq ki, Hadrut artıq bir neçə gün bundan əvvəl Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunub.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirliyin məlumatında qeyd olunub ki, Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi riayət edir və heç bir aktiv döyüş fəaliyyəti həyata keçirmir.

## Düşmənin 3 pilotsuz uçuş aparatı məhv edilib

Oktyabrın 12-nə keçən gecə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin 2 pilotsuz uçuş aparatı (PUA) vurulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 12-də saat 10:00 radələrində isə Ağdam rayonu istiqamətində düşmənin daha bir PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.



## *Vaqif DƏRGAHLI:* "Azərbaycanın növbəti Su-25 hücum təyyarəsinin "vurulması" ilə bağlı məlumat Ermənistanın növbəti ağ yalanıdır"

Ermənistan müdafiə nazirliyinin Azərbaycanın növbəti Su-25 hücum təyyarəsinin "vurulması" ilə bağlı məlumatı çarəsizlikdən irəli gələn ağ yalandır.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

M.Dərgahlı bildirib ki, Azərbaycanın döyüş aviasiyası tətbiq olunmur və biz humanitar atəşkəsin tələblərinə tam əməl edirik.

## Ermənistanın "vurduğu" Azərbaycan PUA-sı "kukuruznik" çıxdı

Dünən Ermənistan tərəfi növbəti dəfə Azərbaycan Ordusunun pilotsuz uçuş aparatını (PUA) vurduğunu elan etdi və bunu təsdiq etmək üçün, guya, həmin PUA-nın videokadrlarını yaydı. Lakin bu videonun yavaşıdılmış kadrlarına ötəri baxış etməklə havadan düşən və parlaq alovla yanan "PUA-nın" "An-2" yüngül çoxməqsədli təyyarə olduğunu dəqiq görmək olar.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib: "Sual olunur, Azərbaycan Ordusunun sərəncamında ən müasir silah növləri və ən yeni hərbi texnika olduğu halda kənd təsərrüfatı üçün nəzərdə tutulmuş "kukuruznik" ordumuzun nəyinə gərəkdir? Cavab sadədir. Bu üsulla erməni təşviqatı qrafika və animasiyadan istifadə etməklə öz ictimaiyyətini aldatmaq, eləcə də erməni əsgərinin fiziki cəhətdən qırılmış əhval-ruhiyyəsini və mənəvi durumunu yüksəltmək üçün uğursuz cəhdlər göstərir. Bir sözlə, bütün PUA-larımız sağ-salamat və döyüş sırasındadır".

## Döyüşlərdə iştirak edən qoşunlar üçün səyyar təminat məntəqələri yaradılıb

Azərbaycan Ordusunun döyüş əməliyyatlarında iştirak edən şəxsi heyətinin təminat və təchizat məsələləri diqqət mərkəzində saxlanılır və dərhal həll olunması ilə bağlı tədbirlər görülür.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunların hərbi texnika, silah-sursat, yanacaq-sürtgü materialları, ərzaq və əmlakla təmin edilməsi müvafiq idarə və xidmətlər tərəfindən sutka ərzində fasiləsiz həyata keçirilir. Bu məqsədlə döyüşlər gedən ərazilərə yaxın yerlərdə səyyar təminat və məişət xidməti məntəqələri yaradılıb.





## Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad edilmiş Süleymanlı kəndinin videogörüntülərini paylaşıb




Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad edilmiş Süleymanlı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

## "Bild": Atəşkəsin ilk günü qanlı qırğına çevrildi




"Atəşkəsin ilk günü qanlı qırğına çevrildi".

AZƏRTAC xəbər verir ki, Almaniyanın nüfuzlu "Bild" nəşrində bu gün dərc edilən bir materialın sərlövhəsi belədir (bax: **https://www.bild.de/politik/ausland/politik-ausland/hunderte-tote-und-verletzte-erster-tag-der-waffenruhe-wird-zum-massaker-73358678.bild.html**).

Müəllifi jurnalist Pol Rontshaymer olan bu materialda oktyabrın 10-dan 11-nə keçən gecə dinc Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmasından danışılır, hücumdan zərər çəkən uşaqların, qadınların, dağıdılmış binaların fotoşəkilləri təqdim edilir. Hücum nəticəsində həlak olanların və yaralananların ümumi sayı təqribən 40 nəfər olub.

Müəllif yazır ki, atəşkəsə olan ümidlər özünü doğrultmadı. Erməni ordusunun hücumu, görünür, əvvəlcədən planlaşdırılmışdı.

Jurnalist xüsusilə qeyd edir ki, gecəni keçirdiyi Xankəndidə sakitlik idi. "Lakin əhalisinin sayına görə (330 min) Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə ziyan çəkdi. Təqribən gecə saat 2 radələrində şəhərin şimal-şərqində güclü partlayış oldu. Şahidlərin dediyinə görə, partlayışdan sonra səmada nəhəng iz qalıb. Səhər fəlakətin miqyası araşdırılıb. Əvvəllər bir neçə binanın olduğu yerdə nəhəng çuxur əmələ gəlmişdi. Partlayış nəticəsində azı 9 dinc sakin həlak olub, 33 nəfər, o cümlədən xeyli uşaq yaralanıb", - deyə Rontshaymer yazır.

Raket texnologiyaları üzrə almaniyalı ekspert Fabian Hints raketin düşdüyü yerin təsvirini "Bild" üçün təhlil edib. O deyib: "Bu, ballistik raket idi. Gəncə erməni reaktiv artilleriyasının vura biləcəyi hüdudda yerləşir. Ziyan o dərəcədə böyükdür ki, bu, yəqin, iriçaplı raket olub".

Müəllif yazır ki, F.Hints raketin Ermənistan cəbhə xəttinin azı 60 kilometrliyində yerləşən ərazisindən buraxılmasına əmindir. "Ballistik raketlər olduqca böyük dağıdıcı təsirə malikdir. Bu raketlərdən həqiqətən əhalinin sıx yaşadığı ərazilərə qarşı istifadə etmək mümkündür", - deyə Rontshaymer Hintsin fikrindən sitat gətirir.

## Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Ağdam rayonunda fərdi evdə yanğın baş verib



Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edib.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan ordusunun atdığı mərmi Ağdam rayonunda vətəndaşa məxsus fərdi evdə yanğına səbəb olub. FHN-in əraziyə cəlb olunmuş Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən yanğın söndürülüb və yaxınlıqdakı tikililərə keçməsinin qarşısı alınıb. FHN hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "Qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.



## Silahlı Qüvvələrə Yardım Fondunda əlavə hesablar açılıb

Azərbaycan Ordusuna maliyyə dəstəyinin göstərilməsi ilə bağlı xaricdə yaşayan həmvətənlərimiz tərəfindən Müdafiə Nazirliyinə daxil olan çoxsaylı müraciətlər nəzərə alınaraq Silahlı Qüvvələrə Yardım Fondunun Azərbaycan Beynəlxalq Bankında mövcud bank hesablarına Türkiyə lirəsi və Böyük Britaniya funt sterlinqi hesabları da əlavə olunub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Azərbaycan və Rusiyanın Baş prokurorları arasında telefon danışığı olub

Oktyabrın 12-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov arasında telefon danışığı olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər iki ölkə arasında hüquqi əlaqələrin səviyyəsindən məmnunluq ifadə edərək cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya sahəsində əməkdaşlığı yüksək qiymətləndiriblər.

Baş prokuror Kamran Əliyev oktyabrın 11-də gecə saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan, döyüş bölgəsinə aidiyyəti olmayan və xeyli uzaqda yerləşən Gəncəyə və onun dinc sakinlərinə qarşı törədilən terror aktı barədə rusiyalı həmkarını məlumatlandırıb.

İqor Krasnov yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, münaqişənin qısa zamanda beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyini vurğulayaraq xalqımıza sülh və əmin-amanlıq arzulayıb.

Baş prokurorlar gələcək əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayaraq bu haqda fikir mübadiləsi aparıblar.

## Ermənistanın atəşkəsi pozması nəticəsində mülki şəxs həlak olub

Ermənistanın hərbi-siyasi rəhbərliyi oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən məlumat verilib.

Qeyd olunub ki, bu gün saat 19 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonunun Çəmənli və Zəngişalı kəndləri ağır artilleriyadan intensiv atəşə tutulmuş, top mərmisinin partlaması nəticəsində 1974-cü il təvəllüdlü Çəmənli kənd sakini Hüseynov Gündüz Taryel oğlu həlak olub. Fakt üzrə Ağdam rayon prokurorluğunda Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1 (cinayətkar birlik - təşkilat tərəfindən qəsdən adam öldürmə) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

Nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

## Tərtər rayonunun Kəngərli kəndində top mərmilərinin partlaması nəticəsində bir nəfər xəsarət alıb

Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 12-də səhər saatlarından başlayaraq Ermənistan silahlı birləşmələri tərəfindən Tərtər, Ağdam və Goranboy rayonları müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub.

Tərtər rayonunun Kəngərli kəndində top mərmilərinin partlaması nəticəsində 1970-ci il təvəllüdlü Bəylərov Firudin Kamal oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

Bu barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

## Düşmənin atəşi nəticəsində Tərtərdə məcburi köçkünlər üçün salınan yaşayış kompleksinə böyük ziyan dəyib

Ön xəttə Azərbaycan Ordusunun həmlələri qarşısında tab gətirməyən düşmən cəbhəboyu ərazilərdəki yaşayış məntəqələrini, mülki insanların evlərini xaincəsinə artilleriya atəşinə tutur.

Cəbhə bölgəsində yerləşən digər rayonlarda olduğu kimi, Tərtər rayonunda da yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində mülki şəxslərdən ölən və yaralananar olub, evlərə, infrastruktura ciddi ziyan dəyib.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, ilkin məlumata görə, Tərtər şəhərində və rayonun kəndlərində sakinlərə məxsus 91 ev dağılıb, 411 evə, 51 çoxmənzilli yaşayış binasına, 18 sosial, 7 istehsal, 27 ticarət obyektinə, 14 inzibati binaya ziyan dəyib. Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün salınan yaşayış kompleksinə də düşmənin artilleriya atəşi nəticəsində böyük ziyan vurulub. Yaşayış kompleksində olan 34 yaşayış binasından 29-u, eləcə də uşaq bağçası, inzibati bina, klub, icma mərkəzi, qazanxana, həkim məntəqəsi, musiqi məktəbi, orta məktəb yararsız hala düşüb. Ermənistan yaşayış məntəqələrini atəşə tutmaqla müharibə cinayəti törədir, mülki insanlara qarşı terror vasitələrindən istifadə etdiyini və beynəlxalq humanitar hüququ kobudcasına pozduğunu nümayiş etdirir.







## *ANAMA-nın direktoru:* "Ermənistan Gəncəni "Elbrus" raketi ilə vurub"

Gəncəyə atılan raketin bir hissəsinin qalıqları Mingəçevirdə dağlıq əraziyə düşüb. Bu gün həmin raketin ən son qalıqları tapılıb.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Gəncədə jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) direktoru Qəzənfər Əhmədov deyib.

"Raketin qalıqlarının üzərində 8K-14 yazılıb. Bu, bizə dəqiq deməyə imkan verir ki, Gəncəyə atılan "Elbrus" raketi olub. Onun uzunluğu 11,2 metrdir. Dinc sakinlərə qarşı belə raketdən istifadə etmək hərbi cinayət olmaqla bərabər, vandalizm aktıdır", - deyə o, qeyd edib.

# Humanitar atəşkəsi pozan erməni faşistləri Gəncədə mülki əhalini qətlə yetirdilər





## Paşinyanın əlləri yenə də gəncəlilərin qanına batdı

*Şəhər sakinləri erməni işğalçılarının bu terror hərəkətinin cəzalandırılacağına əmindirlər*









Xəbər verildiyi kimi, Ermənistan silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın ikinci böyük şəhəri Gəncəni ağır raketdən atəşə tutmuşdur. Nəticədə 4-ü qadın olmaqla 10 nəfər həlak olmuş, 16 qadın və 6 azyaşlı uşaq olmaqla 34 nəfər yaralanmışdır. Atəş nəticəsində 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəymişdir.

Bu barbarlığın bütün dünyanın gözü qarşısında baş verməsinə baxmayaraq, Ermənistan xarici KİV-də, eləcə də sosial şəbəkələrdə törətdiyi cinayəti pərdələməyə, əməllərindən boyun qaçırmağa cəhdlər göstərir. Lakin hadisə yerindən yerli və xarici medianın yaydığı foto və videogörüntülər bu yalanları birmənalı şəkildə ifşa edir. Həmçinin hadisə baş verən gün Baş Prokurorluq tərəfindən zərərçəkmiş şəxslərin və ziyan dəymiş obyektlərin siyahısının dəqiqləşdirilməsi işləri aparılmaqla istintaq əməliyyat tədbirləri həyata keçirilir.

Gəncəlilər erməni barbarlarının bu cinayət əməllərini birmənalı qarşılamır, baş vermiş hadisəni düşmənin növbəti terror əməli kimi qiymətləndirirlər. Onlar ermənilərin törətdikləri sonuncu cinayəti də suda boğulanın saman çöpündən yapışması kimi dəyərləndirirlər. Odur ki, erməni işğalçılarının Gəncəni raket atəşinə tutması sakinlər arasında ruh düşkünlüyü yaratmamışdır. Törədilən terror aktının itkisiz ötüşməməsinə baxmayaraq, şəhər sakinləri mətinlik nümayiş etdirirlər.

Raketin düşdüyü ərazidə yaşayan İbrahim Novruzov deyir ki, belə ağır silahdan atəşə tutulacağımızı təsəvvür etməzdik: "Ən azından cəmi bir neçə saat idi ki, humanitar atəşkəs haqqında müqavilə imzalanmışdı. Odur ki, təhlükəsiz yerlərdən çıxıb öz evimizdə gecələməyi qərara almışdıq. Erməni hiyləgərliyi bu dəfə də özünü büruzə verdi. Ermənistanın baş naziri Paşinyan mülki əhalini raket atəşinə tutmaqla növbəti dəfə əllərini gəncəlilərin qanına batırdı".

Azərbaycan üzərinə götürdüyü bütün siyasi, hüquqi öhdəliklərə dəqiqliklə əməl edən bir dövlətdir. Ermənistan isə növbəti dəfə beynəlxalq hüquq və normalara arxa çevirdi və öz vəhşi, barbar hərəkəti ilə sübut etdi ki, o, məkrli niyyətindən, işğalçı siyasətindən əl çəkməyib. Amma bu vaxt unudub ki, Azərbaycan Ordusunun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti sayəsində xalqımızda yaranan qələbə əzmini məhv etmək mümkün deyil. Əksinə, düşmənin belə vəhşiliyi onlara qarşı nifrəti artırır və bununla həm də zəfər gününü yaxınlaşdırır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Erməni faşizminin növbəti rəzaləti

"Daşın altında qaldım. Qorxdum. Bu, heç vaxt yadımdan çıxmayacaq..."
Heç 5 yaşı tamam olmayıb bu uşağın. Körpə ağlıyla nə baş verdiyini tam anlaya, dərk edə bilmir hələ...







İndi onun ömrünün ən qayğısız, ən məsum çağıdır. Gün boyu doyunca oynayıb, gecələr dünyadan xəbərsiz, mışıl-mışıl yatan, rəngli yuxular görən yaşıdır. Amma ötən gecə şirin yuxusu qorxulu kabusa çevrildi. Gördükləri, yaşadıqları yuxumuydu, yoxsa gerçəkmi bilmədi...

Eşitdiyi partlayış səsi dostlarıyla oynadığı müharibə oyununda yamsıladıqları atəş səslərindən çox-çox güclü və vahiməliydi...

Qumdan, palçıqdan, kartonlardan, oyuncaqlardan düzəltdikləri evciklərdən fərqli olaraq, bu dəfə öz evləri dağılıb uçurdulmuşdu. Özü də qalmışdı dağıntılar arasında...

Və bu "oyun" sevdiyi gizlənqaç oyununa heç də bənzəmirdi. Gizlənqaç oynayanda bacardığı qədər yaxşı yerdə gizlənib tapılmasını istəmirdi. İndi isə ən böyük arzusu "gizləndiyi", qaldığı dağıntılar arasından tapılıb xilas edilməsiydi...

Artıq o, özünün də dediyi kimi, heç vaxt unutmayacağı travma yaşadı...

Artıq o, uşaqlıq yuxusundan ayılıb həyatın gerçək üzünü gördü...

Artıq o, birdən-birə böyüyüb müharibənin uşaq oyunu deyil, ermənilərin ən qəddar oyunu olduğunu yaşından qabaq anlamağa məcbur qaldı...

Və təəssüf ki, bu acı reallığı körpə yaşında erməni faşistlərinin raketlə evlərini dağıtması nəticəsində başa düşməli oldu...

Ömər Nəsirov ermənilərin Gəncəyə atdıqları raket atəşi zamanı yaralanan 6 azyaşlı uşaqdan biridir. Dağıntılar arasından xilas edilib... Yaralanıb... Qorxub... Amma gözlərindəki işıq, ümid, toppuş, şirin üzündəki təbəssüm sönməyib...

Yaraları qanasa da, incitsə də, möhkəm durub, ağrılarına gülümsəyərək sinə gərib...

O uşağın üzündəki məğrur ifadə əslində bütün xalqın ifadəsi, düşüncə tərzidir. O məsum təbəssüm zəfərimizin müjdəsi, sevincidir, haqq savaşımızın nişanəsidir. O gözlərdəki ümid qığılcığımı xalqın Qarabağı düşmən tapdağından azad edəcəyinə olan inam, istək, qətiyyətdir.

Hətta bu körpə belə, aldığı yaraya rəğmən acının, ölümün gözünə dik, vüqarlı, gülərək baxa bilirsə, bütün xalqın nə edə biləcəyi dilə gəlməz. Ermənilər bu illər ərzində hələ də başa düşə bilməyiblər ki, fiziki və ya mənəvi cəhətdən yaraladıqları, doğma ev-eşiklərindən didərgin saldıqları uşaqlar böyüyüb o ağrının cavabını alacaqlar. İndi aldıqları kimi...

❖ ❖ ❖

Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə oktyabrın 11-də gecə saat 2 radələrində xalqımıza qarşı növbəti qanlı terror aktı törədildi. Azərbaycanın cəbhə zonasından xeyli məsafədə yerləşən ikinci böyük şəhəri, 500 mindən çox əhalisi olan qədim Gəncə şəhəri düşmən tərəfindən raket atəşinə məruz qaldı. Nəticədə 4-ü qadın olmaqla 10 nəfər həlak oldu, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralandı. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəydi.

Ümumilikdə, sentyabrın 27-dən oktyabrın 12-dək Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 3-ü uşaq olmaqla 41 nəfər həlak oldu, 207 nəfər isə xəsarət aldı. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1185 yaşayış evi, 57 çoxmənzilli yaşayış binası və 148 mülki obyekt yararsız vəziyyətə düşdü.

Çox uzağa yox, elə 1990-cı illərə boylanmaq ermənilərin xislətini göstərmək üçün kifayətdir. Birinci Qarabağ müharibəsi zamanı erməni faşistlərinin törətdikləri vəhşiliklər, qəddarlığına görə dünyada misli görünməyən Xocalı soyqırımı o millətin çirkin sifətini, xain xislətini göstərir. Cəngavər əsgərlərimizə gücü çatmayan miskin ermənilər uşaq, qadın, qoca bilmədən mülki əhalini hədəf alır, xüsusi amansızlıq, qəddarlıqla qətlə yetirirlər. Üstəlik, bunu inkar da etmirlər, fəxrlə danışırlar.

Qarabağ hadisələrinin iştirakçışı, yazıçı Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında 1992-ci ilin 26 fevralında Xocalıda törətdikləri soyqırımı haqqında yazır: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar... Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".

Qarabağda vuruşmağa gəlmiş Livan ermənisi Davud Xeyriyanın Xocalı qırğınından bəhs edən "Xaç naminə" kitabında isə bu qeydlər yer alıb: "Bir şaxtalı qış günündə erməni işğalında olan ərazidəki Daşbulaq yaxınlığından bir kilometrlik bataqlığı keçmək üçün meyitlərdən körpü salmalı olduq. Mənim ölülərin üstündən keçib getmək istəmədiyimi görən polkovnik Ohanyan mənə işarə etdi ki, qorxmaq lazım deyil. Guya ki, bu, müharibə qanunlarından biridir. Mən qana bulaşmış 9-11 yaşlı qız uşağının meyitinin və başqa meyitlərin üstündən keçib getdim. Çəkmələrim, şalvarım qana bulaşmışdı".

Xeyriyan daha sonra yazır: "Martın 2-də ermənilərin meyitləri yığıb yandırmaq tapşırıqlarını yerinə yetirən Qaflan qrupu Xocalının qərbindən bir kilometr aralıda cəsəd qalaqlarına od vurub yandırırdılar. Cəsədləri daşıyan avtomobillərdən birinin banında təqribən 10 yaşlı bir qız uşağı gördüm. O, boynundan və qollarından yara almışdı. Əyilib diqqətlə baxanda gördüm ki, qız ağır-ağır nəfəs alır. Güclü şaxtaya, aclığa baxmayaraq, o, hələ sağ idi. Mən ölümlə mübarizə aparan bu körpə qızın gözlərinin ifadəsini heç bir vaxt unutmayacağam. Bir qədər sonra Tiqran adlı bir əsgər qızın saçından tutub onu alovlanmaqda olan meyit tonqalına atdı. Ölməyən adamlar insanları köməyə çağırırdılar. Ətrafda ancaq vəhşiləşmiş ermənilər dayanmışdı və törətdikləri cinayət əməlindən qürur hissləri keçirirdilər. Onlar öz işlərini "xaç naminə" görürdülər".

Bu yazılanlar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin, soyqırımların cüzi etirafıdır.

1988-ci ildə azərbaycanlılar Ermənistan SSR-dəki doğma yurdlarından zorla qovulan zaman 216 soydaşımız qətlə yetirilib ki, onların 23-ü uşaqdır. Həmin il dekabrın 5-də ermənilər Hamamlı şəhərində 17 azyaşlı uşağı iri diametrli boruya dolduraraq hər iki tərəfini qaynaq ediblər. Borunu hündür uçurumdan dərəyə ataraq körpələri qəddarlıqla qətlə yetiriblər. Bir ay öncə, noyabrda da Quqarkda (Qarakilsə-Pəmbək mahal) 70-ə yaxın 5-12 yaşarası uşağı boruya dolduraraq hər iki tərəfini bağlayıblar. Bu qətliamın üstü dekabrda baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər tərəfindən açılıb.

1989-cu ildə Kərkicahanda 9 yaşlı Nicat və 11 yaşlı Nadir ermənilər tərəfindən güllələnib.

Birinci Qarabağ müharibəsində 193 azərbaycanlı körpə erməni vandalları tərəfindən qətlə yetirilib. Kəlbəcərdə 8 uşaq vəhşicəsinə öldürülüb. Xocalıda öldürülən 613 nəfərdən 63-ü uşaq olub. 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirib. Onlarca uşaq o soyqırımından qaçarkən soyuq qış günlərində həyatından, sağlamlığından məhrum qalıb. Ümumilikdə 71 uşaq itkin düşüb, 29-u isə əsir götürülüb. Onminlərlə uşaq köçkün həyatı yaşamağa düçar edilib.

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, son dövrlərdə də 30-dan çox uşaq erməni terrorunun qurbanı olub. 2011-ci ildə Ermənistan hərbçiləri həyətdə oynayan 9 yaşlı Fariz Bədəlovu başından snayperlə vurublar, 13 yaşlı Aygün Şahmalıyevanı, 2017-ci ildə isə 2 yaşı tamam olmamış balaca Zəhranı qətlə yetiriblər.

Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində həlak olan bütöv bir ailənin iki üzvü məktəbli olub - 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova...

Təəssüf ki, erməni "oyununun" qurbanına çevrilən minlərlə azərbaycanlı uşağa qarşı bu zorakılıqları törədən terrorçular hələ də ədalət qarşısında cavab verməyiblər. Amma artıq zamanı yetişib. Azərbaycan haqq-ədalət savaşına qalxıb. Bu qisas qiyamətə qalmayacaq!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Gəncə terrorunda al-qana bulaşan azyaşlının təbəssümü

Dağıntılar altından çıxarılan Ömər Nəsirovun şəkli uşaq qatillərinə nifrət, dünyaya sülh mesajıdır: "Bu, mənim yadımdan çıxmayacaq"



Müharibə! Terror! Qəddarlıq!

Bugünün uşaqlarının, hətta, ağlı hələ çox şeyləri kəsməyən balaların görəsən günahı nədir ki, faşist xislətli erməni daşnakların saxta torpaq iddiası altında soyqırımına məruz qalırlar?!

Bu suala cavab verməyi bacarmayanlara balaca Ömərin şəkli çox şeylər deyir. O, bununla vəzifəsi sülh missiyası olan beynəlxalq təşkilatlara, erməni vandalizmini dolayısı ilə dəstəkləyənlərə xalqımızın böyükdən-kiçiyə humanist olduğunu bir daha göstərdi!

Moskvada sülh danışıqlarının getdiyi bir vaxtda Azərbaycanın qədim şəhəri, Nizami yurdu, cəbhə xəttindən tamamilə uzaqda yerləşən, dəfələrlə daşnakların ağır artilleriya qurğularından atəşə məruz qalan Gəncəyə yenidən raket zərbəsi endirməsi, onun dinc sakinlərini terrora məruz qoyulması da tarixə qanla yazıldı. Yalnız ona görə yox ki, orada qətlə yetirilənlərin hamısı azyaşlılar, qadınlar, qocalardır.

Ermənistan silahlı qüvvələrinin gecə saatlarında Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində dördü qadın olmaqla, doqquz nəfər həlak oldu. Dağıntıların altından bir neçə yaralı uşaq da çıxarıldı. Onlardan biri də şəkli sosial mediada qandonduran dərəcədə hiddət doğuran azyaşlı Ömər Nəsirovdur. O, öz xilaskarlarına dili tutar-tutmaz deyib: "...Bu, mənim yadımdan çıxmayacaq..."

Maraqlıdır: balaca Ömərin yaddaşına yazılan və yadından çıxmayan nədir?! Onun simasındakı təbəssümlə düşmənə nifrəti bir-birinə qarışıb, üz-gözünə bulaşan qanlı göz yaşları kimi! Bu baxışların arxasında ilk növbədə öz xalqına məxsus - qürur, əyilməzlik, düşməndən qorxmamaq... kimi mübarizlik boylanır!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir



## Müharibənin ilk 15 günündə İlham Əliyevin düşmənə verdiyi dərslər

Azərbaycan Prezidenti cənab İlham Əliyev son 15 gündə Azərbaycanın yeni hərb və yeni siyasət tarixini yazır və hələ yazacaq. Cənab Prezident son 17 ildə siyasi, iqtisadi, hərbi, milli ruhun möhkəmləndirilməsi, hərbi vətənpərvərliyin yüksək həddə çatdırılması sahələrində gördüyü işlərin bəhrəsini görməyə başladı və hələ uzun müddət görəcək.

27 il torpaqlarımızı işğal altında saxlayan, 27 il bu ərazilərdə müdafiə istehkamları quran ermənilərə elə "toy" tutdu ki, onlar bundan sonra tarix boyu bu "toyu" yaddan çıxarmayacaqlar. Türkiyə, Pakistan və bəzi ölkələrin mənəvi dəstəyini alan Prezidentimiz təkbaşına, yəni dünya bir tərəfdə, cənab İlham Əliyev isə digər tərəfdə öz prinsipiallığını, iradəsini, dövlətinə, xalqına, doğma torpağına bağlılığını bütün dünyaya nümayiş etdirdi.

Cənab İlham Əliyev prezidentlik fəaliyyəti dövründə nə vəd vermişdisə, hamısına vaxtında əməl edib. Sözünün sahibi olmaq bugünkü dünyada az-az dövlət rəhbərlərinə məxsusdur.

Qarabağ torpaqlarının işğal altında olması xalqımızın ən yaralı yeri idi. Kiçikdən-böyüyə qədər hamı bu torpaqların düşmən tapdağından azad olmasını gözləyirdi və bu arzu ilə yaşayırdı. Ölkə Prezidenti və Ali Baş Komandanın hər iş günü gərgin olur, ancaq son 15 günün gərginliyi yüksək həddə idi. Çünki hər iş günü 24 saat idi və xalqa verdiyi sözün icrasını təmin edirdi.

Vətən müharibəsinin gedişatına nəzarət etmək və həlledici qərarlar verməklə bərabər, hər gün dünyanın bir çox dövlət rəhbərlərinin zənglərinə vaxt ayırmaq və məşhur telekanallarına müsahibə verməklə bərabər, dünya ictimaiyyətini ölkəmizin bu müharibədə əks-hücum əməliyyatı keçirməkdə haqlı olması barədə də məlumatlandırırdı.

Qısa müddət ərzində 2 dəfə xalqa müraciət etdi. Cənab Prezident həmişə səbir və təmkin nümayiş etdirib, nəyi nə vaxt etmək lazımdır, yaxşı bilir. Onun xalqa müraciətlərini sakit dinləmək mümkün deyildi. *Müraciətlərdə çox məqamlar var: qətiyyət, cəsarət, prinsipiallıq, xalqa, torpağa bağlılıq, düşmənə təpgi və yerini göstərmək bacarığı, sevinc hissləri, siyasətdə dahilik, eyni zamanda, humanistlik.*

Əslində cənab Prezidentin o müraciətlərində düşmən ölkənin rəhbərinin ünvanına dediklərindən sonra Paşinyanda bir balaca qeyrət hissi olsaydı, ya özünü asmalı, ya da başına bir güllə vurmalı idi. Yalnız erməni xalqı özünə belə bir baş nazir seçə bilərdi.

Cənab Prezident hər gün gördüyü işlərlə, azad etdiyi torpaqlarla təkcə insanları və torpaqları həsrətdən qurtarmır, eyni zamanda, şəhidlərin də ruhlarını şad edir. Ulu Öndər Heydər Əliyevin də ruhunu hər gün şad edir, çünki Ulu Öndər də Vətən torpağı həsrəti, niskili ilə dünyasını dəyişdi.

Ataların yaxşı bir deyimi var: *"Dost və düşmən dar gündə sınanar"*. Son 15 gündə bizi istəyənlər də, istəməyənlər də aydın oldu.

Cənab Prezident həmişə çıxışlarında, xalqla, xarici ölkə rəhbərləri, beynəlxalq təşkilatlarla görüşlərində deyirdi: *"Torpaqları mütləq azad edəcəyik, ərazi bütövlüyümüzü mütləq bərpa edəcəyik, bayrağımız mütləq Şuşada dalğalanacaq"*. Ermənilər isə bu bəyanatlardan lazımi nəticə çıxarmadılar. İndi isə dünya erməni lobbiləri, dünya ermənilərinin Eçmiədzin kilsəsi, ermənilərin bəzi havadarları təsadüfi ünsür sayılan Paşinyanla birlikdə ciddi təxribatlar edərək yeni torpaqlar əldə etmək istədilər. Ancaq cənab Prezident, Ali Baş Komandan və Şanlı Ordumuz onlara elə dərs verdilər ki, bütün dünya erməniləri ömürlük bu dərsi yaddan çıxarmayacaqlar.

### Müharibənin ilk 15 günü ərzində nələri gördük, nələri bildik və nəyə əmin olduq

***1. Siyasətdə***

- Cənab Prezident İlham Əliyev öz qətiyyətini, cəsarətini, sözünün sahibi olduğunu, xalqa, Vətənə, torpağa bağlılığını, milliliyini, humanistliyini, siyasi dahiliyini və prinsipiallığını dünyaya nümayiş etdirdi;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün Ermənistana son şansı verdi və bununla sülhpərvərliyini göstərdi;
- Ermənistanı masa arxasında oturub danışıqlar aparmağa məcbur etdi;
- Paşinyan və ermənilərə "Qarabağ Ermənistandır" deməyi ömürlük unutdurdu və sübut etdi ki, Qarabağ Azərbaycandır!
- Türkiyə və Azərbaycan bayraqlarının hər yerdə birgə dalğalanması ilə ermənilərə gözdağı verdi, dünya ölkələrinə isə birlik, dostluq, qardaşlıq və həmrəyliyin yeni nümunəsini, modelini ortaya qoydu;
- Prezident, Ali Baş Komandan, xalq, ordu birliyini dünyaya nümayiş etdirdi;
- milli və vətəndaş həmrəyliyinə nail oldu;
- Qarabağ probleminin ümumxalq, ümummilli problemə çevrilməsini təmin etdi;
- millətimizin və xalqımızın nəyə qadir olduğunu isbata yetirdi və dünya xalqları arasında layiqli yerini göstərdi;

***2. Ali Baş Komandan, ordu, milli hərbi-vətənpərvərlik tərbiyəsi və beynəlxalq təşkilatlarla iş***

- Ordumuzun dünya orduları arasında layiqli yer tutması əməldə təsdiqini tapdı;
- Azərbaycan əsgəri 27 il işğal altında olan torpaqlarımızı azad etməyə başladı;
- əsgər və zabitlərimiz torpağa, Vətənə, dövlətə bağlılığını, yüksək bacarıq və vətənpərvərliyini nümayiş etdirdi;
- ordumuz erməni ordusu və əsgərlərinin yaddaşlarına Azərbaycan əsgərlərinin nəyə qadir olduğunu ömürlük həkk etdirdi;
- Ali Baş Komandan və ordumuz beynəlxalq təşkilatlara qəbul etdikləri, lakin icrası təmin olunmayan qərarların icra mexanizmini və ərazi bütövlüyünün bərpa olunması modelini göstərdi;
- ordumuz başqasının torpağında gözü olanlara nümunəvi dərs verdi;
- Ali Baş Komandan və ordumuz məcburi köçkünlərin 27 illik torpaq həsrətinə son qoydu və məcburi köçkünlərin Böyük Qayıdışının təməlini yaratdı;
- Ali Baş Komandan və ordumuz Çocuk Mərcanlıdan Şuşaya, gedən yolu xeyli yaxınlaşdırdı;
- Ali Baş Komandan və ordumuz işğal altında olan bütün torpaqlarımızın azad olunacağını reallaşdırdı;
- düşmən ordusunun qiyməti 1,2 milyard dollardan çox olan hərbi texnikası, silah-sursatı məhv edildi, bir qismi də qənimət kimi götürüldü;
- Prezident, Ali Baş Komandan təmas xəttini və status-kvonu ləğv etdi;
- Ali Baş Komandan və ordumuz ermənilərin 30 il ərzində qurduqları istehkamları məhv etdi;
- Minsk qrupunun 27 illik nəticəsiz fəaliyyəti və hazırladığı təkliflər Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə kağız üzərində qaldı.

***3. Milli həmrəylik, vətəndaşlıq və torpaq uğrunda şəhidlik***

- Bütün siyasi partiyalar milli həmrəylik göstərərək Vətən müharibəsində Prezidentin yanında olduqlarını nümayiş etdirdilər;
- mülki əhali ermənilərin atəşi qarşısında yaşayış yerlərini tərk etmədilər, Ali Baş Komandana, orduya arxalanaraq mərdlik və torpağa bağlılıq nümayiş etdirdilər;
- xalq öz Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya qeyri-adi dərəcədə sevgi, inam və sadiqlik nümayiş etdirdi. Bu, xalqımız tərəfindən onlara hər gün ünvanlanan yüzlərlə müraciətlərdə açıq-aydın görünür;
- şəhidlərimiz öz canlarını torpaqlarımızın azad olunması uğrunda qurban verdilər. Prezident və Birinci vitse-prezident şəhid anaları və ailələri üçün dünyada analoqu olmayan işlər görürlər və onlarla mütəmadi görüşlər keçirirlər;
- şəhidlərimizin ata və anaları oğullarının Vətən torpağı uğrunda şəhid olmalarından qürur hissi keçirdiklərini dilə gətirərək deyirlər: *"Vətənimiz, Prezidentimiz və ordumuz sağ olsun!"*;
- dövlət rəmzi olan bayrağa xalq və əsgərlərimiz tərəfindən milli ləyaqət kimi münasibət nümayiş olundu:
- xalq müharibə şəraitində yüksək nizam-intizam nümayiş etdirdi.

***4. İnformasiya müharibəsi, diasporaların fəaliyyəti***

- Prezidentimizin 17 illik fəaliyyətində kütləvi informasiya vasitələri ilə gördüyü işlər müharibə şəraitində öz bəhrəsini verdi;
- kütləvi informasiya vasitələri və xüsusən telekanallar son 27 ildə indiki qədər operativ və fəal çalışmamışdılar;
- kütləvi informasiya vasitələri Vətən müharibəsi şəraitində Prezidentin, ordunun, xalqın yanında olduqlarını gördükləri işlərlə nümayiş etdirdilər;
- Azərbaycan Prezidentinin rəhbərliyi altında ölkənin kütləvi informasiya vasitələri informasiya müharibəsində düşmənə tam qalib gəlirlər;
- Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin xarici ölkələrdə fəaliyyət göstərən diasporalarla və səfirliklərlə gördükləri işlər də öz bəhrəsini verdi.

***5. İlk 15 gün şəxsən mənə nə verdi?***

- Cəbrayıl rayonunun işğal altında olan şəhəri, çoxsaylı kəndləri və dünyaya göz açdığım Böyük Mərcanlı kəndi işğaldan azad olundu;
- yaxın ailə üzvlərimin (bacı-qardaşlarımın, qohumlarımın) üzərindən məcburi köçkün adı götürüldü;
- ən nəhayət, məcburi köçkün olan rəhmətlik anamın dünyasını dəyişəndə məndən bir xahişi olmuşdu ki, onun nəşini atamın işğal altında qalan nəşi ilə bir yerdə dəfn edim. Bu o zaman mümkün olmadığı üçün söz vermişdim ki, kənd işğaldan azad olunanda onun xahişini mütləq yerinə yetirəcəyəm. Belə bir imkanı cənab Prezident, Ali Baş Komandan və ordumuz indi yaratdı. Bu, mənim ürəyimdə qalan ən böyük nisgilim və arzum idi. Cənab Prezidentə və ordumuza təşəkkür etmək üçün leksikonumuzdakı sözlər kifayət deyil.

*Baxmayaraq ki, Azərbaycan Prezidenti erməni xalqına və Paşinyana son sülh şansı vermişdi, ancaq Paşinyan başda olmaqla Ermənistan rəhbərliyi, öz iç üzlərini, xain xislətlərini, çirkin niyyətlərini və faşist psixologiyalarını bir daha göstərdilər. Belə ki, Moskva danışıqlarında əldə olunmuş razılığa məhəl qoymadan oktyabrın 10-dan 11-nə keçən gecə qadağan olunmuş raketlərdən və digər silahlardan istifadə edərək, Gəncə şəhərini və digər ərazilərimizi qəddarcasına atəşə tutdular və nəticədə mülki əhali arasında həlak olanlar və yaralananlar oldu. Bütün dünya ölkələri və beynəlxalq təşkilatlar bir daha gördülər ki, Ermənistan rəhbərliyi qərəzli və işğalçılıq mövqeyindədir və Ermənistana qarşı ciddi tədbirlərin görülməməsi nəinki region, hətta dünya üçün təhlükədir.*

*Son 200 ilin hadisələri göstərir ki, ermənilər nəinki bizə, hətta digər ölkələrə də həmişə torpaq iddiasında olublar. Bu isə onların genetik xəstəliyindən xəbər verir.*

***Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılara şəfa versin. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü mütləq bərpa olunacaq və şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı kimi, mən də buna tam əminəm.***

***Son 17 ildə və xüsusən son 15 gündə möhtərəm cənab İlham Əliyev və hörmətli xanım Mehriban Əliyeva öz gördükləri işlərlə öz adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazdılar.***

***Ölkəmizin, xalqımızın, millətimizin xoş günləri hələ qabaqdadır.***

***Ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərliyi altında hələ çox nailiyyətlərin şahidi olacağıq.***

***Qələbə bizimdir!***

***Qarabağ Azərbaycandır!***

***ƏLİ HƏSƏNOV,***
***Yeni Azərbaycan Partiyası sədrinin müavini***

# Ermənilər böyük təşvişdə: "Paşinyan bizi məğlub etdi, indi rədd olmalıdır!"

## Humanitar atəşkəs Yerevanda və Xankəndidə Azərbaycanın növbəti qələbəsi kimi dəyərləndirilir





Vətən müharibəsi göstərdi ki, Azərbaycan cəmiyyətinin vətənpərvərliyi, insanların döyüş əzmi olduqca yüksəkdir. Humanitar məqsədlərlə elan olunan atəşkəsdən sonra Ermənistanda tamamilə fərqli mənzərə müşahidə olunur: insanlar xof və ümidsizlik içindədir, sabaha inamları qalmayıb.

Ermənilər mətbuata açıqlamalarında və sosial şəbəkələrdəki paylaşımlarında Azərbaycan Ordusunun qələbəsindən sonra vahiməyə düşdüklərini gizlətmir, bununla əlaqədar baş nazir Paşinyanı günahlandırırlar. Onlar Azərbaycanın qalib mövqedə olduğunu, Dağlıq Qarabağı tezliklə geri alacağını etiraf edirlər.

Mediada və sosial şəbəkələrdə şənbə və bazar günləri erməni istifadəçiləri tərəfindən yer alan maraqlı status və şərhlərdən bəzilərini diqqətinizə çatdırırıq.

### "Bilmirik ki, sabaha sağ çıxacağıq, ya yox"

"4rd.am" saytının Qarabağa ezam olunmuş xüsusi müxbiri yazır ki, Xankəndidə əhalinin əsəbləri mövcud çətinliklərə dözmür. Heç də hər kəsin Ermənistana və ya xaricə getmək üçün maliyyə imkanı yoxdur. Ona görə də könüllü surətdə taleyi ilə barışanların sayı çoxalır. Vurğulanır ki, Ermənistandakı bütün bu bəlaların kökündə isə mövcud rejimin fəaliyyətsizliyi dayanır.

Sayt Xankəndidə qalan azsaylı sakinlər arasında sosioloji sorğu da keçirib. "Qarabağda gedən döyüşlərin Ermənistan üçün ziyanı nə ola bilər və ya humanitar atəşkəs rejimini necə qiymətləndirirsiniz" sorğusunda Samvel Baqdasaryanın cavabı daha çox diqqət çəkib, sosial şəbəkələrdə bəyənmə toplayıb: "Zirzəmilərdə yatmaqdan artıq xəstəlik tapmışıq. Hər gün şəhərin sakinləri azalmaqdadır. Bilmirik ki, sabaha sağ çıxacağıq, ya yox. Azərbaycanla Ermənistanı müqayisə etmək düzgün olmazdı. ABŞ, Avropa İlham Əliyevdən neft, qaz istəyir. İlham Əliyev də onlara neft, qaz verir. Bəs, Azərbaycan rəhbəri onlardan nə istəyir: yalnız Qarabağı. Belə çıxır ki, onlar da İlham Əliyevə artıq borclu qalmırlar. Azərbaycan Prezidentinin dediyi ilə oturub dururlar. Əlvida, Qarabağ".



### "Hədəf Yerevandır..."

"İravunk" qəzeti Xankəndidən hazırladığı reportajda şəhərin getdikcə ağır vəziyyətə düşdüyünü yazır. Raffi Oskanyan adlı tarixçi müəllimlə həmsöhbət olan müxbir davam edən müharibəyə və humanitar atəşkəs rejiminə münasibət bildirib: "Bu gün dünya Azərbaycanın haqlı mövqeyindən danışır. Bütün dünya Paşinyanın çıxışından yox, İlham Əliyevdən danışır. Görəsən, bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İtirilən ərazilərin hesabatını kim verəcək? İlham Əliyev indiyəcən sülhdən danışa-danışa artıq Qarabağı bizdən geri almağa başlayıb. İndi isə açıq şəkildə müharibə davam edir, çox sərt danışırsa, deməк, onun hədəfi Yerevandır.

Bu gedişlə İlham Əliyevin Xankəndidə, paytaxt Yerevanda qarşısına çıxacaq bir adam tapılmayacaq. Mən özüm də daxil olmaqla on minlərlə insan Qarabağı tərk etməkdədir".

### "Dörd il əvvəlki kabusu Xankəndi yenidən yaşayır"

"Joxovurd" qəzeti yazır ki, cəmiyyət Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasından, bununla bağlı Ermənistanın üzləşdiyi çoxsaylı problemlərdən narazılıq edir. Artıq ermənilər davam edən döyüşlərdən sonra həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıblar.

Xankəndidə yaşayan Anna Stepanyan adlı sakinin "Nə vaxta qədər belə davam edəcək? Uşaqlarımız boş yerə həlak olur" fikirlərinin yer aldığı məqalədə iki dövlət başçısının müqayisəsi aparılır və sosial şəbəkələrdə daha çox müzakirə olunur. Vurğulanır ki, İlham Əliyevin Azərbaycan üçün nələr etdiyi göz qabağındadır. Ermənistan rəhbərliyi isə yalnız öz maraqlarını güdür, onlar üçün dövlətin və xalqın mənafeləri yoxdur: "Dörd il əvvəl yaşanılan kabusu Xankəndi, Qarabağ yenidən yaşayır. Paşinyan sevinir ki, nə yaxşı atəşkəs rejimi oldu. Son 10 gün ərzində itirilən torpaqlardan, məğlubiyyətdən sonra Paşinyan, hansı üzlə xalqın qarşısına çıxır? Bəs sabah Azərbaycan əsgəri Yerevana girsə, nə edəcəyik?"

### "Paşinyan Qarabağ məsələsində xalqı aldatdı"

Samvel Qriqoryan adlı istifadəçi isə "Twitter"də yazır: "Paşinyanın rəhbərliyi altında indiyədək Ermənistan hər sahədə məğlub olub, vətəndaşlarımız vətənlərindən qaçırlar. Onun rəhbərliyi altında bizi parlaq gələcək yox, tam məhvolma gözləyir. Paşinyan bizi məğlub etdi. İndi rədd olmalıdır!".

Edqar Qasparyan adlı biri "Facebook"da hakim "Mənim addımım" blokundan olan istifadəçilərin daha çox rəy bildirdiyi qrupda maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "İki gündür statuslarınıza baxıram, atəşkəs rejiminə sevinirsiniz. Bu qədər yalana heç özünüzün də inanmadığınızı düşünürəm (gülüş işarəsi). Gəlin həqiqəti danmayaq. Azərbaycan davam edən müharibədə neçə rayonu bizdən aldı. Paşinyanın Qarabağ məsələsində xalqı aldatmaq cəhdi isə günlər ötdükcə daha da iflasa uğramaqdadır. İlham Əliyev orduya milyardlarla dollar vəsait ayırır. Bizdəki hakimiyyət isə dövləti talamaqla ancaq cibini doldurur".





Sonda Xarput Mxıtaryan adlı istifadəçinin "Facebook"da paylaşdığı statusu vurğulamaq yerinə düşərdi: "Paşinyan son iki ildə Ermənistanı məhv edib. Satılmayan torpaq, zavod, obyekt qalmayıb. O hər dəfə Rusiyaya, Avropaya, xaricə gedəndə qorxuram ki, Yerevana qayıtmaya, çünki burda daha gəlir qazanacağı bir şey qalmayıb. Əziz atəşkəs rejiminə sevinən ermənilər, mənə gülməyin. Bir gün bu xəbərlə sabahımız açıla bilər: Paşinyan Ermənistandan qaçdı! Yəqin, axşamın da xəbəri belə olacaq: Azərbaycan əsgəri sərhədi keçib Yerevana doğru yürüyür".

Əlavə şərhə ehtiyac yoxdur...

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# *Mixail ZABELİN:*
# “Vətəni sonadək müdafiə etməyə hazırıq”

Ötən ayın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Orudsunun mövqelərini, habelə şəhər və kəndləri iriçaplı silahlardan, o cümlədən minaatanlardan və artilleriya qurğularından, eləcə də qadağan olunmuş fosfor və kaset bombalarından, ballistik raketlərdən atəşə tutaraq ölkəmizə növbəti dəfə təcavüz etmişdir. Nəticədə dinc əhali arasında çoxlu sayda ölənlər və yaralananlar var.



Buna cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ordumuz növbəti hərbi təcavüzün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət edilməklə əks-hücum əməliyyatı başlamışdır.

Yaranmış vəziyyətlə əlaqədar Milli Məclisin deputatı, Azərbaycanda Rus İcmasının sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mixail Zabelin qəzetimizə müsahibəsində bildirmişdir ki, Azərbaycan burada yaşayan hər bir millətdən olan insanlar kimi onun da doğma vətənidir. 1990-cı illər müharibəsində də ruslar Azərbaycanın ərazi bütövlüyü uğrunda düşmənə qarşı döyüşmüşlər. Onların arasında İvan Makeyev və Yuri Kovalyov Azərbaycanın Milli Qəhrəmanlarıdır.

İcmanın sədri qeyd etmişdir ki, ermənilərin növbəti təxribatları ilə əlaqədar rus icması beynəlxalq təşkilatları ikili standartlar siyasətindən əl çəkməyə və işğalçı Ermənistana təzyiq göstərməyə çağırmışdır. Azərbaycan rusları bütün müstəvilərdə, o cümlədən sosial şəbəkələrdə Azərbaycanın haqq işini dəstəkləyirlər:

- Prezident İlham Əliyevin ölkədə hərbi vəziyyət elan etməsi və xalqa, o cümlədən rus icmasına müraciəti hamı tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Ədalət Azərbaycanın tərəfindədir. Bu gün Ordumuz çox güclənmiş, zabit və əsgərlərimizin peşəkarlığı yüksək səviyyədədir. Hər birimiz işğal olunmuş torpaqlarımızın tezliklə azadlığa çıxmasını gözləyirik.

Ermənistanla 30 ilə yaxın davam etmiş danışıqlar heç bir nəticə verməmişdir. Ermənistanın baş naziri son vaxtlar dəfələrlə bildirmişdi ki, BMT-nin Azərbaycan torpaqlarının azad olunması barədə müvafiq qətnamələrini yerinə yetirmək niyyətində deyil. Təbii ki, Silahlı Qüvvələrimiz hərbi təcavüzü cavabsız qoya bilməzdi.

Bizi məyus edən bir də odur ki, Rusiyada və bir sıra digər ölkələrdə ermənipərəst televiziya aparıcıları cəbhədə əcnəbi muzdluların vuruşduğunu və Türkiyənin Azərbaycana hərbi dəstək verdiyini iddia edirlər. Bu iddiaların heç bir əsası yoxdur. Onlar, adətən, saxtakarlığa gedərək Suriya müharibəsindən köhnə kadrlar nümayiş etdirirlər. Prezidentimiz dəfələrlə vurğulamışdır ki, Azərbaycan Ordusunun zabit və əsgər sarıdan heç bir ehtiyacı yoxdur. Türkiyə isə Azərbaycanın ən yaxın dostu, qardaşıdır və bizə yalnız mənəvi dəstək verir. Türkiyənin mənəvi dəstəyi isə sabitləşdirici amildir.

Mixail Zabelin hesab edir ki, vaxtilə beynəlxalq təşkilatlar erməni tərəfini Azərbaycan ərazilərindən çıxmağa məcbur etsəydi, bugünkü vəziyyət yaranmazdı: “Əgər ATƏT-in Minsk qrupu 30 il ərzində bu problemi həll edə bilməyibsə, deməli, Azərbaycan öz ərazisini erməni işğalçılarından azad etmək üçün bütün mümkün vasitələrə əl atmaq hüququna malikdir”.

“Azərbaycanın rus vətəndaşları Prezident İlham Əliyevin torpaqlarımızın terrorçulardan təmizlənməsi ilə bağlı mövqeyini tam dəstəkləyir. Ötən əsrin 90-cı illərinin əvvəllərində olduğu kimi, biz yenə də azərbaycanlı qardaşlarımızla birgə Vətənin bütövlüyünü sonadək müdafiə etməyə hazırıq. Bu, hamımızın, o cümlədən Azərbaycanda yaşayan hər bir rusun Vətən qarşısında müqəddəs borcudur” - deyə Milli Məclisin deputatı vurğulamışdır.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

# İnternet resurslarında Azərbaycanın ərazi bütövlüyünün parçalanmasına yönələn çağırışlar edən şəxslə bağlı cinayət işi başlanıb

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşası, eləcə də ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən kompleks tədbirlərin davamı kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparılmış araşdırmalarla bəzi internet resurslarında ölkəmizin ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edilməsi ilə bağlı yayılmış videogörüntülər təhlil olunub.

Araşdırmalarla Rusiya Federasiyasının vətəndaşı 1985-ci il təvəllüdlü Semyon Vladimiroviç Peqovun Ermənistanda və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik tərkibində birləşərək “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Qanunun və Miqrasiya Məcəlləsinin tələblərinə zidd olaraq Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Bundan başqa, Semyon Peqovun Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində Ermənistan Respublikası tərəfindən hərbi təcavüz və milli ayrı-seçkiliyin nəticəsi kimi yaradılmış “Artsax” adlandırılan qanunsuz qondarma rejimin dəstəklənməsi məqsədilə, guya, həmin qurumun müdafiəsi üçün çoxsaylı könüllü erməni gənclərin səfərbər olduqlarını bildirən çəkilişlər etməsinə, işğal olunmuş ərazilərimizdə qanunsuz yaradılmış terrorçu silahlı qruplaşmanın üzvlərindən müsahibələr alıb, bu barədə müəllifi olduğu internet resurslarında çoxsaylı videogörüntülər paylaşmaqla Rusiya Federasiyasının vətəndaşlarına səslənərək Ermənistan Respublikasına kömək məqsədilə döyüş əməliyyatlarının aparıldığı bölgəyə gəlmələrinə, habelə ölkəmizin ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edərək bu cür məzmunlu materialları həmin internet səhifəsində yaymasına şübhələr üçün əsaslar müəyyən olunub.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-2-ci (terrorçuluğa açıq çağırışlar), 281.1-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanılıb. İstintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb.

Baş Prokurorluq tərəfindən həmin şəxsin vətəndaşı olduğu ölkənin səlahiyyətli qurumlarına hüquqi yardım haqqında sorğu göndərilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Baş Prokurorluq ölkəmiz üçün həssas olan dövrdə əhalini dövlət təhlükəsizliyinə və cəbhədə əməliyyat şəraitinə xələl gətirə biləcək addımlardan çəkinməyə çağırıb

Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını pozaraq ağır artilleriya və raketlərdən istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutduğunu, nəticədə bu hücumların qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladığını, həmçinin ölkəmizdə hərbi vəziyyətin elan edilməsi nəzərə alınaraq sosial media və digər rəqəmsal platforma istifadəçilərinə cəbhəboyu zonada vəziyyət, xüsusilə də hərbi-siyasi və əməliyyat şəraiti, qoşunların dislokasiyası, hərbi texnika və onun hərəkəti haqqında, eləcə də silah-sursat, habelə dövlət təhlükəsizliyinə xələl gətirən digər məlumatların yayılmaması ilə bağlı dəfələrlə xəbərdarlıq olunub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparılmış araşdırmalarla Bakı şəhər sakinləri Nadir Qafarzadə, Kamil Zeynallı və başqa şəxslər tərəfindən internet informasiya ehtiyatında, o cümlədən informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyaların, foto və videogörüntülərin yayılması halları müəyyənləşdirilib. Belə ki, inzibati xətalar haqqında qanunvericiliyin tələblərini pozduğuna görə Kamil Zeynallı barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1-ci (internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi) və 517-2.6-cı (hərbi vəziyyət rejiminin tələblərinin pozulması) maddəsinə əsasən, Füzuli Rayon Prokurorluğunda inzibati xətalar haqqında işlər üzrə icraat başlanıb. Toplanmış material baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilib.

Füzuli Rayon Məhkəməsinin qərarı ilə K.Zeynallı barəsində 10 gün müddətinə inzibati tənbeh növündə həbs seçilib.

Bundan başqa, qeyd edilənlərlə əlaqədar Nadir Qafarzadə Baş Prokurorluğa dəvət edilərək “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununa əsasən qanunvericiliyin tələblərinə zidd məlumatların yayılmasının davam etdiriləcəyi təqdirdə barəsində cinayət məsuliyyəti də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə prokuror təsir tədbiri aktı olan xəbərdarlıq elan edilib.

Eyni zamanda bu növ hərəkətlərə yol vermiş digər şəxslərlə də profilaktik söhbətlər və maarifləndirici işlər aparılıb.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bir daha əhalinin nəzərinə çatdırır ki, “Dövlət sirri haqqında” 2004-cü il 7 sentyabr tarixli Qanuna və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında” 2014-cü il 24 sentyabr tarixli Sərəncamına uyğun olaraq qanunla qadağan olunmuş məlumatların yayılmasına görə müvafiq məsuliyyət nəzərdə tutulur.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri, hərbi obyektlər, onların təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətinin sayı barədə fotoşəkillər, audio-video materiallar və digər informasiyalar yayan şəxslər barədə qanunvericiliyin tələblərinə uyğun olaraq ən ciddi tədbirlərin görülməsi təmin ediləcək.

“Hazırda ölkəmiz üçün həssas olan dövrdə hər kəsi vətəndaş məsuliyyətini dərindən dərk etməyə, ayıq-sayıq olmağa, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə və cəbhədə əməliyyat şəraitinə xələl gətirə biləcək addımlardan çəkinməyə çağırırıq”, - deyə Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatında qeyd olunub.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi
## *açıq tenderə dəvət edir*

- “Daxili məhkəmə proseslərinin mərkəzləşdirilmiş vahid elektron uçotunun və idarəetmə sisteminin qurulması işlərinin” satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200.00 (iki yüz) manat**

| | |
|---|---|
| **VÖEN:** | **1300050781** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **H/h:** | **AZ46CTRE00000000000007018504** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |

| | |
|---|---|
| **Büdcə gəlirlərinin təsnifat kodu:** | **-142330** |
| **Büdcə səviyyəsinin kodu:** | **- 4** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (notarial qaydada təsdiq olunmuş) və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış; (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ixtisalı işçi heyəti barədə məlumatlar (CV-lər əlavə olunmaqla);*
- *bənzər işlərdə təcürbəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiq edici sənədlər təqdim olunmalıdır;*
- *“Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyəti”nə dair lisenziya;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa və dövlət satınalmalarını hüquqi cəhətdən tənzim edən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.11.2020-ci il saat 15:00** tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini **11.11.2020-ci il saat 15:00** tarixinə qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **12.11.2020-ci il saat 15:00** tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu
## Təbii dibçək güllərinin (həmişəyaşıl otaq bitkilərinin) və plastik dibçəklərin satın alınması üçün
## ***kotirovka sorğusu elan edir***

Təkliflər 16 oktyabr 2020-ci il saat 11:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim olunmalıdır.

Zərflər 16 oktyabr 2020-ci il saat 14:00-da H.Zərdabi prospekti, 80 ünvanında, Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatının inzibati binasında açılacaqdır. Əlavə məlumatı tender komissiyasından ala bilərsiniz.

**Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***



## “Azərenerji” ASC
## 4 ədəd yeni pikap və 2 ədəd yeni yüksək keçicilik qabiliyyəti olan yük-sərnişin avtomobillərin satın alınması üzrə
## ***açıq tender elan edir***

**Tender 1 LOT üzrə keçirilir: 4 ədəd yeni pikap və 2 ədəd yeni yüksək keçicilik qabiliyyəti olan yük-sərnişin avtomobillərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini **dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adı çəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: (012)-598-26-96; 490-09-27; 598-05-56.

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı **dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı Dövlət Statistika Komitəsi tərəfindən verilmiş sənəd (iri sahibkarlıq subyektləri qanuna əsasən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 1 ay (30 gün) müddətinə çatdırılmalıdır;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində skan olunaraq **dövlət satınalmalarının vahid internet Portalına** yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **03 noyabr 2020-ci il saat 09:00-a** qədər, bank təminatını və tender təklifini isə **12 noyabr 2020-ci il saat 09:00-a** qədər **dövlət satınalmalarının vahid internet Portalı** vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri **13 noyabr 2020-ci il saat 09:00-da dövlət satınalmalarının vahid internet Portalı** vasitəsilə açılacaqdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun 07.10.2020-ci il tarixdə elan etdiyi Təbii dibçək güllərinin (həmişəyaşıl otaq bitkilərinin) və plastik dibçəklərin satınalınması üçün kotirovka sorğusu iddiaçılarının sayı 3-dən az olduğu üçün ləğv edilir.

***Tender komissiyası***



## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 17 sentyabr 2020-ci il tarixli buraxılışında “Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə dalma nasoslarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu vaxtı (tender təklifi və bank təminatı istisna olmaqla) 21 oktyabr 2020-ci il saat 18:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 29 oktyabr 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 30 oktyabr 2020-ci il saat 18:00-a dəyişdirilmişdir. İddiaçılar “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, 431-47-67/2246, agali.mirzeyev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***



## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 17 sentyabr 2020-ci il tarixli buraxılışında “Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə mərkəzdənqaçma nasoslarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu vaxtı (tender təklifi və bank təminatı istisna olmaqla) 21 oktyabr 2020-ci il saat 18:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 29 oktyabr 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 30 oktyabr 2020-ci il saat 18:00-a dəyişdirilmişdir. İddiaçılar “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, 431-47-67/2246, agali.mirzeyev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

# Ali Baş Komandanım

Qəhrəmanlıq xalqımın
Ruhunda, qanındadı.
Xalqım tək qoymaz səni,
Hər zaman yanındadı,
Mil, Muğanım, Şirvanım,
Ali Baş Komandanım!

Mümkün olmayanı da
Sən əmrinlə mümkün et!
Xalqımız səninlədi
Dayanma, irəli get!
Qoy ölməsin inamım,
Ali Baş Komandanım!

Bir hücum əmrin ilə
Günəş doğdu üzümə.
Görüb qətiyyətini
İndi döndü özümə,
Həm şöhrətim, həm şanım,
Ali Baş Komandanım!

Böyük savaşımızı
Bütün dünya izləyir.
Baxıb şücaətinə
Yolumuzu gözləyir,
Türk yurdu İrəvanım,
Ali Baş Komandanım!

Bu sözləri deməyə
Bilin ki, çatır haqqım.
Bir ağızdan deyəcək
Bu qədirbilən xalqım,
Ey milli qəhrəmanım!
Ali Baş Komandanım!

*Seymur ŞEYDAYEV*



## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 17 sentyabr 2020-ci il tarixli buraxılışında "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə drenaj və hidrifor tipli nasoslarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu vaxtı (tender təklifi və bank təminatı istisna olmaqla) 21 oktyabr 2020-ci il saat 18:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 29 oktyabr 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 30 oktyabr 2020-ci il saat 18:00-a dəyişdirilmişdir. İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, 431-47-67/2246, agali.mirzeyev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 04 mart 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş "Aztelekom" MMC-nin inzibati və texnoloji binasının 2-ci, 3-cü, 4-cü və 7-ci mərtəbələrində mövcud sanitar qovşaqlarında təmir-tikinti işlərinin satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "Xurcan" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Xurcan" MMC arasında 06 oktyabr 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 13.09.2020-ci il tarixdə "Maşın, avadanlıq və ləvazimatların satın alınması" üzrə elektron portal vasitəsilə elan etdiyi açıq tender Azərbaycan Respublikasının "Dövlət satınalmaları haqqında" Qanununun 14.2-ci maddəsinə uyğun olaraq ləğv edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Göyçay Rayon İcra Hakimiyyəti tərəfindən 10 oktyabr 2020-ci il tarixdə Göyçay şəhərində abadlıq işləri və daxili yolların əsaslı təmiri işlərinin satın alınması ilə bağlı dərc olunmuş tender başqa satınalma metodu nəzərdə tutulduğundan həmin işlərin satın alınması məqsədilə açıq tenderin keçirilməsinə dair elanlar etibarsız sayılır və onun davamından imtina edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi 21.08.2020-ci il tarixdə ofis sahəsinin icarəsi xidmətinin satın alınması üçün elan etdiyi açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci və 50-6.2-ci maddələrinə əsasən (AİBNDX-nin 29.09.2020-ci il tarixli AİBNDX-15/01-5/896s nömrəli razılıq məktubu) ləğv edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 06 may 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş "Aztelekom" MMC-nin inzibati və texnoloji binasının 2-ci mərtəbəsinin xətt aparat sexində lambirin konstruksiyalı otaqların, həmçinin digər mərtəbələrdəki divarlarda lambirin üzlüklərin yanmayan materiallarla əvəz olunması işlərinin satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "SLB CONSTRUCTION" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "SLB CONSTRUCTION" MMC arasında 06 oktyabr 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC tərəfindən arxiv sənədlərinin cildləmə xidmətlərinin satın alınması.

**İştirak haqqı: 150 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **"ASAN ödəniş" sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı:**
**"Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **02 noyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **11 noyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **12 noyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

LOT-1. Lotereya biletlərinin satışının təşkili.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yuxarıda göstərilən LOT-lar üzrə tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Təbriz küçəsi, 79 ("Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti) ünvanından (Əlaqələndirici şəxs: Abbasov Rüfət Rasim oğlu, telefon: 514 47 01/02) ala bilərlər.

**İştirak haqqı LOT-1 üzrə 300 (üç yüz) manat**
**"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti**
**Hesab: AZ56IBAZ38090019449334144207**
**VÖEN: 1300053151**
**Bank: "ABB" Nəsimi filialı**
**Kodu: 805614**
**VÖEN: 9900001881**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T Code: IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;* -
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **16 noyabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **25 noyabr 2020-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Təbriz küçəsi, 79 ("Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **26 noyabr 2020-ci il saat 11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Göygöl Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi Maşın və avadanlıqların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 19 oktyabr 2020-ci il saat 13:00-dək qəbul olunur.

Kotirovka sorğusunun təklif zərfləri 19 oktyabr 2020-ci il saat 15:00-da Göygöl şəhəri Səbuhi Hacıyev küçəsi, 42, Göygöl Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyinin inzibati binasında açılacaqdır.

Maraqlanan qurumlar əlaqələndirici şəxs Mirzə Məmmədov - (02220) 5-22-39, (050) 327-26-72 nömrəli telefonlarla və ya **mirz.mmmdov@mail.ru** email ünvanı ilə əlaqə saxlaya bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzetinin kollektivi iş yoldaşları Daşdəmir Tağıyevə atası

**ƏJDƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova qardaşı

**MURAD İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TuranBank ASC-nin rəhbərliyi və kollektivi bankın Binəqədi filialının direktoru Yeganə Eyyubovaya anası

**DİYNƏ FƏRZƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7454
Sifariş 2394
Qiyməti 40 qəpik